RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 29 (8908) ÇƏRŞƏNBƏ, 9 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# "Yaşma" yarımstansiyası dövlətlərarası qovşaq funksiyasını daşıyır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan, dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Rusiya-Azərbaycan enerji sistemlərini əlaqələndirərək, dövlətlərarası qovşaq yarımstansiyası funksiyasını daşıyan "Yaşma" yarımstansiyası Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə tikilib. Yarımstansiya dənizə yaxın, nəmişlik ərazidə yerləşdiyi üçün dəmir-beton və metal-konstruksiyaların aşınması, həmçinin uzunmüddətli istismar nəticəsində avadanlığın köhnəlməsi, izolyasiya parametrlərinin pisləşməsi tez-tez qısaqapanma hadisəsinin baş verməsinə səbəb olurdu. Bundan əlavə, sistem qəzalarının başvermə ehtimalı və sürətlə artan tələbatı ödəyə bilməməsi ilə əlaqədar yarımstansiya Prezident İlham Əliyevin tapşırığı ilə rəqəmsal qaydada tam yenidən qurulub. Spesifik sahə olduğundan yenidənqurma işləri yerli mütəxəssislər tərəfindən növbətçilik əsasında, elektrik gərginliyi saxlanılmaqla aparıldığı üçün yarımstansiyanın fəaliyyətində fasilə yaranmayıb.

"Sumqayıt", "Qobu", "Xaçmaz" elektrik stansiyaları ilə birbaşa, "Azərbaycan" İstilik-Elektrik Stansiyası və "Cənub" Elektrik Stansiyası ilə "Abşeron" yarımstansiyası vasitəsilə əlaqələndirildiyindən çox mühüm strateji funksiyanı üzərinə götürən "Yaşma" qovşaq yarımstansiyasının "Qobu" Enerji Qovşağına, bu ilin yanvarında əsası qoyulan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası və tikintisinə başlanılacaq yeni "Yaşma" Elektrik Stansiyasının enerji sisteminə inteqrasiyasının həyata keçirilməsi üçün yeni yuvalar quraşdırılıb. Şimal-şərq rayonlarının və Abşeron yarımadasının enerji təchizatında müstəsna əhəmiyyət kəsb edən "Yaşma" yarımstansiyasında 330, 220 və 110 kilovoltluq açıq paylayıcı qurğular sökülərək genişləndirilmiş formada yenidən qurulub. Burada hər birinin gücü 250 meqavat olan üç yeni avtotransformator quraşdırılıb. Nəticədə yarımstansiyanın ümumi gücü 110 meqavat artırılmaqla 750 meqavata çatdırılıb. "Qobu" Elektrik Stansiyasından "Yaşma" yarımstansiyasına 47 kilometr məsafədə 330 kilovoltluq ötürmə xətti çəkilib.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

*Ardı 2-ci səh.*



# Yeni hədəf, yeni mərhələ

## Prezidentin səsləndirdiyi tezislər postböhran və ondan sonrakı dövr üçün inkişafın istiqamətverici konsepsiyasıdır

"İndi Azərbaycan müstəqildir və müstəqil siyasət aparır. Heç bir kənar qüvvə bizim işimizə qarışa bilməz".

Ölkə gəncliyi ilə görüşündə İlham Əliyev bu fikri qətiyyətli şəkildə səsləndirdi. Bu, Azərbaycan tarixinin və günümüzün reallığıdır. Cənubi Qafqazın qüdrətli və tam müstəqil siyasət yürüdən dövlətinin lideri bu gün Azərbaycanı dünyada sürətlə inkişaf edən ölkələrdən birinə çevirib.

Gənclərlə görüşdə Prezident bu uğurların necə əldə edildiyini və mövcud potensialın daha da gücləndirilməsinin istiqamətlərini göstərdi. Yəni dövlət başçısı ölkənin qloballaşan dünyada getdikcə daha da mürəkkəbləşən geosiyasi, geoiqtisadi mühitdə inkişafının yol xəritəsini təqdim etdi.

Bütün bunlar gəncləri maraqlandıran, düşündürən suallara Prezident tərəfindən verilən cavablar əsasında aydınlaşdı. Dövlət başçısı həm mövzunu ətraflı izah etdi, həm də həmin istiqamətdə görülən işlər və nəzərdə tutulan yeni inkişaf istiqamətinin tezislərini səsləndirdi. Eyni zamanda problemlərə də toxunan İlham Əliyev onun həlli yollarını və inkişaf trendinin yeni istiqamətlərini də göstərdi.

### Milli-mənəvi dəyərlər, dəyişən formalar, dəyişməyən məqsəd və məramlar

Prezident görüş zamanı daim aktuallığı ilə seçilən milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi üçün müasir Azərbaycan gəncinin fəaliyyətini qiymətləndirdi və mühüm tövsiyələrini verdi.

Milli-mənəvi dəyərlərin dövlətimizin əsasını təşkil etdiyini vurğulayan Prezident bir daha bəyan etdi ki, müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Bu dəyərlərin qorunub saxlanması Azərbaycana hərtərəfli dividendlər qazandırıb və bu mövcud dəyərləri qoruyub saxladıqca ölkəmiz daha da güclənəcək, xalqımız əbədi azad, müstəqil xalq kimi yaşayacaq. Bunun üçün isə, ilk növbədə, ölkə gəncliyi mütləq vətənpərvərlik əsasında tərbiyə edilməli, yetişməkdə olan nəslə Vətənə bağlılıq prinsipləri ən yüksək səviyyədə aşılanmalıdır. Vətən və dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur.

Yeni çağırışlara gəldikdə isə İlham Əliyev gənclərin diqqətinə çatdırdı ki, qloballaşma bu gün başqa ad altında kök salır. Bu meylin əsas məqsədi müxtəlif ölkələrin daxili işlərinə qarışmaq, qloballaşma, yaxud da insanları, xüsusilə də gəncləri vahid "dəyərlər" ətrafında birləşdirmək, kosmopolit gənclər yetişdirmək və təbii ki, ondan sonra o ölkələri idarə etməkdir. Yəni məqsəd dəyişmir və dəyişməyəcək: "Əgər hətta uzaq tarixə nəzər salsaq görərik ki, məqsəd və məram dəyişmir, forma dəyişir, mübarizə üsulları dəyişir. Hansısa məsələni həll etmək üçün bu məsələnin pərdələnməsi, yaxud da, əgər belə demək mümkündürsə, qablaşdırılması dəyişir, amma mahiyyət dəyişmir. Yəni hegemonluq uğrunda mübarizə, xüsusilə böyük önəm daşıyan ölkələr, zəngin təbii resurslarla özünü təmin etmiş ölkələr və çox strateji coğrafi yerləşməyə malik olan ölkələr xüsusi diqqət cəlb edir. Azərbaycan da bütün bu amilləri özündə ehtiva etdiyi üçün biz bunu hər zaman, müstəqillik illərində dəfələrlə görmüşük. Bax, bu niyyətlə üzləşirik, buna müqavimət göstəririk və deyə bilərəm ki, bu təhlükələri dəf edə bilmişik".

*Ardı 3-cü səh.*

# Gənclər IV Sənaye İnqilabı ilə bağlı yenilikləri yüksək səviyyədə mənimsəyirlər

## Onlar işğaldan azad olunmuş ərazilərin bərpasında fəal iştirak edirlər

Azərbaycan dövlətinin məqsədi gəncləri vətənpərvərlik ruhunda yetişdirmək, onların enerji və potensialından ölkənin hərtərəfli inkişafında geniş istifadə etməkdir.

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılan bu ənənəni daha da təkmilləşdirmək üçün Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramını qəbul etmişdir. 2007-ci il "Gənclər ili" elan olunmuş, 2011-ci ildə Gənclər Fondu yaradılmış, 2013-cü ildə isə ölkədə ilk dəfə "Gənclər üçün Prezident mükafatı" təsis edilmişdir.

Dövlət tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən bu siyasət 44 günlük Vətən müharibəsində imtahana çevrildi. Gənclərimiz sınaqdan şərəflə çıxdı. Dövlət başçısının vurğuladığı kimi, qələbənin əsas şərtlərindən biri gənclərimizin qəhrəmanlığı və vətənpərvərliyi olmuşdur.

*Ardı 3-cü səh.*

# Möhtəşəm minilliklərin şanlı 98 ili

## Muxtar respublikanın yüksəlişi Heydər Əliyev ideyalarının təntənəsi, İlham Əliyevin inkişaf kursunun təcəssümüdür

Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən və dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri...

Nuh peyğəmbərin məskən saldığı qədim yurd yerimiz...

Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsinin yaranmasında böyük rolu olan diyar...

Dövlətçilik irsimizin formalaşmasına tarixi töhfələr ərməğan edən ulu torpaq...

Söhbət hər daşında, hər salnaməsində xalqımızın milli kimliyini, tarixi irsini tərənnüm edən və yaşadan Naxçıvandan gedir. Qədim və zəngin keçmişə malik Naxçıvanın muxtariyyət tarixinin bu gün 98-ci ili tamam olur.

### Tarixi zərurətdən yaranan muxtariyyət

Minilliklərə söykənən tarixə və dövlətçilik ənənələrinə, həmçinin zəngin mənəvi və mədəni dəyərlərə malik olan Azərbaycan keşməkeşli, eyni zamanda parlaq və şərəfli inkişaf yolu keçib. Bu yolda Azərbaycanın dövlətçilik tarixinə layiqli töhfələr vermiş hər bir yurd yerimiz kimi, Naxçıvanın da öz yeri var.

*Ardı 8-ci səh.*

**◆ Sosial oçerk**



# Torpağa əyilmədən ucalmaq mümkün deyil

O, şumlanmış sahədən əyilib bir ovuc torpaq götürür: "Ay maşallah, yanvar ayında yağan qar necə də yaxşı təsir edib". Sonra ovcundakı torpağa diqqətlə baxaraq deyir: "İnşallah, fevral ayında bir dəfə də qar düşsə, məhsul bol olacaq".

Qar-şaxta torpaq üçün dərmandır. Canına keçərək həm onu yumşaldır, münbitləşdirir, həm də qurd-quşu varsa, məhv edir. Ona görə də qar yağanda müəyyən çətinliklər yaransa belə kəndli həmişə sevinir. Bunları nəzərə alaraq, yay aylarında öz ruzisini, saxladığı mal-qara üçün yemi tədarük edib qoyur başının altına. Bu minvalla kim ki, işini vaxtında planlı şəkildə görür, çətinliklə, demək olar ki, üzləşmir.

"Mən əsasən pambıq əkib-becərirəm. Torpağın daim məhsuldar olması, qüvvədən düşməməsi, müəyyən xəstəlik törədicilərinə yoluxmaması üçün növbəli əkinə üstünlük verirəm. Taxıl da əkirəm. Bu il əkdiyim 10 hektar taxıla da son vaxtların yağıntısı yaxşı təsir edib. Pambıq əkəcəyim sahələrin müəyyən hissəsində artıq qış aratı aparmışam. Bir-iki günə digərlərinə də su açacam. Suyun azlığı isə bizi çox narahat edir".

*Ardı 10-cu səh.*

**◆ Dünya gündəmi**

# Kanadada etiraz dalğası böyüyür

## İflic olunmuş paytaxtda fövqəladə vəziyyət elan edilib

Kanadada uzaq məsafələrə işləyən yük maşınlarının sürücülərinin anti-COVID tədbirlərinə qarşı etirazları ikinci həftədir səngimir. Ottava şəhərinin meri Cim Uotsonun etiraf etdiyi kimi, paytaxt tamamilə nəzarətdən çıxıb, nümayişçilərin sayı polis əməkdaşlarının sayını üstələyib.

Hakimiyyət hesab edir ki, etirazlar sakinlərin təhlükəsizliyinə təhdiddir. Şəhərdə fövqəladə vəziyyət tətbiq edilibdir.

Ottavanın mərkəzi avtomobillərlə əhatə olunmuş və çadırlarla örtülmüşdür. İrqi zəmində hücumlar barədə də məlumatlar daxil olmaqdadır.

"Azadlıq Konvoyu" adlandırılan etirazlar yanvarın 29-da yeni sərhəd qaydalarına cavab olaraq başlayıb. ABŞ-Kanada sərhədini keçmək üçün icazə yalnız tamamilə vaksinləşdirilmiş sürücülərə verilir, ağır yük avtomobillərinin peyvənd vurulmayan sürücüləri isə ABŞ-dan Kanadaya qayıdarkən iki həftəlik karantinə riayət etməli olurlar.

Sürücülərin aksiyası tez bir zamanda bütövlükdə koronavirusla bağlı məhdudiyyətlərə qarşı etirazlara çevrilib.

*Ardı 12-ci səh.*

# "Yaşma" yarımstansiyası dövlətlərarası qovşaq funksiyasını daşıyır







*Əvvəli 1-ci səh.*

Məlumat verildi ki, energji sistemində ilk dəfə məhz bu yarımstansiyada respublikanın şimal-şərq rayonlarının və Abşeron yarımadasının reaktiv gücünü kompensasiya edə biləcək şuntlayıcı reaktor quraşdırılıb. 120 MVAr gücündə idarəolunan şuntlayıcı reaktor 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləyəcək, xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər, texniki itkiləri azaldacaq və bununla yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitinə qənaət etmiş olacaq.

Yarımstansiyanın ərazisində yeni idarəetmə mərkəzi tikilib. Burada yeni əks-qəza avtomatikası sistemi yaradılıb, yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub və enerjisistem mərkəzi SCADA sisteminə inteqrasiya olunub. Rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq, yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, açılıb-qoşulma əməliyyatları proqram təminatı vasitəsilə avtomatik həyata keçirilir.







Bakı-Quba magistral yolundan yarımstansiyaya qədər dörd kilometr məsafədə yol təmir edilib, bir kilometr məsafədə yeni yol çəkilib və daxili yollar salınıb.

Sistem əhəmiyyətli 330/220/110/10 kilovoltluq "Yaşma" yarımstansiyasının əsaslı yenidən qurulması ilə onun yükötürmə qabiliyyətinin artırılmasına, dövlətlərarası və ölkədaxili elektrik təchizatının etibarlığının və dayanıqlılığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir texnologiyaların tətbiqinə nail olunub. Ən müasir idarəetmə, rele mühafizəsi və avtomatika dövrələrinin quraşdırılması avadanlıqların imtinası və zədələnməsinin qarşısının alınmasını, mühafizələrin cəld, selektiv, etibarlı işini və operativ əməliyyatların çevikliyini təmin edəcək.

## Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası olaraq əmək pensiyaçılarının sosial müdafiəsini gücləndirmək, COVID-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin əmək pensiyaçılarının sosial rifahına mənfi təsirlərini yumşaltmaq, həmçinin postmüharibə dövründə xüsusi əhali qruplarına dövlət qayğısını artırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

1.1. 2022-ci il yanvarın 1-nə 2021-ci il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

1.1.1. orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2022-ci il yanvarın 1-dək təyin edilmiş bütün növ əmək pensiyalarının sığorta hissəsinin;

1.1.2. istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində 2022-ci il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin;

1.2. bu Sərəncamın 1.1-ci bəndində nəzərdə tutulmuş indeksləşdirməyə əlavə olaraq, 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş əmək pensiyaçılarına (qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla) 2022-ci il üzrə 200 (iki yüz) manat məbləğində maddi yardımın bərabər hissələrlə rübdə bir dəfə olmaqla ödənilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bir ay müddətində:

2.1.1. bu Sərəncamın 1.2-ci bəndində nəzərdə tutulan maddi yardımın 2023-cü il yanvarın 1-dən etibarən onun şamil edildiyi əmək pensiyaçılarının illik pensiyalarının tərkibinə daxil edilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. qulluq stajına görə əlavə alan əmək pensiyaçılarının əmək pensiyalarının indeksləşdirilməklə artırılması mexanizminə, habelə həmin şəxslərə 2022-ci ildə maddi dəstək göstərilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.3. bu Sərəncamın 1.2-ci bəndində nəzərdə tutulmuş maddi yardımın dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün tədbirlər görsün;

2.1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2022-ci il*

## Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının genişləndirilməsi məsələləri müzakirə olunub

Fevralın 8-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli müdafiə nazirinin müavini Muhsin Dərənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan müdafiə naziri Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.

Hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinin hərbi əməkdaşlığa da müsbət təsir etdiyini deyən general-polkovnik Z.Həsənov strateji müttəfiqliyin dostluq və qardaşlıq əlaqələri üzərində qurulduğunu bildirib.

M.Dərə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin vacibliyini xüsusi qeyd edib.

Görüşdə Bakıda keçiriləcək "TEKNOFEST-2022" festivalında Azərbaycan Hərbi Hava Qüvvələrinin vasitələrinin və hərbi qulluqçularının iştirakı barədə fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan-Türkiyə əməkdaşlığının inkişaf perspektivləri, o cümlədən hərbi-texniki sahədə birgə işçi qrupların yaradılması və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Pensiyalar artırıldı və əlavə olaraq pensiyaçılara maddi yardım ayrıldı

Prezident İlham Əliyevin "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 2022-ci il 8 fevral tarixli Sərəncamı dövlət başçısının pensiyaçılara növbəti qayğısı olmaqla, COVID-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı qiymət artımlarının ölkədaxili inflyasiyaya və əmək pensiyaçılarının sosial rifahına mənfi təsirlərinin yumşaldılması məqsədinə xidmət edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a bildirilib ki, yeni sərəncamla 2022-ci il 1 yanvar tarixinədək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi 2021-ci il üzrə orta aylıq nominal əməkhaqqının artım tempinə uyğun indeksləşdirilərək 2022-ci ilin 1 yanvar tarixindən artırılacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək.

Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2021-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempi 3,4 faiz təşkil edib.

Bu artımla bərabər, sərəncama əsasən, sığorta prinsipi ilə pensiya alanlara 2022-ci il üzrə 200 manat məbləğində maddi yardımın da verilməsi nəzərdə tutulur. Həmin vəsait rüblər üzrə bölünməklə pensiyaçılara ödəniləcək və ilkin ödəniş fevral ayının pensiyaları ilə birgə veriləcək. Bu həftə ərzində pensiyaların yeni artımlarla birgə ödənişinə başlanılacaq.

Beləliklə, artımlar ölkə üzrə pensiyaların orta aylıq məbləğinə münasibətdə təqribən 9 faiz təşkil edəcək. 300 manatadək pensiya alan şəxslərdə bu artım 10 faizədək, daha yüksək məbləğlərdə pensiya alanlarda isə 7-8 faizədək olacaq.

Sərəncamla müəyyən edilən indeksasiya və maddi yardım 2021-ci il üzrə orta inflyasiya dərəcəsini (6,7 faiz) üstələyir ki, bu da pensiyaçılara dövlət dəstəyinin növbəti bariz nümunəsidir.

Pensiyaların 2022-ci ilin əvvəlindən indeksləşdirilərək artırılması və maddi yardım verilməsi pensiyaçıların 92 faizini və ya 1,1 milyon nəfəri əhatə edəcək və bu məqsədlər üçün il ərzində əlavə olaraq 352 milyon manat xərclənəcək.

Qeyd edilən maddi yardımın 2023-cü ilin əvvəlindən pensiyaçıların illik pensiyalarının tərkibinə daxil edilməsi nəzərdə tutulub. Bununla bağlı müvafiq qanunvericilik aktları qısa müddətdə ölkə Prezidentinə təqdim olunacaq.

Eyni zamanda, sərəncamla istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq sığortaolunanların fərdi hesablarının sığorta hissəsindəki pensiya kapitalları da 6,7 faiz indeksləşdirilməklə artırılır. Bu da əmək müqaviləsi əsasında işləyən şəxslərin fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay onların əməkhaqlarından sosial sığorta ayırmaları ilə deyil, həmçinin hər ilin əvvəlində dövlət tərəfindən indeksləşdirilərək artırıldığını da göstərir.

Yeni sərəncam qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxsləri də əhatə edir. Dövlət başçısı tərəfindən Nazirlər Kabinetinə bu kateqoriyadan olan pensiyaçıların pensiyalarının indeksləşdirilməklə artırılması, habelə 2022-ci il üzrə maddi dəstəyin göstərilməsinə dair təkliflərini 1 ay müddətində təqdim edilməsi tapşırılıb.

Məlumat üçün bildirək ki, qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxslər 99 min nəfərdir və əsasən pensiyaya çıxmış hərbçilər, hüquq-mühafizə orqanlarının əməkdaşları, dövlət qulluqçuları və b. ibarətdir. Mövcud qanunvericiliyə əsasən bu kateqoriyadan olan pensiyaçıların pensiyaları sığorta prinsipindən kənar formalaşdığına görə illik indeksasiyalar onların pensiyalarının ümumi məbləğinə şamil olunmur. Yeni sərəncam isə bu şəxslərə də 2022-ci ildə dövlət dəstəyinin göstərilməsinə və ümumi pensiya məbləğlərinin hər il artırılmasına imkan yaradacaq.

## Ermənistan tərəfinin itkin düşmüş vətəndaşlarımızla bağlı üzərinə öhdəlik götürməməsinə dair açıqlaması humanitar hüquq normalarına hörmətsizliyin ən ifrat nümunəsidir

Ermənistan Xarici İşlər Nazirliyinin Mətbuat katibinin erməni əsilli 8 hərbi qulluqçunun qaytarılması müqabilində Birinci Ermənistan-Azərbaycan müharibəsində itkin düşmüş vətəndaşlarımızın və onların basdırıldıqları kütləvi məzarlıqların yerləri barədə məlumatların Azərbaycan tərəfinə verilməsi barədə rəsmi Yerevanın öz üzərinə öhdəlik götürməməsinə dair 2022-ci il 7 fevral tarixli açıqlaması beynəlxalq humanitar hüququn normalarına və humanizm prinsipinə hörmətsizliyin ən ifrat nümunəsi kimi qiymətləndirilməlidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəliklərdən yayınmaq cəhdi ilə bağlı açıqlamasında bildirilib.

Açıqlamada həmçinin qeyd olunub: "Ermənistan Xarici İşlər Nazirliyinə xatırladırıq ki, 1949-cu il Cenevrə Konvensiyası və onun müvafiq protokolları, bütövlükdə beynəlxalq humanitar hüquq normaları ilə üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, Ermənistan tərəfi sözügedən dövlətin silahlı qüvvələri tərəfindən sistemli surətdə qətlə yetirilən mülki və hərbi Azərbaycan vətəndaşlarının və onların kütləvi şəkildə basdırıldıqları məzarlıqların yerləri barədə məlumatları Azərbaycan tərəfinə təqdim etməyə borcludur.

Bir daha vurğulamaq istərdik ki, bu il fevralın 4-də Fransa Respublikasının Prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilmiş görüşün gündəliyində duran əsas məsələlərdən biri məhz humanitar məsələlər olub. Bununla əlaqədar, Azərbaycan Prezidenti tərəfindən Birinci Ermənistan-Azərbaycan müharibəsi zamanı itkin düşmüş 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının taleyi barədə məlumatın verilməsi və onların basdırıldığı kütləvi məzarlıqların yerlərinə Ermənistan tərəfindən aydınlıq gətirilməsinin vacibliyi diqqətə çatdırılıb, bu məsələyə Fransa və Avropa İttifaqı Şurasının prezidentləri tərəfindən dəstək ifadə olunub. İtkin düşmüş 4000-ə yaxın Azərbaycan vətəndaşının taleyinə aydınlıq gətirilməsinə görə məsuliyyət daşıyan Ermənistan tərəfi isə bu məsələdə əməkdaşlıq edəcəyinə vəd verib.

Azərbaycan tərəfinin atdığı humanist addımların nəticəsi olaraq 1708 erməni hərbi qulluqçunun cəsədinin tapılaraq qarşı tərəfə təhvil verilməsi fonunda Ermənistanın inkarçılıq siyasətini davam etdirməsi, beynəlxalq humanitar hüquq əsasında, həmçinin 2022-ci il fevralın 4-də videoformatda keçirilmiş görüş zamanı üzərinə götürdüyü öhdəlikləri inkar etməsi mənəvi-etik və beynəlxalq hüquqi çərçivələrdən tamamilə kənara çıxır.

Bu müstəvidə humanizm prinsipinə sadiq qalan Azərbaycan Respublikası tərəfindən müvafiq hüquqi prosedurlar bitdikdən sonra Ermənistan tərəfinə təhvil verilən hərbi qulluqçuların yenə Ermənistan dövləti tərəfindən kütləvi surətdə həbslərə və təqiblərə məruz qalmaları bu dövlətin öz vətəndaşlarına "qayğısı" kontekstində xüsusi təəccüb doğurur.

Biz beynəlxalq ictimaiyyəti Ermənistan tərəfinə təzyiq göstərərək Birinci Ermənistan-Azərbaycan müharibəsinin qanlı irsi olan itkin düşmüş Azərbaycan vətəndaşlarının taleyinə aydınlıq gətirməkdə məsuliyyətli davranmağa və öz öhdəliklərinə əməl etməsini tələb etməyə çağırırıq.

Qeyd olunmalıdır ki, Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən itkin düşmüş şəxslərin ailə üzvlərindən alınan DNK nümunələri əsasında 3000-dən artıq insanın DNK bazası yaradılıb.

Ermənistan tərəfindən veriləcək məlumatlar əsasında kütləvi məzarlıqlardan çıxarılacaq qalıqlar nəticəsində 30 ilə yaxın müddətdə barələrində heç bir məlumat verilməyən, itkin düşmüş Azərbaycan vətəndaşlarının taleyinə aydınlıq gətirilə bilər".

# Estoniya Prezidenti: "Ölkələrimiz arasında bir sıra sahələrdə uğurlu əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı potensial var"

Milli Məclisin Sədri Sahibə Qafarova Estoniya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Alar Karis ilə görüşüb.





Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Estoniya Prezidenti Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayaraq bu səfərin iki ölkə arasında münasibətlərin daha da inkişafına müsbət təsir edəcəyinə inandığını söyləyib. O, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin tarixi barədə danışıb.

Prezident Alar Karis ölkələrimiz arasında bir sıra sahələrdə uğurlu əməkdaşlıq əlaqələrinin yaradıldığını xatırladaraq münasibətlərin daha da inkişafı üçün yaxşı potensial olduğunu bildirib. O, həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında mövcud olan münasibətləri dəstəklədiyini vurğulayıb. Alar Karis ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünə dəstək verdiyini də ifadə edib.

Səmimi görüşə və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Estoniya Respublikasının Prezidentinə çatdırıb.

Milli Məclisin Sədri kimi Estoniyaya ilk dəfə rəsmi səfər etdiyini diqqətə çatdıran Sahibə Qafarova bu səfər zamanı keçirdiyi görüşlər barədə məlumat verərək iki ölkənin parlamentləri arasında əlaqələrin hazırkı səviyyəsindən razılığını bildirib. S.Qafarova münasibətlərin daha da dərinləşdirilməsi üçün böyük imkanların mövcud olduğunu qeyd edib və bu səfərin ikitərəfli əlaqələrin daha da inkişafına müsbət təsir edəcəyinə inandığını deyib. O qeyd edib ki, mövcud qanunvericilik bazası ikitərəfli gündəliyin müxtəlif sahələrini əhatə edəcək yeni sənədlərlə daha da zənginləşdirilə bilər. COVID-19-un mənfi təsirlərinə baxmayaraq, iqtisadi, ticarət, investisiya, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığımızı dərinləşdirmək üçün əlverişli şərait var.



Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələr haqqında da məlumat verən S.Qafarova ölkəmizlə bu qurum arasında yeni tərəfdaşlıq sazişi üzrə danışıqların son mərhələdə olduğunu, Azərbaycanın Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq sənədləri imzaladığını diqqətə çatdırıb. Milli Məclisin Sədri həmçinin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin 2021-ci ilin iyulunda Azərbaycana səfərini və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqının Brüsseldə keçirilən VI Şərq Tərəfdaşlığı Sammitində iştirakını xatırladaraq bu səfərlərin Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin xarakterini nümayiş etdirdiyini vurğulayıb.

Milli Məclisin Sədri 2020-ci ildə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbə haqqında da danışaraq qeyd edib ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoyaraq ərazi bütövlüyünü bərpa edib. Azərbaycan BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrini, beynəlxalq hüququn norma və prinsiplərini öz gücü hesabına təmin edib. S.Qafarova diqqətə çatdırıb ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirir. Qısa müddət ərzində çox böyükhəcmli işlər görülüb, yeni nəqliyyat infrastrukturu yaradılıb, Füzulidə Beynəlxalq Hava Limanı fəaliyyətə başlayıb. Zəngəzur dəhlizinin və regionda bütün kommunikasiyaların açılması regionun nəqliyyat potensialını xeyli artıracaq. Sahibə Qafarova vurğulayıb ki, Ermənistan regionda yeni yaranmış reallıqları düzgün dəyərləndirməli, üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir.

Estoniya Prezidenti Alar Karis onun da salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib və ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Azərbaycanın parlament nümayəndə heyəti Estoniya Brifinq Mərkəzinin fəaliyyəti ilə tanış olub





Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Estoniya Respublikasına rəsmi səfəri çərçivəsində Tallində Elektron Estoniya Brifinq Mərkəzində olub. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan nümayəndə heyətinə Estoniya Brifinq Mərkəzi haqqında məlumat verilib. Qeyd olunub ki, 2009-cu ildə Qeyri-hökumət təşkilatı kimi yaradılmış e-Estoniya bu gün Estoniya Biznes və İnnovasiyalar Agentliyinin bir hissəsidir. Brifinq Mərkəzi ölkənin rəqəmsal xidmətlər sahəsində təcrübəsinin təşviqində mühüm rol oynayır.

Milli Məclisin nümayəndə heyəti Brifinq Mərkəzinin fəaliyyəti ilə tanış olub.

# İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər vətəndaşların mənafelərinin qorunmasına xidmət edəcək

Fevralın 8-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin onlayn iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Sadiq Qurbanov gündəliyi təqdim edib.

O, iclasın gündəliyində ikinci oxunuşda olan "Qaz təchizatı haqqında" qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişikliklərin edilməsi haqqında qanun layihələrinin olduğunu bildirib.

Komitə sədri əvvəlcə "Qaz təchizatı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Bildirib ki, layihə dəm qazından zəhərlənmələrin və qaz partlayışı hadisələrinin qarşısının alınması üçün qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. S.Qurbanov dəyişikliklərin aktuallığına, insanların həyat təhlükəsizliyinin təmin edilməsindəki əhəmiyyətinə diqqət çəkib.

İclasın gündəliyinə çıxarılan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) isə qaz təchizatı və istifadəsi zamanı qanunvericiliyin tələblərinin pozulması ilə bağlıdır. Sənəddə İnzibati Xətalar Məcəlləsinə qaz qurğuları və qaz xətlərinə, tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmət qaydalarına əməl edilməməsi ilə bağlı 279.0.1-1-ci maddənin əlavə edilməsi təklif olunub. Həmçinin qaz təchizatı üzərində nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının tələblərinin yerinə yetirilməməsi ilə bağlı 542-ci maddənin yeni redaksiyasında cərimələr nəzərdə tutulub.

Qanun layihələrinin müzakirəsində çıxış edən Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini Asim Mollazadə, komitə üzvləri Məşhur Məmmədov, İltizam Yusifov dəyişikliklərin əhəmiyyətini qeyd ediblər. Deputatlar təklif olunan dəyişikliklərin praktiki tətbiqində vətəndaşların mənafelərinin qorunması, qaz qurğularının keyfiyyətinə nəzarətin gücləndirilməsi ilə bağlı fikirlərini bildiriblər.

Müzakirələrin sonunda qanun layihələri ikinci oxunuşda Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edilib.

Onlayn iclasda deputatlar Naqif Həmzəyev, Anar Məmmədov, Əliabbas Salahzadə, Fatma Yıldırım, Mixail Zabelin və digər rəsmi şəxslər iştirak ediblər.

# Yeni hədəf, yeni mərhələ

Əvvəli 1-ci səh.

Prezident bəyan etdi ki, bu gün həm iqtidar, həm də bütövlükdə cəmiyyət birmənalı şəkildə milli maraqların keşiyində dayanır. Özü isə Prezident kimi indiyədək milli dəyərləri müdafiə edib və sona qədər də buna sadiq qalacaq.

## Bütün çirkin kampaniyalar hər zamankı kimi iflasa uğrayacaq

İlham Əliyev milli ruhda yetişən gənclərə ölkənin yeni çağırışlar fonunda inkişafına verə biləcəkləri töhfələrdən, reallaşdıra biləcəkləri layihələrdən və Azərbaycana qarşı daim qarayaxma kampaniyası aparan müxtəlif QHT-lərin məkrli planlarından danışdı, onlara qarşı mübarizə yollarını da göstərdi.

Prezident ilk növbədə dedi ki, milli ruh, milli ləyaqət və vətənpərvərlik hər zaman gənclərimizi irəli aparıb. Belə xalqla heç kim mübarizə apara bilməz. Müstəqillik dövründə böyüyən vətənpərvər gəncliyin torpaq, Vətən, dövlət sevgisi isə 44 günlük Vətən müharibəsində bir daha dünyaya bəlli oldu. Qarabağı görməyən, keçmişin acı tarixini yaşamayan gənclər Vətən uğrunda savaşa atılıb canlarını fəda edərək şəhidlik zirvəsinə ucaldı və ya qazi oldu. Arxa cəbhədə qalan gənclərimizin mütləq əksəriyyəti isə informasiya savaşında ölkəmizə böyük dəstək oldular. Onlar sosial şəbəkələrdə çox fəal olub informasiya müharibəsində də böyük üstünlük qazandılar. Azərbaycandan kənarda yaşayan soydaşlarımızın həyata keçirdikləri aksiyalar və digər tədbirlər bu proseslərə böyük dəstək oldu.

Ona görə də bu gün dünya Azərbaycan gəncini mübariz, intellektual, kreativ gənclik kimi qəbul edir. Bu gənclik ölkənin uğurlu gələcəyinin təminatçısıdır desək, yanılmarıq. Prezident bildirdi ki, müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi böyük məsuliyyət düşür və əminliklə demək olar ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar: "Müharibədəki Qələbə ölkəmizə, xalqımıza olan hörməti daha da artırdı. Sadəcə olaraq, fəallıq, düzgün informasiya kanallarının müəyyən edilməsi, müxtəlif istifadəçilərin kateqoriyalarına uyğun olan informasiya həcminin ötürülməsi - bütün bunlar, əlbəttə ki, böyük səriştə tələb edir, məharət tələb edir. Dövlət orqanları da bu sahədə fəal olmalıdırlar və bizim bir çox dövlət qurumlarımız artıq bu imkanlardan istifadə edirlər. Bu, kütləvi xarakter daşımalıdır ki, biz bu yeni informativ məkanda daim öz həqiqətlərimizi çatdıra bilək".

İlham Əliyev hər zaman Azərbaycana qarşı ikili standartlar prinsipi yürüdən, ayrı-seçkilik edən və qarayaxma kampaniyası aparan təşkilatları da diqqətə çəkərək dedi ki, bu gün də informasiya təxribatları davam edir.

"Feyk-nyus"lar artıq siyasi mübarizənin bir üsuluna çevrilib. Yalan məlumatlar ötürülür, ondan sonra əldə olan əlaltılar vasitəsilə bu məlumatlar ətrafında müzakirələr aparılır, sanki bu, bir həqiqətdir. Ondan sonra təhlil aparılır və insanların şüuruna artıq bu yalan həqiqət kimi ötürülür. Bu, çox bəsit bir texnologiyadır, amma əfsuslar olsun ki, bəzi yerlərdə bu, işləyir. İdarə edənlər də eynilərdir, yəni dünyanın əsas qeyri-hökumət təşkilatlarıdırlar.

Onları çox yaxşı tanıyırıq. Bunlar "Freedom House", "Amnesty International", "Human Rights Watch", Soros və onun nəzarəti altında olan qurumlar, sərhədsiz reportyorlar və digərləri antiazərbaycançı mövqeyində dayanan QHT-lərdir. Bütün dövrlərdə bu təşkilatlar ölkəmizə qarşı çirkin kampaniyalar apardılar. Min oyundan çıxdılar, amma "arzuları", "istəkləri" alınmayıb. İndi isə yeni üsullar axtarılır və hədəf gənclərdir. Çünki hesab edirlər ki, gəncləri yoldan çıxarmaq daha asandır. Prezident vurğuladı ki, bu səylər davamlı olacaq: "Nə qədər ki biz dövlətçiliyin keşiyində dayanmışıq, müstəqil siyasət aparırıq, bu, davam edəcək. Deməli, biz elə etməliyik ki, bu, daim davam etsin. Elə etməliyik ki, gələcəkdə bu ölkənin məsuliyyətini öz üzərinə götürən siz gənclər elə etməlisiniz ki, heç vaxt onlar bizə qalib gəlməsinlər".

Vətənpərvər, xalqını, dövlətini sevən Azərbaycan gəncliyi isə Prezident qarşısında bir daha milli-mənəvi dəyərlərə sadiq qalacağını bəyan etməklə hər zaman İlham Əliyevin və yürütdüyü müstəqil siyasətin dəstəkçisi olacaqlarını bəyan etdilər. Bu da bir daha onu deməyə əsas verir ki, Azərbaycan yeni, müasir və intellektual gəncliyi ilə daha inamlı, xoşbəxt gələcəyə doğru inamla addımlayır.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Gənclər IV Sənaye İnqilabı ilə bağlı yenilikləri yüksək səviyyədə mənimsəyirlər

## Onlar işğaldan azad olunmuş ərazilərin bərpasında fəal iştirak edirlər

Əvvəli 1-ci səh.

Bu müharibədə bir nəfər də olsa əsgər və zabit fərarilik etməmişdir. Bu isə dünya hərb tarixində nadir hadisələrdən sayılır.

Cari il fevralın 2-də Azərbaycan Gənclər Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu, tədbirdə Prezidentin iştirakı və gənclərlə geniş söhbəti onlara dövlət qayğıkeşliyinin növbəti nümunəsidir. Dövlət başçısı gənclərə olan diqqəti sözdə deyil, işdə sübut edir. Yüksək təhsil alıb yaxşı mütəxəssis kimi yetişmələri üçün onların dövlət hesabına dünyanın aparıcı universitetlərində oxumasına imkan yaradır. Son dövrlər dövlət idarəetməsində də gənclərə üstünlük verilməsinin şahidi oluruq.

Hər bir ölkənin gənclərinin nüfuzu ona müəyyən üstünlüklər qazandırır. İndi dünyanın inkişaf etmiş ölkələri "qocalma" problemini yaşayır. Bu kateqoriyaya daxil olan ölkələr hazırda belə vəziyyətdən çıxmaq üçün oraya kənardan gənclərin gəlməsi üçün şərait yaradır. Hazırda Avropa təkcə qoca qitə deyil, həm də "qocalar ölkələri"nin cəmləşdiyi coğrafi məkana çevrilib. Avropanın uşaq istəməmək mentalı sonda yaşlı əhalinin çoxalmasına səbəb olub. Belə hal həmin ölkələrdə ciddi sosial-iqtisadi problemlərə yol açıb. Əmək qabiliyyətli işçi qüvvəsi azalıb, pensiya alan əhalinin sayı isə durmadan artır. Dövlətlər bu yükü qaldıra bilmədiyi üçün əhalinin pensiya yaşı həddini artırır. Bu da əhali tərəfindən etirazla qarşılanır.

Azərbaycanda isə demoqrafik vəziyyət yaxşıdır. Əhalinin sayı artır, gənc nəsil cəmiyyətdə aparıcı mövqeyə malikdir. Gənclik cəmiyyətin enerjisini və dinamikasını təmin edən əsas qüvvədir. Bu gün gənclər orduda, dövlət idarəetməsində, elmdə, iqtisadiyyatda və sahibkarlıqda əsas qüvvəni təşkil edir.

Prezident İlham Əliyev sözügedən tədbirdə bu məsələyə xüsusi toxunaraq demişdir: "Avropa məkanında ölkələrdə ya əhali sabitdir, ya da ki, azdır, bizdə isə artır. Müstəqillik dövründə 7 milyondan 10 milyonadək artıbdır. Bütün bunlar yeni iş yerləri deməkdir. Amma biz görürük ki, IV Sənaye İnqilabı iş yerlərinin ləğvinə gətirəcəksə - bu, artıq danılmaz faktdır - ona görə IV Sənaye İnqilabı nəticəsində yarana biləcək yeni peşələrə hazır olmalıyıq".

Bununla da dövlət başçısı gənclərin diqqətinə çatdırdı ki, onlar yeni dünyanın yeni çağırışlarına hazır olmalıdır. Bunun üçün yeni texnologiyalardan istifadə edilən peşələrə yiyələnməlidirlər.

Dünyanın yeni inkişaf dövrü IV Sənaye İnqilabı ilə bağlıdır. Bu çağırışlara vaxtında reaksiya verib düzgün mövqe tutmalıyıq. Əgər biz bunu vaxtında etməsək, ümumi inkişafdan geri qala bilərik. İqtisadi inkişaf güc, siyasi müstəqillik və dünyada söz sahibi olmaq deməkdir. Bu üzdən indidən dövlət və özəl sektor qarşıya məqsəd qoymalıdır ki, hansı işlər görülməlidir. Prezident İlham Əliyev gəncləri dünyanın bu çağırışını düzgün qiymətləndirməyə dəvət etdi.

Son dövrlər bu istiqamətdə müəyyən işlər görülür. Alternativ enerjidən istifadə, innovativ texnologiyaların tətbiqi və sənaye parklarında son texnologiyalardan istifadə buna örnək ola bilər. Ancaq bu, yetərli deyil. İqtisadiyyatın bütün sahələrində son texnologiyalardan istifadə etməklə dünyadakı ciddi rəqabətə davam gətirə bilərik.

Dövlət başçısı işğaldan azad edilən ərazilərin bərpa-quruculuq işlərində də gəncləri fəal olmağa səslədi. Xüsusilə icra edilən infrastruktur layihələri müasir dünya standartlarına uyğun aparılır. Bu da yeni texnika və texnologiyalardan istifadə edilməsi deməkdir.

Prezident həmin ərazilərdə gedən işlərdə yeni texnologiyalardan istifadə edildiyini bildirərək demişdir: "Nəzərə alsaq ki, azad edilmiş torpaqlar həm "ağıllı şəhər" modeli əsasında qurulacaq, "ağıllı kənd", "yaşıl enerji" zonası - bütün bu yeni sahələr, yeni peşələr, əlbəttə, gənclərin sərəncamında olacaq. Çünki IV Sənaye İnqilabı ilə bağlı olan yeniliklər, ilk növbədə, Azərbaycanda gənclər tərəfindən mənimsənilir və gənclər xətti ilə biz bu siyasəti icra edəcəyik".

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

# Media haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

**1-ci fəsil**
**Ümumi müddəalar**

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.1.1. **kütləvi informasiya** - əldə olunması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, qeyri-məhdud sayda şəxslərə çatdırmaq məqsədilə media subyektləri tərəfindən dərc olunan və (və ya) yayımlanan məlumatlar;

1.1.2. **media** - kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsilə formalaşan informasiya mühiti;

1.1.3. **media subyekti** - əsas fəaliyyət növü kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxs;

1.1.4. **jurnalist** - əmək müqaviləsi ilə media subyektində və ya fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə fəaliyyət göstərən, əsas fəaliyyət növü davamlı şəkildə məlumat toplamaq, hazırlamaq, redaktə və istehsal etmək, ötürmək, habelə həmin məlumatlara dair fikir bildirmək (şərh vermək) olan və bu fəaliyyəti gəlir əldə etmək məqsədilə yerinə yetirən şəxs;

1.1.5. **audiovizual media** - televiziya və radio yayımının, o cümlədən sifarişli yayım xidmətinin müxtəlif texniki üsul və vasitələrlə audio və (və ya) vizual formada istifadəçiyə təqdim edilməsini həyata keçirən media;

1.1.6. **çap mediası** - il ərzində müəyyən dövriliklə planlaşdırılmış vaxtda və ya müvafiq materiallar toplandıqda mətn və ya vizual formada olan kütləvi informasiyanı vahid tərtibata malik kağız və (və ya) elektron daşıyıcıda yayımlayan media;

1.1.7. **onlayn media** - audiovizual media və çap mediası istisna olmaqla, mətn, audio, vizual və ya digər elektron (rəqəmsal) formada olan kütləvi informasiyanı veb-saytda yayımlayan media;

1.1.8. **informasiya agentliyi** - kütləvi informasiyanın əldə olunmasını, ötürülməsini, istehsalını və yayımını həyata keçirən, habelə digər media subyektləri ilə informasiya verilməsi (əldə edilməsi) haqqında müqavilələr bağlayan, əldə etdiyi informasiyanın müntəzəm olaraq həmin müqavilələr üzrə çatdırılmasını təmin edən media;

1.1.9. **redaksiya** - veb-saytlar, qəzetlər və digər dövri-nəşrlərin, habelə televiziya və radio kanallarının, sifarişli yayım xidmətinin və informasiya agentliklərinin yaradıcı heyətindən ibarət bölmə;

1.1.10. **məsul redaktor** - televiziya və radio yayımında proqram cədvəli, sifarişli yayım xidmətində isə proqram kataloqu çərçivəsində yer alan proqramın, habelə çap mediasında və onlayn mediada yayımlanan materialın məzmunu və seçimi üzrə qərar vermə funksiyasını həyata keçirən şəxs;

1.1.11. **istifadəçi** - kommersiya məqsədi olmadan informasiya ehtiyaclarını qarşılamaq üçün mediadan istifadə edən fiziki və ya hüquqi şəxs;

1.1.12. **media savadlılığı** - kütləvi informasiyanın məzmunu, onun ötürülməsi və istehlakı üzrə biliyə sahib olma, tənqidi dəyərləndirmə, müxtəlif kontekstlərdə istifadə etmə və təhlil aparma qabiliyyəti;

1.1.13. **loqotip (emblem)** - media subyektinin redaksiyasını (redaksiyalarını) fərqləndirməyə imkan verən hər hansı simvollar kombinasiyası (sözlər, hərflər, rəqəmlər, qrafik elementlər və s.);

1.1.14. **audiovizual yayımçı** - televiziya və radio yayımında, o cümlədən sifarişli yayım xidmətində proqramların məzmunu üzərində cavabdehlik daşıyan və bu xidmətin yayımlanma üsuluna qərar verən fiziki və ya hüquqi şəxs;

1.1.15. **yerüstü yayımçı** - televiziya və radio proqramlarının məzmunu üzərində cavabdehlik daşıyan və həmin proqramları yerüstü yayım üsulu ilə yayımlayan fiziki və ya hüquqi şəxs;

1.1.16. **ümumölkə yayımçısı** - proqramları Azərbaycan Respublikasının ərazisi hüdudlarında əhalinin minimum 70 faizini əhatə edən yerüstü yayımçı;

1.1.17. **regional yayımçı** - proqramları Azərbaycan Respublikasının azı 2 (iki) inzibati ərazi vahidinin əhalisinin minimum 70 faizini əhatə edən yerüstü yayımçı;

1.1.18. **platforma yayımçısı** - audiovizual proqramların məzmunu üzərində cavabdehlik daşıyan və həmin proqramları platforma və (və ya) multipleks operatoru və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə, yaxud birbaşa internet üzərindən yayımlayan fiziki və ya hüquqi şəxs;

1.1.19. **infrastruktur operatoru** - sahib olduğu baza yerüstü yayım şəbəkələri vasitəsilə radiotezlik resurslarından istifadə etməklə çox sayda audiovizual rəqəmli yayım siqnallarının bir və ya bir neçə siqnal halında birləşdirilməsi yolu ilə, habelə ayrıca radiotezlikdə audiovizual proqramların retranslyasiyasını təmin edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

1.1.20. **multipleks operatoru** - birdən çox televiziya və ya radio kanalının radiotezlik resurslarından istifadə etməklə retranslyasiyasını həyata keçirən hüquqi şəxs;

1.1.21. **platforma operatoru** - proqramların, o cümlədən sifarişli yayım xidmətlərinin kabel, İPTV, OTT, mobil TV və peyklə kodlanmış yayım siqnalları vasitəsilə retranslyasiyasını həyata keçirən fiziki və ya hüquqi şəxs;

1.1.22. **sifarişli yayım xidməti provayderi** - tərtib olunmuş proqram kataloquna uyğun olaraq proqramların istifadəçinin seçdiyi vaxtda və onun fərdi istəyinə əsasən izlənilməsini və (və ya) dinlənilməsini təmin edən və həmin proqram kataloqunun məzmunu üzərində cavabdehlik daşıyan fiziki və ya hüquqi şəxs;

1.1.23. **retranslyasiya** - hər hansı texnologiyadan istifadə etməklə televiziya və ya radio kanallarının, habelə proqramların və ya onların hissələrinin məzmununa dəyişiklik edilmədən yayımlandığı anda qəbulu və ötürülməsi;

1.1.24. **tematik yayım** - proqram cədvəlinin və ya kataloqunun azı 75 (yetmiş beş) faizi müəyyən sahəyə (xəbər, film, sənədli film, idman, musiqi, uşaq əyləncə, teleticarət və s.) həsr olunan proqramlardan ibarət yayım;

1.1.25. **proqram** - istifadəçiləri məlumatlandırmaq, maarifləndirmək və (və ya) əyləndirmək üçün nəzərdə tutulan, bu Qanunla müəyyənləşdirilmiş tələblər əsasında hazırlanan, proqram cədvəli və ya proqram kataloqunda yer alan, canlı, yaxud elektron yaddaş qurğuları vasitəsi ilə qeydə alınaraq yayımlanan məlumatların məcmusu;

1.1.26. **proqram cədvəli** - proqramların vaxtının və ardıcıllığının əks olunduğu cədvəl;

1.1.27. **proqram kataloqu** - sifarişli yayım xidmətində istifadəçinin seçiminə təqdim olunan proqramların toplusu;

1.1.28. **peyk yayımı** - peyk yayım infrastrukturu vasitəsi ilə ötürülməsi və istifadəçilər tərəfindən birbaşa qəbulu təmin olunan audiovizual yayım;

1.1.29. **kabel yayımı** - müxtəlif növ kabel və (və ya) hibrid infrastruktur (efir-kabel, peyk-kabel və s.) vasitəsilə ötürülməsi və istifadəçilər tərəfindən qəbulu təmin olunan audiovizual yayım;

1.1.30. **İPTV yayımı** - internet provayderin audiovizual proqramların ötürülməsini və istifadəçilər tərəfindən qəbul edilməsini öz internet protokolundan (İP) istifadə etməklə təmin etdiyi yayım;

1.1.31. **OTT yayımı** - audiovizual proqramların internet vasitəsilə istifadəçinin qəbuledicisinə ötürülməsini təmin edən yayım (İPTV yayımı istisna olmaqla);

1.1.32. **mobil TV yayımı** - audiovizual proqramların mobil telekommunikasiya şəbəkələri vasitəsi ilə ötürülməsi və istifadəçilər tərəfindən qəbulu təmin olunan yayım;

1.1.33. **praym-taym** - audiovizual proqramların Azərbaycan Respublikası Audiovizual Şurasının (bundan sonra - Şura) qərarı ilə müəyyən edilən sutka ərzində ən çox izlənilən və ya dinlənilən vaxtı;

1.1.34. **reytinq ölçən təşkilat** - audiovizual medianın auditoriyasının həcmini ölçən şəxs;

1.1.35. **əhəmiyyətli tədbir** - cəmiyyət üçün maraq kəsb edən və ölkə ərazisində fəaliyyət göstərən media subyektləri tərəfindən dərc olunması və (və ya) yayımlanması nəzərdə tutulan ictimai, siyasi, sosial və iqtisadi məzmunlu hadisə.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

**Maddə 2. Media haqqında qanunvericilik**

Media haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, "Məlumat azadlığı haqqında", "Fərdi məlumatlar haqqında", "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarından, media sahəsini tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 3. Bu Qanunun tətbiq dairəsi**

3.1. Bu Qanun Azərbaycan Respublikasının ərazisində təsis olunmuş media subyektlərinə, redaksiyalara, onların məhsullarına, həmçinin Azərbaycan Respublikasının hüdudlarından kənarda olan və fəaliyyəti Azərbaycan Respublikasının ərazisinə və əhalisinə istiqamətlənmiş bütün media subyektlərinə, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılan media məhsullarının yalnız Azərbaycan Respublikasının ərazisində yayılan hissəsinə, habelə jurnalistlərə şamil edilir.

3.2. Bu Qanunun müddəaları aşağıdakılara şamil edilmir:

3.2.1. media subyekti hesab edilməyən şəxslər (jurnalistlər istisna olmaqla) tərəfindən yayımlanan informasiyaya;

3.2.2. kütləvi informasiyanın yayılması istisna olmaqla, informasiya texnologiyalarından istifadə etməklə istifadəçilərin bir-birinə göndərdiyi yazışmalara (korrespondensiyaya).

3.3. Media subyektlərinin seçkiqabağı və referendumqabağı təşviqatla bağlı fəaliyyətinin xüsusiyyətləri Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

**Maddə 4. Media sahəsində dövlətin vəzifələri**

4.1. Media sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

4.1.1. media sahəsində fikir müxtəlifliyi və fəaliyyət azadlığını təmin etmək;

4.1.2. Azərbaycan Respublikasında hər kəsin informasiya ilə təmin olunması üçün şərait yaratmaq;

4.1.3. istifadəçiləri, xüsusilə də uşaqları zərərli informasiyanın təsirlərindən qorumaq;

4.1.4. medianın inkişafını təşviq etmək və stimullaşdırıcı tədbirlər həyata keçirmək;

4.1.5. media subyektlərinin və jurnalistlərin fəaliyyətini stimullaşdırmaq;

4.1.6. media sahəsində rəqabət mühitini təmin etmək, media subyektlərinin və jurnalistlərin fəaliyyəti üçün bərabər imkanlar yaratmaq;

4.1.7. Azərbaycan Respublikasının media məkanının təhlükəsizliyini təmin etmək;

4.1.8. ictimai yayımın təmin olunması üçün şərait yaratmaq.

**Maddə 5. Media azadlığı**

5.1. Azərbaycan Respublikasında media azaddır.

5.2. Media sahəsində dövlət senzurası, habelə bu məqsədlə dövlət orqanlarının (qurumlarının) və ya vəzifələrin yaradılması və maliyyələşdirilməsi qadağandır.

5.3. Media sahəsində fəaliyyətin azadlığı hər kəsin qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır.

5.4. Media sahəsində fəaliyyət yaradıcılıq və redaksiya müstəqilliyi əsasında həyata keçirilir.

5.5. Media sahəsində fəaliyyət azadlığı yalnız bu Qanun və media sahəsini tənzimləyən Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər.

5.6. Azərbaycan Respublikasından kənarda yerləşən media subyektlərinin fəaliyyətində bu Qanunun tələblərinin pozulması halları aşkar edildikdə, Şura və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və bu Qanunda nəzərdə tutulmuş tədbirləri həyata keçirir.

**Maddə 6. Jurnalist fəaliyyətinin təminatı**

6.1. Jurnalistlər müstəqillik, öz mənafelərini təmsil edən təşkilatlarda birləşmək, peşə borclarını yerinə yetirərkən şəxsi toxunulmazlıq, şərəf və ləyaqətlərini müdafiə etmək hüquqlarına malikdirlər.

6.2. Jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir.

6.3. Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş məlumatların toplanması, hazırlanması, redaktə və istehsalı, ötürülməsi, habelə həmin məlumatlara dair fikir bildirilməsi (şərh verilməsi) ilə bağlı jurnalistlərin təqib edilməsi və onlara təzyiq göstərilməsi yolverilməzdir.

**Maddə 7. Hərbi və fövqəladə vəziyyət dövründə media subyektlərinin və jurnalistlərin fəaliyyəti**

Hərbi və fövqəladə vəziyyət dövründə media sahəsində çalışan işçilərin fəaliyyəti müvafiq olaraq "Hərbi vəziyyət haqqında" və "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

**Maddə 8. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatlar barədə ictimaiyyətə məlumatın verilməsi**

8.1. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması zonasında media sahəsində çalışan işçilərin fəaliyyəti əməliyyat aparan orqan tərəfindən müəyyən edilir.

8.2. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat barədə ictimaiyyətə məlumatlar əməliyyat aparan orqanın müəyyən etdiyi formada və həcmdə verilir.

8.3. "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yayılmasına yol verilmir.

**Maddə 9. Terror əleyhinə aparılan əməliyyat zonasında media subyektlərinin və jurnalistlərin fəaliyyəti**

Terror əleyhinə aparılan əməliyyat zonasında media sahəsində çalışan işçilərin fəaliyyəti "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 10. Media savadlılığı**

10.1. Media savadlılığının artırılması məqsədilə dövlət tədbirləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

10.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) media savadlılığının artırılması sahəsində beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq edir və təcrübə mübadiləsi aparır.

10.3. Bu Qanunun 10.1-ci maddəsində nəzərdə tutulan tədbirlər dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**Maddə 11. Xarici media nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində fəaliyyəti**

11.1. Azərbaycan Respublikasında akkreditasiya olunmuş xarici jurnalistlərin və digər xarici media nümayəndələrinin hüquqi statusu və peşə fəaliyyəti Azərbaycan Respublikasının normativ hüquqi aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

11.2. Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəlikləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda açılır.

11.3. Xarici jurnalistlərin Azərbaycan Respublikasında akkreditasiyası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

11.4. Media Reyestrinə daxil edilmiş jurnalistlərin peşə fəaliyyətinin həyata keçirilməsinə digər dövlətlər tərəfindən xüsusi məhdudiyyətlər qoyulduqda həmin məhdudiyyətləri tətbiq etmiş dövlətin jurnalistlərinə Azərbaycan Respublikasında da eyni məhdudiyyətlər qoyula bilər.

**Maddə 12. Loqotip (emblem)**

12.1. Media subyekti redaksiyasının loqotipi (emblemi) olmalıdır. Media subyektinin redaksiyası yalnız bir loqotipdən (emblemdən) istifadə edə bilər.

12.2. Loqotip (emblem) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılan Media Reyestrinə daxil edilir.

12.3. Media subyektinin redaksiyasının loqotipində (emblemində) irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkiliyi, terrorçuluq, zorakılıq və qəddarlığı təbliğ edən, əxlaqa zidd olan simvollar və (və ya) onların kombinasiyasından (sözlər, hərflər, rəqəmlər, qrafik elementlər və s.), habelə digər media subyektinin redaksiyasının loqotipi (emblemi) ilə eyni və ya ona oxşar loqotipdən (emblemdən) istifadə olunması qadağandır.

12.4. Media subyektinin redaksiyası fəaliyyət müddəti ərzində loqotipinə (emblemınə) dəyişiklik etmək hüququna malikdir. Bu halda o, həmin loqotipdən (emblemdən) bu barədə dəyişiklik Media Reyestrinə daxil edildikdən sonra istifadə edə bilər.

12.5. Audiovizual media subyektinin redaksiyasının loqotipinin (embleminin) dəyişdirilməsinə bu Qanunun 12.3-cü maddəsi ilə nəzərdə tutulmuş tələblər nəzərə alınmaqla Şuranın razılığı ilə yol verilir. Şura edilmiş dəyişiklik barədə məlumatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

12.6. Media Reyestrinə daxil edilmiş çap mediasının və onlayn medianın redaksiyasının loqotipinin (embleminin) dəyişdirilməsinə bu Qanunun 12.3-cü maddəsi ilə nəzərdə tutulmuş tələblər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə yol verilir.

12.7. Televiziya yayımında audiovizual media subyektinin redaksiyasının loqotipi (emblemi) reklamların yayımlandığı vaxtlar istisna olmaqla, ekranda fasiləsiz şəkildə nümayiş olunmalıdır.

12.8. Media subyektinin redaksiyasının loqotipi (emblemi) ilə bağlı mübahisələr "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" və "Müəllif hüquqları və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

**Maddə 13. İnformasiyadan istifadə edilməsi**

13.1. Media subyekti digər media subyektinin informasiyasını və proqramlarını istinad etməklə abunəlik və ya müqavilə əsasında istifadə edə bilər.

13.2. Abunəlik və ya müqavilə olmadıqda media subyekti digər media subyektinin hər bir informasiyasının yalnız üçdə birindən çox olmayan hissəsini istinad etməklə istifadə edə bilər.

13.3. Bu Qanunun 13.1-ci və 13.2-ci maddələri (istinadla bağlı tələb istisna olmaqla) dövlət orqanları (qurumları) tərəfindən yayılan rəsmi məlumatlara (press-relizlərə) və informasiya agentliklərinin informasiyasından istifadə hallarına şamil edilmir.

13.4. Bu Qanunun 77.2-ci maddəsində nəzərdə tutulmuş hallarda media subyektləri məlumat və informasiyaların həqiqətə uyğun olub-olmamasına görə məsuliyyət daşımır.

13.5. Audiovizual proqramlardan istifadə bu Qanunun 38-ci maddəsində nəzərdə tutulmuş qaydada tənzimlənir.

13.6. Bu Qanunun 38.2-ci və 38.3-cü maddələrinin tələbləri pozulduqda proqrama müstəsna yayım hüququ əldə etmiş audiovizual yayımçı Şuraya müraciət edə bilər.

**Maddə 14. Mediada dərc olunan və (və ya) yayımlanan informasiyaya dair tələblər**

14.1. Mediada dərc olunan və (və ya) yayımlanan informasiya aşağıdakı tələblərə cavab verməlidir:

14.1.1. Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşlara açıq çağırışlar edilməməlidir;

14.1.2. Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmətsizliyə yol verilməməlidir;

14.1.3. dövlət dili normalarına riayət edilməlidir;

14.1.4. irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkilik təbliğ olunmamalıdır, habelə etnik, irqi və ya dini düşmənçiliyin salınmasına açıq çağırışlar edilməməlidir;

14.1.5. terrorçuluq, dini ekstremizm, zorakılıq və qəddarlıq təbliğ olunmamalı, habelə terrorçuluğun maliyyələşdirilməsinə, terrorçuluq məqsədilə təlimlərin təşkil edilməsinə və ya keçirilməsinə yönələn məlumatlar yayılmamalıdır, terrorçuluğa açıq çağırışlar edilməməlidir;

14.1.6. əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələrdən, jestlərdən istifadəyə yol verilməməlidir;

14.1.7. şərəf və ləyaqətin alçaldılmasına, işgüzar nüfuzun ləkələnməsinə yol verilməməlidir;

14.1.8. şəxsin ailə və şəxsi həyatına aid sirr olan məlumatların yayılmasına yol verilməməlidir;

14.1.9. böhtana, təhqirə və nifrət çıxışlarına yol verilməməlidir;

14.1.10. sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlər təbliğ olunmamalıdır;

14.1.11. faktlar və hadisələr qərəzsiz və obyektiv təqdim olunmalı, birtərəfliliyə yol verilməməlidir;

14.1.12. parapsixologiya (ekstrasens, medium və s.), mövhumatçılıq və ya digər xürafələrin təbliğinə yol verilməməlidir;

14.1.13. pornoqrafiya məzmunlu materialların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir;

14.1.14. qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir;

14.1.15. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə əməl edilməlidir;

14.1.16. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-2.3-cü maddəsində nəzərdə tutulmuş digər informasiyanın yayımlanmasına yol verilməməlidir.

14.2. Yerüstü yayımçı proqramlarında bu Qanunun 14.1-ci maddəsində nəzərdə tutulan tələblərlə yanaşı dövlət dilindən istifadəni də təmin etməlidir.

14.3. Yerüstü yayımçı proqramlarında yalnız Şuranın razılığı ilə digər dillərdən istifadə edə bilər.

**Maddə 15. İnformasiyanın yayılmasına, informasiya mənbəyinin açıqlanmasına yol verilməyən hallar**

15.1. Media subyekti və jurnalist tərəfindən aşağıdakılara yol verilmir:

15.1.1. şəxsin gizli saxlanmaq şərtilə verdiyi informasiyanın proqram və materiallarda yayılmasına;

15.1.2. məlumat vermiş şəxsin razılığı olmadan onun şəxsiyyətinin açıqlanmasına;

15.1.3. təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi olmadan ibtidai araşdırma məlumatlarının yayılmasına;

15.1.4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərinin olduğu kimi yayılmasına;

15.1.5. yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yayılmasına;

15.1.6. "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yayılmasına;

15.1.7. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-ci maddəsində nəzərdə tutulmuş sui-istifadə hallarına.

15.2. Məsul redaktor və (və ya) jurnalist istintaqı aparılan, yaxud məhkəmə icraatında olan işlə əlaqədar bu Qanunun 15.3-cü maddəsi ilə müəyyən edilmiş hallardan başqa informasiya mənbəyini açıqlamağa məcbur edilə bilməz.

15.3. Məsul redaktor və ya jurnalist aşağıdakı hallarda məhkəmənin qərarı ilə öz informasiya mənbəyini açıqlamalıdır:

15.3.1. insan həyatının müdafiəsi üçün;

15.3.2. ağır və xüsusilə ağır cinayətlərin qarşısını almaq üçün;

15.3.3. ağır və xüsusilə ağır cinayət törətməkdə təqsirləndirilən şəxsin müdafiəsi üçün.

15.4. Bu Qanunun 15.1.3-cü maddəsinin tələbləri jurnalistin müstəqil araşdırma aparmaq hüququnu məhdudlaşdırmır.

**Maddə 16. Xarici mənbələrdən alınan informasiyanın yayılması**

16.1. Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasının hüquqi şəxslərinin xarici mənbələrdən, o cümlədən xarici media subyektlərindən birbaşa məlumat əldə etmək hüququ vardır.

16.2. Azərbaycan Respublikasında yerüstü yayım üçün nəzərdə tutulmuş radiotezliklərdən istifadə olunmaqla xarici televiziya və radio proqramlarının yayımlanmasına Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda yol verilir.

16.3. Redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici çap mediası məhsulunun Azərbaycan Respublikasının ərazisində yayılmasına Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda yol verilir. Bu müqavilələrdə xarici çap mediası məhsulunun yayılması qaydası nəzərdə tutulmadıqda, bu məsələlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 17. Məlumat almaq hüququ**

17.1. Media subyektləri və jurnalistlər cəmiyyətdəki ictimai, siyasi, sosial və iqtisadi vəziyyət haqqında, dövlət orqanlarının (qurumlarının), bələdiyyələrin, müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə düzgün informasiya almaq hüququna malikdirlər. Bu hüquq qanunla müəyyənləşdirilmiş hallardan başqa məhdudlaşdırıla bilməz.

17.2. Dövlət orqanları (qurumları), bələdiyyələr, müəssisə və təşkilatlar, qeyri-hökumət təşkilatları, siyasi partiyalar, vəzifəli şəxslər öz fəaliyyətləri haqqında informasiyanı media subyektlərinin və jurnalistlərin yazılı və şifahi sorğusu əsasında, habelə mətbuat konfransları və ya brifinqlər keçirmək yolu ilə yaxud başqa formalarda verirlər.

17.3. İnformasiya əldə edilməsi barədə yazılı sorğuya "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Həmin Qanunda göstərilən müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 (iyirmi dörd) saatdan gec olmayaraq cavab verilməlidir.

17.4. Media subyektləri və jurnalistlər məlumatı verməkdən imtina edən dövlət orqanlarından (qurumlarından), bələdiyyələrdən, müəssisə və təşkilatlardan, qeyri-hökumət təşkilatlarından, siyasi partiyalardan və ya vəzifəli şəxslərdən qanunla müəyyənləşdirilmiş qaydada şikayət etmək hüququna malikdir.

17.5. Şura və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) əhəmiyyətli tədbirlərlə bağlı siyahını hər il növbəti il üçün elan etməlidir və bu siyahını özlərinin rəsmi internet saytlarında yerləşdirməli və onun müntəzəm olaraq yenilənməsini təmin etməlidirlər.

**Maddə 18. Təkzib, düzəliş və cavab vermək hüququ**

18.1. Media subyekti tərəfindən fiziki şəxsin şərəf və ləyaqətini, fiziki və hüquqi şəxsin işgüzar nüfuzunu ləkələyən, böhtan və təhqir xarakterli məlumatlar yayıldıqda, fikirlər təhrif olunduqda fiziki şəxsin özünün və ya nümayəndəsinin, hüquqi şəxsin rəhbərinin, yaxud səlahiyyətli nümayəndəsinin həmin media subyektində 1 (bir) ay müddətində cavab vermək, habelə media subyektindən həqiqətə uyğun olmayan məlumatın təkzib olunmasını, düzəliş verilməsini, üzr istənilməsini tələb etmək, yaxud birbaşa məhkəməyə müraciət etmək hüququ vardır.

18.2. Bu Qanunun 18.1-ci maddəsində nəzərdə tutulmuş tələblə müraciət edilən zaman, yaxud məhkəmə qərar çıxaran zaman media subyektinin fəaliyyəti (yayımı) müvəqqəti dayandırılmışsa və ya o yenidən təşkil olunmuşsa təkzib, cavab və ya düzəliş həmin media subyektinin və ya onun hüquqi varisinin vəsaiti hesabına iddiaçının istədiyi media subyektlərinin birində dərc oluna (yayımlana) bilər.

18.3. Media subyekti tərəfindən cinayət işləri üzrə icraatın mahiyyəti və nəticələri barədə həqiqətə uyğun olmayan və ya təhrif edilmiş məlumatlar verildikdə cinayət prosesini aparan orqan məlumatın təkzib olunması və ya düzəliş verilməsi tələbi ilə həmin media subyektinə müraciət etmək hüququna malikdir.

**Maddə 19. Təkzib, cavab və düzəliş verilməsi qaydası**

19.1. Təkzibdə hansı məlumatın həqiqətə uyğun olmadığı, həmin çap mediası subyektində nə vaxt və necə dərc olunduğu göstərilir. Çap mediası subyektində təkzib məlumatın və ya materialın verildiyi səhifədə həmin şriftlə yığılır və "Təkzib" başlığı altında dərc olunur. Gündəlik, günaşırı, həftəlik və aylıq yayımlanan qəzetlər təkzib, cavab və ya düzəliş haqqında tələbin daxil olduğu gündən sonrakı nömrədə, digər dövri-nəşrlər isə hazırlanan və ya yaxın günlər üçün planlaşdırılan buraxılışda təkzibi, cavabı və ya düzəlişi dərc etməlidirlər.

19.2. Təkzib, cavab və ya düzəliş audiovizual yayımçı tərəfindən tələbin alındığı gündən sonrakı müvafiq proqramda yayımlanır. Bunu tələb edən fiziki şəxsin və ya onun nümayəndəsinin, hüquqi şəxsin rəhbərinin və ya onun səlahiyyətli nümayəndəsinin proqramda cavabla çıxış etmək hüququ təmin edilməlidir.

19.3. Təkzib və ya cavab mətnində heç bir dəyişiklik edilmədən verilir. Təkzib və ya cavabın mətni bu Qanunun 14.1-ci maddəsində nəzərdə tutulan tələbləri pozmamalıdır.

19.4. Təkzib və ya cavabın mətni təkzib edilən və ya cavab verilən məlumatın həcmindən iki dəfədən çox olmamalıdır.

19.5. Cavab dərc olunan (yayımlanan) nömrədə (proqramda) həmin cavabı şərh etməyə və ya təkzib etməyə yol verilmir. Cavaba cavab sonrakı nömrədə (proqramda) yerləşdirilə bilər.

19.6. Təkzib, cavab və ya düzəliş rədd edildikdə, bu barədə tələb etmiş şəxsə 3 (üç) gün müddətində əsaslandırılmış məlumat verilməlidir.

19.7. Aşağıdakılar təkzib və ya cavab mətnini dərc etməkdən (yayımlamaqdan) imtina üçün əsasdır:

19.7.1. təkzibi tələb olunan məlumat məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edilmişdirsə;

19.7.2. təkzibi tələb olunan məlumat və ya materialla bağlı media subyekti tərəfindən şikayətçinin müraciəti əsasında artıq təkzib verilmişdirsə;

19.7.3. təkzib və ya cavabın mətni bu Qanunun 14.1-ci maddəsində nəzərdə tutulan tələbləri pozursa;

19.7.4. təkzib və ya cavabın mətni təkzib edilən və ya cavab verilən məlumatın həcmindən iki dəfədən çoxdursa;

19.7.5. məlumatın və ya materialın media subyekti tərəfindən dərc edilməsindən (yayımlanmasından) bir ay müddətində üzrsüz səbəbdən müraciət edilməmişdirsə.

19.8. Təkzib, cavab və ya düzəlişin verilməsinə görə ödəniş tələb edilmir.

19.9. Haqsız, qeyri-dəqiq və gizli reklam "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla təkzib olunur.

19.10. Onlayn mediada təkzib və ya cavabın mətni təkzib və ya cavab vermək hüququnun yaranmasına səbəb olmuş materialın yayımı üsuluna uyğun şəkildə yayımlanmalıdır (eyni həcmdə, eyni vaxtda, həmin veb-saytda, veb-səhifədə və ya veb-saytın həmin bölməsində və s.). Bu zaman hansı məlumatın həqiqətə uyğun olmadığı, həmin onlayn media subyektində nə vaxt və necə yayımlandığı göstərilməlidir.

19.11. Təkzib və ya cavab mətnini orijinal nəşrdə olduğu kimi həmin veb-səhifədə və ya veb-saytın həmin bölməsində yerləşdirmək mümkün olmadıqda, onlayn media subyekti müvafiq materiallar (paylaşımlar) arasında hiperlinklərin yaradılmasını təmin etməli və orijinal mətnin yanında bu materialda (paylaşımda) olan məlumatın təkzib edildiyinə və ya cavab verildiyinə dair bildiriş yerləşdirməlidir.

**Maddə 20. Müəlliflik hüququ və əlaqəli hüquqlarının obyektlərindən və oxucu məktublarından istifadə edilməsi**

20.1. Müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərindən mediada istifadəyə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməklə yol verilir.

20.2. Oxucu (dinləyici, tamaşaçı) məktubları dərc edilərkən (yayımlanarkən) onların məzmununu təhrif etməyən ixtisara və redaktəyə yol verilir. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallardan başqa redaksiya oxucu (dinləyici, tamaşaçı) məktublarına cavab verməyə məcbur deyildir.

20.3. Bu Qanunla müəyyən edilmiş hallardan başqa media subyekti dərc etməkdən (yayımlamaqdan) imtina etdiyi materialı dərc etməyə (yayımlamağa) məcbur edilə bilməz.

**Maddə 21. Gizli audio və (və ya) vizual məlumatlar**

21.1. Gizli audio və video yazılardan, foto çəkilişlərindən istifadə etməyə və ya onları yaymağa yalnız aşağıdakı hallarda yol verilir:

21.1.1. barəsində gizli audio və ya video yazısı, foto çəkilişi aparılmış şəxsin bu materiallardan istifadəyə və ya onların yayılmasına yazılı razılığı varsa, habelə digər şəxsin (şəxslərin) Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş hüquq və azadlıqlarının qorunması üçün zəruri tədbirlər görülmüşdürsə;

21.1.2. məhkəmənin qərarı ilə nümayiş etdirilirsə.

21.2. Bu Qanunun 21.1-ci maddəsinin tələblərini pozaraq gizli audio-video yazılardan, film və foto çəkilişlərindən istifadə olunması və onların yayılması qadağandır.

**Maddə 22. Media subyektləri tərəfindən yayımlanmış materialların saxlanılması**

22.1. Audiovizual yayımçılar öz proqramlarını 3 (üç) ay müddətində saxlamalıdırlar.

22.2. Seçkiqabağı və referendumqabağı təşviqata aid audiovizual proqramların audio və (və ya) videoyazısı aparılır, həmin yazılar yayımlandığı gündən 12 (on iki) ay müddətində müvafiq audiovizual yayımçı tərəfindən saxlanılır. Audiovizual yayımçı ödənişli və ödənişsiz efir vaxtının ayrılmasına dair hesabat sənədlərini səsvermə günündən başlayaraq 5 (beş) il müddətində saxlamalıdır.

**Maddə 23. Reklamın yayılması**

Mediada reklam "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanır və yayılır.

**Maddə 24. Beynəlxalq əməkdaşlıq**

24.1. Media sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

24.2. Azərbaycan Respublikasının media subyektləri, peşəkar jurnalist təşkilatları öz fəaliyyət istiqamətlərinə uyğun əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə, habelə xarici təşkilatlarla beynəlxalq əməkdaşlıqda iştirak edə və bu məqsədlə müqavilələr bağlaya bilərlər.

*Ardı 5-ci səh.*

# Media haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

**2-ci fəsil**
**Media subyektləri**

**Maddə 25. Media subyektləri**

25.1. Media subyektləri aşağıdakılardır:
25.1.1. audiovizual media subyektləri;
25.1.2. çap mediası subyektləri;
25.1.3. onlayn media subyektləri;
25.1.4. informasiya agentlikləri.

**Maddə 26. Media subyektinə dair tələblər**

26.1. Media subyektinə dair tələblər aşağıdakılardır:
26.1.1. təsisçi fiziki şəxs olduqda, Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşı olmalıdır;
26.1.2. təsisçi hüquqi şəxs olduqda, onun nizamnamə kapitalında üstün iştirak payı (75 faiz) Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşına (vətəndaşlarına) və (və ya) Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş hüquqi şəxsə (hüquqi şəxslərə) məxsus olmalıdır;
26.1.3. media subyekti fiziki şəxs olduqda, Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşı olmalı, bu Qanunun 26.3-cü maddəsinin tələblərinə cavab verməlidir.
26.2. Bu Qanunun 26.1.1-ci və 26.1.2-ci maddələrində nəzərdə tutulmuş tələblər media subyektinin təsisçisi olan hüquqi şəxsin birbaşa və dolayısı ilə iştirakçısı olan şəxslərin iştirakçılarına da şamil edilir.
26.3. Aşağıdakı şəxslər media subyektinin təsisçisi (iştirakçısı) ola bilməzlər:
26.3.1. ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş şəxslər;
26.3.2. məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər;
26.3.3. məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər.
26.4. Siyasi partiyalar və dini qurumlar yalnız çap mediasının təsisçisi (iştirakçısı) ola bilərlər.
26.5. Media subyektinin onun təsisçisi (iştirakçısı) olmayan xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, onların filial və nümayəndəlikləri, həmin şəxslərin Azərbaycan Respublikasında təsis etdikləri hüquqi şəxslər, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsinə yol verilmir.
26.6. Audiovizual media subyektinin iştirakçılarının tərkibində hər hansı bir dəyişiklik edilməzdən 1 (bir) ay əvvəl Şuraya məlumat verilməlidir. Şura dəyişikliyin bu Qanunun tələblərinə uyğun olması barədə 1 (bir) ay müddətində əsaslandırılmış rəy verir. Verilmiş müsbət rəy əsasında audiovizual media subyektinin iştirakçılarının tərkibində edilmiş dəyişikliyi təsdiq edən sənədlər 1 (bir) ay müddətində Şuraya təqdim olunmalıdır.
26.7. Audiovizual media subyekti Şuraya, digər media subyektləri isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təsisçiləri və iştirakçıları, habelə idarəetmə orqanının rəhbəri barədə məlumatı hər il dekabr ayının 30-dək təqdim etməlidir.
26.8. Media subyektinin idarəetmə orqanının rəhbəri ali təhsilli olmalı, habelə bu Qanunun 26.1.1-ci və 26.3-cü maddələrinin tələblərinə cavab verməlidir.

**3-cü fəsil**
**Audiovizual media**

**Maddə 27. Audiovizual media subyektləri**

27.1. Audiovizual media subyektləri aşağıdakılardır:
27.1.1. yerüstü yayımçı:
27.1.1.1. ümumölkə yerüstü televiziya yayımçısı;
27.1.1.2. regional yerüstü televiziya yayımçısı;
27.1.1.3. ümumölkə yerüstü radio yayımçısı;
27.1.1.4. regional yerüstü radio yayımçısı;
27.1.2. platforma yayımçısı:
27.1.2.1. peyk yayımı həyata keçirən platforma yayımçısı;
27.1.2.2. peyk yayımı həyata keçirməyən platforma yayımçısı;
27.1.3. platforma operatoru:
27.1.3.1. sadə platforma operatoru;
27.1.3.2. universal platforma operatoru;
27.1.4. multipleks operatoru;
27.1.5. infrastruktur operatoru;
27.1.6. sifarişli yayım xidməti provayderi.

**Maddə 28. Audiovizual media subyektlərinin fəaliyyətinin əsasları**

28.1. Yerüstü yayımçı infrastruktur və multipleks operatoru, infrastruktur və multipleks operatoru isə yerüstü yayımçı kimi fəaliyyət göstərə bilməz.
28.2. Platforma operatoru və multipleks operatoru platforma yayımçısı kimi fəaliyyət göstərmək üçün bu fəaliyyət növü üzrə də lisenziya almalıdır.

**Maddə 29. Yerüstü yayımçı**

29.1. İctimai yayımçı istisna olmaqla, yerüstü yayımçıya lisenziya müsabiqə əsasında verilir.
29.2. Yerüstü ümumölkə yayımçısının proqramları ölkə üzrə, yerüstü regional yayımçının proqramları isə həmin region üzrə infrastruktur və platforma operatorları tərəfindən retranslyasiya olunur.
29.3. Yerüstü yayımçı öz proqramlarını infrastruktur və platforma operatorlarına retranslyasiya üçün təqdim etməlidir. Yerüstü yayımçı bunun müqabilində platforma operatorlarından ödəniş tələb edə bilməz.
29.4. Yerüstü ümumölkə yayımçısı ölkə üzrə, yerüstü regional yayımçı isə müvafiq region üzrə yerüstü yayımın təmin olunması üçün infrastruktur operatoru ilə müqavilə bağlayır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə infrastruktur operatoruna xidmət haqqı ödəyir.
29.5. Yerüstü ümumölkə yayımçısının peyk yayımı həyata keçirməsi üçün lisenziya tələb olunmur. Yerüstü ümumölkə yayımçısı peyk operatorları ilə müqavilə bağlayaraq peyk yayımı da həyata keçirə bilər.
29.6. Yerüstü yayımçı proqramlarını onların məzmununa dəyişiklik etmədən öz internet informasiya ehtiyatında (veb-saytında) və digər video paylaşım platformalarında yayımlaya bilər.

**Maddə 30. Platforma yayımçısı**

30.1. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi orqanlar (qurumlar) istisna olmaqla, dövlət orqanları (qurumları) və dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən maliyyələşən, həmin orqanın (qurumun) fəaliyyət sahəsini əks etdirən, ictimai yayım funksiyası daşıyan audiovizual yayımçı yalnız platforma yayımçısı kimi fəaliyyət göstərə bilər.
30.2. Platforma yayımçısı (bu Qanunun 30.8-ci maddəsi istisna olmaqla) lisenziya əsasında fəaliyyət göstərir.
30.3. Peyk yayımı həyata keçirən platforma yayımçısı üçün lisenziya müsabiqə əsasında yalnız hüquqi şəxslərə verilir.
30.4. Platforma yayımçısı praym-taymda yayımlanan proqramlarında dövlət dilindən istifadəni tam təmin etdikdə, reklam fəaliyyəti həyata keçirə bilər.
30.5. Platforma yayımçısı proqramlarını onların məzmununa dəyişiklik etmədən öz veb-saytında və digər video paylaşım platformalarında yayımlaya bilər.
30.6. Platforma yayımçısının redaksiyası Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərməlidir və gündə minimum 6 saat yayım həyata keçirməlidir.
30.7. Birbaşa internet üzərindən yayımlanan platforma yayımçısı bu Qanunun 30.6-cı maddəsində nəzərdə tutulmuş tələblərlə yanaşı, veb-sayta və müəyyən proqram cədvəlinə malik olmalı, habelə yayımı özünün veb-saytından həyata keçirməlidir.
30.8. Birbaşa internet üzərindən audiovizual proqramlar yayımlayan şəxslər yalnız öz müraciətləri əsasında platforma yayımçısı lisenziyası ala bilərlər. Bu halda qeyd olunan şəxslər bu Qanunun 30.2-30.7-ci maddələrinin tələblərinə cavab verməlidir.

**Maddə 31. Sifarişli yayım xidməti provayderi**

31.1. Sifarişli yayım xidməti provayderi lisenziya əsasında fəaliyyət göstərir.
31.2. Sifarişli yayım xidməti provayderi proqram kataloqunu platforma operatorunun yayım üsulları və ya birbaşa internet vasitəsilə, o cümlədən mobil tətbiqlər vasitəsilə təqdim edir.
31.3. Sifarişli yayım xidməti provayderi proqram kataloquna daxil etdiyi bütün proqramlar barədə məlumatı və həmin proqramların yayımı üçün əldə etdiyi yayım hüquqlarına dair müqavilələri Şuraya təqdim etməlidir.
31.4. Sifarişli yayım xidmətinin proqram kataloquna daxil edilmiş bütün proqramlar "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yaş kateqoriyaları üzrə təsnifatlandırılmalıdır.

**Maddə 32. Platforma operatoru**

32.1. Platforma operatoru lisenziya əsasında fəaliyyət göstərir.
32.2. Sadə platforma operatoru yalnız bir üsulla, universal platforma operatoru isə eyni zamanda 2 (iki) və daha çox üsulla retranslyasiya həyata keçirə bilər.
32.3. Platforma operatoru müqavilə əsasında istifadəçiyə audiovizual proqramların satışını həyata keçirir.
32.4. Platforma operatoru onunla xarici audiovizual yayımçı və ya onun adından müqavilə bağlamaq səlahiyyəti olan şəxs arasında xarici audiovizual yayımçıların proqramlarının retranslyasiyasına dair bağlanmış müqavilənin surətini Şuraya təqdim etməlidir.
32.5. Platforma operatoru yerüstü ümumölkə yayımçısının proqramlarını ölkə üzrə, yerüstü regional yayımçının proqramlarını isə region üzrə retranslyasiya etmək üçün öz yayım paketlərinə daxil etməlidir. Platforma operatoru bunun müqabilində yerüstü yayımçıdan ödəniş tələb edə bilməz.
32.6. Platforma operatoru müqavilə əsasında platforma yayımçısının proqramlarının retranslyasiyasını həyata keçirə bilər.
32.7. Platforma operatorunun fəaliyyətində Şura tərəfindən monitorinqin həyata keçirilməsi məqsədilə həmin operator tərəfindən Şuranın ödənişsiz istifadə hüququ təmin edilməlidir.
32.8. Platforma operatoru retranslyasiya etdiyi audiovizual yayımçıların siyahısını hər növbəti ayın birinci həftəsində Şuraya təqdim etməlidir.

**Maddə 33. İnfrastruktur operatoru**

33.1. İnfrastruktur operatoru Şuranın qərarı ilə ayrılmış radiotezlikdən (radiotezliklərdən) istifadə edir.
33.2. İnfrastruktur operatoru yerüstü yayımçının proqramlarının retranslyasiyasını təmin etməlidir.
33.3. İnfrastruktur operatoru yerüstü ümumölkə yayımçısının ölkə üzrə, yerüstü regional yayımçının isə müvafiq region üzrə yerüstü yayımının təmin olunması üçün yerüstü yayımçı ilə müqavilə bağlayır və bu Qanunun 29.4-cü maddəsində göstərilən məbləğdə xidmət haqqı alır.
33.4. İnfrastruktur operatoru istifadəçilərə ödənişli retranslyasiya xidməti göstərə bilməz.
33.5. İnfrastruktur operatoru multipleks və platforma operatorlarına, həmçinin peyk operatoruna siqnalın ötürülməsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə xidmət haqqı almaqla həyata keçirir.

**Maddə 34. Multipleks operatoru**

34.1. Multipleks operatoru üçün radiotezlik (radiotezliklər) onun istifadəsinə Şura tərəfindən bu Qanunun 5-ci fəslinə müvafiq olaraq keçirilən müsabiqə əsasında verilir. Müsabiqənin qalibi eyni zamanda multipleks operatoru üçün müvafiq lisenziya əldə etmiş sayılır.
34.2. Növbəti radiotezlik (radiotezliklər) əldə etmək istəyən multipleks operatoru radiotezliyin (radiotezliklərin) verilməsinə dair müsabiqədə iştirak etməlidir. Bu müsabiqənin nəticəsində qalib olmuş multipleks operatoruna yenidən lisenziya verilmir.
34.3. Multipleks operatoru müqavilə əsasında istifadəçiyə audiovizual proqramların satışını həyata keçirir.
34.4. Multipleks operatoru müqavilə əsasında platforma yayımçısının proqramlarının retranslyasiyasını həyata keçirə bilər.
34.5. Multipleks operatoru onunla xarici audiovizual yayımçı və ya onun adından müqavilə bağlamaq səlahiyyəti olan şəxs arasında xarici audiovizual yayımçıların proqramlarının retranslyasiyasına dair bağlanmış müqavilənin surətini Şuraya təqdim etməlidir.
34.6. Multipleks operatorunun fəaliyyətində Şura tərəfindən monitorinqin həyata keçirilməsi məqsədilə həmin operator tərəfindən Şuranın ödənişsiz istifadə hüququ təmin edilməlidir.
34.7. Multipleks operatoru retranslyasiya etdiyi audiovizual yayımçıların siyahısını hər növbəti ayın birinci həftəsində Şuraya təqdim etməlidir.

**Maddə 35. Yerüstü yayımın radiotezlik planlaşdırılması**

35.1. Yerüstü yayım üçün radiotezlik siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tərtib olunur və yerüstü yayım üçün istifadəyə yararlı radiotezliklər haqqında məlumatlar hər yarımildə 1 (bir) dəfə Şuraya təqdim edilir. Bu məlumatlar Şuranın sorğusu əsasında da təqdim olunur.
35.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və infrastruktur operatoru hər yarımildə 1 (bir) dəfə yayım imkanları barədə Şuraya məlumat verir. Bu məlumatlar Şuranın sorğusu əsasında da təqdim olunur.
35.3. Şura ümumölkə və regional yerüstü yayım üçün istifadəyə yararlı radiotezliklərin və yayım imkanlarının istifadəsini təşkil edir.

**Maddə 36. Audiovizual yayım avadanlıqlarının sertifikatlaşdırılması**

Audiovizual proqramların ötürülməsi və yayımlanmasını təmin edən yerüstü yayım radiovericiləri, peyk yerüstü radiovericiləri, yerüstü radio-rele aralıq və son stansiyaları, habelə kabel yayımı stansiyaları və paylayıcı şəbəkə avadanlıqları "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən sertifikatlaşdırılır.

**Maddə 37. Dövlət orqanlarında (qurumlarında), hüquqi və fiziki şəxslərə məxsus obyektlərdə və onların ərazi hüdudlarında audiovizual yayım**

Dövlət orqanlarında (qurumlarında), hüquqi və fiziki şəxslərə məxsus obyektlərdə və onların ərazi hüdudlarında onlar tərəfindən həyata keçirilən və həmin qurumların fəaliyyətini əks etdirən informasiya xarakterli audiovizual proqramlardan ibarət yayım, habelə həmin qurumlar tərəfindən yalnız yerüstü yayımçıların proqramlarının retranslyasiyası üzrə fəaliyyət lisenziyalaşdırılmır.

**Maddə 38. Yayım hüququ**

38.1. Proqramın müəllifi həmin proqramın yayımlanması hüququnu yayım üsulunun və şərtlərinin göstərildiyi müqavilə əsasında bir neçə və ya müstəsna olaraq bir audiovizual yayımçıya verə bilər. Həmin müqavilələrin surəti audiovizual yayımçı tərəfindən Şuraya təqdim edilməlidir.
38.2. Proqrama müstəsna yayım hüququ əldə etmiş audiovizual yayımçıdan başqa digər audiovizual yayımçıların həmin proqramı yayımlaması qadağandır.
38.3. Müstəsna yayım hüququ ilə yayımlanan əhəmiyyətli tədbir digər audiovizual yayımçılar tərəfindən 60 (altmış) saniyədən artıq olmamaq və mənbəyini bildirmək şərti ilə ödənişsiz yayımlana bilər.
38.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) xarici audiovizual yayımçının proqramlarının yayımlanmasına razılıq verilməsi üçün Şuraya müraciət etməlidir.

**Maddə 39. Audiovizual yayımçının vəzifələri və audiovizual yayıma dair tələblər**

39.1. Audiovizual yayımçının vəzifələri aşağıdakılardır:
39.1.1. sifarişli yayım xidməti istisna olmaqla, Azərbaycan Respublikasının Dövlət Himnini hər gün səhər yayımın əvvəlində "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirmək;
39.1.2. tütün istifadəsi prosesinin nümayiş etdirildiyi proqramlarda tütündən istifadənin sağlamlığa və ətraf mühitə zərərli təsiri barədə xüsusi xəbərdaredici məlumatların verilməsini təmin etmək;
39.1.3. bu Qanunun 14.1-ci və 14.2-ci maddələrində nəzərdə tutulmuş tələblərə riayət etmək;
39.1.4. reklam və sponsorluq fəaliyyətini "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən həyata keçirmək;
39.1.5. Şuranın qərarlarını icra etmək;
39.1.6. bu Qanunla müəyyənləşdirilmiş digər vəzifələri yerinə yetirmək.
39.2. Audiovizual yayımın səs və təsvirinə dair keyfiyyət göstəriciləri ilə bağlı tələblər Şura tərəfindən müəyyən edilir.
39.3. Ümumxalq hüzn, Anım və matəm günlərində audiovizual yayım aşağıdakı qaydada həyata keçirilməlidir:
39.3.1. komediya və erotik filmlər, televiziya və radio viktorinaları, yumoristik, əyləncəli və ümumxalq hüzn, Anım və matəm günlərinin mahiyyətinə uyğun olmayan digər proqramlar yayımlanmamalıdır;
39.3.2. reklam yayımlanmamalıdır (Anım Günü istisna olmaqla);
39.3.3. azı hər iki saatda bir dəfə ümumxalq hüzn, Anım və matəm günü ilə bağlı məlumat yayımlanmalıdır;
39.3.4. saat 12.00-da bir dəqiqəlik sükut elan edilməlidir.

**Maddə 40. Tematik yayım**

Bu Qanunun 50.1-ci və 50.2-ci maddələrində göstərilən audiovizual media subyektləri tərəfindən yayımın lisenziyada qeyd olunan janrda həyata keçirilməsi məcburidir.

**Maddə 41. Yayımın dayandırılması**

41.1. Aşağıdakı hallarda yayım Şuranın qərarı ilə 24 (iyirmi dörd) saat müddətinədək müvəqqəti dayandırılır:
41.1.1. bu Qanunun 14.1.4-cü (irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkiliyin təbliği ilə bağlı), 14.1.5-ci (zorakılıq və qəddarlıqla bağlı), 14.1.6-cı, 14.1.12-ci, 14.1.13-cü, 38-ci, 39.1.1-ci, 39.1.2-ci, 39.1.4-cü və 39.3-cü maddələrinin tələbləri pozulduqda;
41.1.2. yayımla bağlı lisenziyada göstərilən ərazi kateqoriyasına riayət edilmədikdə.
41.2. Aşağıdakı hallarda yayım Şuranın qərarı ilə 1 (bir) gündən 1 (bir) ayadək müddətə müvəqqəti dayandırılır:
41.2.1. bu Qanunun 7-ci, 8-ci, 9-cu, 14.1.2-ci və 14.1.5-ci (terrorçuluğun və dini ekstremizmin təbliği ilə bağlı) maddələrinin tələbləri pozulduqda;
41.2.2. Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşlara, etnik, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına, terrorçuluğa açıq çağırışlar, habelə terrorçuluğun maliyyələşdirilməsinə, terrorçuluq məqsədilə təlimlərin təşkil edilməsinə və ya keçirilməsinə yönələn məlumatlar yayımladıqda.
41.3. Şura bu Qanunun 41.2.2-ci maddəsində göstərilən halda yayımın dərhal dayandırılması barədə qərar qəbul edir və bu Qanunun 58.4-cü maddəsi nəzərə alınmaqla yayımçının lisenziyasının ləğv edilməsi barədə iddia ərizəsi ilə məhkəməyə müraciət edir. Məhkəmə iddia ərizəsinə Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 128-ci maddəsinə uyğun olaraq baxır.
41.4. Şura tərəfindən yayımın dayandırılması barədə qərarın surəti dərhal məlumat üçün audiovizual yayımçıya, icra üçün infrastruktur operatoruna, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və platforma operatorlarına göndərilməlidir.
41.5. Bu Qanunun tələblərini pozmuş audiovizual yayımçı bu Qanunun 41.1-ci və 41.2-ci maddələri ilə ona tətbiq edilmiş müvafiq tədbirin məzmunu barədə məlumatı yayımın dayandırıldığı müddət ərzində özünün televiziya və (və ya) radio kanalında yayımlamalıdır.
41.6. Barəsində yayımın dayandırılması və ya digər inzibati tənbeh tətbiq etmə haqqında qərar çıxarılmış yayımçı buna səbəb olmuş audiovizual proqramı özünün veb-saytından və həmin proqramın yayımlandığı video paylaşım platformalarından çıxarmalıdır.

**Maddə 42. Audiovizual proqramların auditoriya həcminin araşdırılması**

42.1. Audiovizual yayımın dayanıqlı inkişafını təmin etmək, həmin sahəyə investisiya qoyuluşunu və reklamı təşviq etmək məqsədilə xüsusi qurğularla audiovizual yayımçıların və onlar tərəfindən yayımlanan proqramların auditoriya həcminin araşdırılması Şuranın tələblərinə cavab verən reytinq ölçən təşkilat tərəfindən audiovizual yayımçılarla bağlanılmış müqavilə əsasında həyata keçirilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi halda bu maddənin məqsədləri üçün maliyyələşmə dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilə bilər.
42.2. Dövlət büdcəsindən maliyyələşən audiovizual yayımçılar (sifarişli yayım xidməti istisna olmaqla) auditoriya həcminin Şuranın tələblərinə cavab verən reytinq ölçən təşkilat vasitəsilə müəyyənləşdirilməsini təmin etməlidirlər.
42.3. Audiovizual media subyektlərinin və reklam agentliklərinin reytinq ölçən təşkilatın təsisçisi (iştirakçısı) olmasına yol verilmir.
42.4. Reytinq ölçən təşkilat audiovizual proqramların auditoriya həcminin araşdırılmasını aşağıdakı prinsiplər əsasında həyata keçirir:
42.4.1. aparılan araşdırmaların tam və mütəmadi olması;
42.4.2. aparılan araşdırmalar nəticəsində əldə edilən məlumatların toplanması, işlənməsi, saxlanılması və yayımlanmasının beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi;
42.4.3. aparılan araşdırmaların obyektivliyinin təmin olunması;
42.4.4. aparılan araşdırma zamanı əldə olunan məlumatların toplanma mənbələrinin konfidensiallığının qorunması;
42.4.5. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsi.
42.5. Yayımçılar reytinq ölçən təşkilat tərəfindən aparılan araşdırmaların nəticələri barədə hesabatları Şuranın sorğusu əsasında Şuraya təqdim etməlidirlər.

**4-cü fəsil**
**Audiovizual media sahəsini tənzimləyən orqan**

**Maddə 43. Audiovizual media sahəsini tənzimləyən orqanın statusu**

43.1. Azərbaycan Respublikasında audiovizual media sahəsində tənzimləməni Şura həyata keçirir.
43.2. Şuranın fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.
43.3. Şura müstəqil balansa, "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara, blanklara və bank hesablarına malikdir.

**Maddə 44. Şuranın fəaliyyət prinsipləri**

Şuranın fəaliyyəti qanunçuluq, müstəqillik, kollegiallıq, qərəzsizlik, obyektivlik və peşəkarlıq prinsiplərinə əsaslanır.

**Maddə 45. Şuranın müstəqilliyi**

45.1. Şura təşkilati və funksional müstəqilliyə malikdir və onun fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir.
45.2. Şuranın strukturunu və işçilərinin say həddini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 46. Şuranın fəaliyyət istiqamətləri**

46.1. Şuranın fəaliyyət istiqamətləri aşağıdakılardır:
46.1.1. audiovizual media sahəsində tənzimləməni və qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə nəzarəti həyata keçirmək;
46.1.2. audiovizual media sahəsində dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;
46.1.3. bu Qanunla müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

**Maddə 47. Şuranın vəzifə və hüquqları**

47.1. Şuranın vəzifələri aşağıdakılardır:
47.1.1. audiovizual media sahəsində normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;
47.1.2. audiovizual media sahəsində normativ xarakterli aktlar qəbul etmək;
47.1.3. audiovizual yayımın səs və təsvirinə dair keyfiyyət göstəricilərini müəyyən etmək;
47.1.4. audiovizual media subyektləri üçün lisenziyalar vermək;
47.1.5. audiovizual media sahəsində bu Qanunun tələblərinin yerinə yetirilməsinə nəzarət etmək məqsədilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlamalar həyata keçirmək;
47.1.6. bu Qanunla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq audiovizual media subyektləri üçün icrası məcburi olan qərarlar qəbul etmək;
47.1.7. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 17.2-ci maddəsində göstərilən təşkilatlardan Yayım şurasının üzvlüyünə namizədlərin irəli sürülməsi işini təşkil etmək;
47.1.8. yerüstü yayımın radiotezlik planlaşdırılmasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) birgə həyata keçirmək;
47.1.9. xarici audiovizual yayımçının proqramlarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xidmətlərindən istifadə etməklə yayımlanmasına razılıq vermək;
47.1.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə tənzimlənən və Şuranın səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;
47.1.11. audiovizual media sahəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;
47.1.12. Şuraya ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;
47.1.13. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;
47.1.14. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, veb-saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;
47.1.15. Şuranın strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;
47.1.16. Şuranın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;
47.1.17. bu Qanundan irəli gələn digər vəzifələri yerinə yetirmək.
47.2. Öz vəzifələrini yerinə yetirmək üçün Şuranın aşağıdakı hüquqları vardır:
47.2.1. audiovizual media sahəsində normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;
47.2.2. audiovizual media sahəsi üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;
47.2.3. audiovizual media sahəsi üzrə dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;
47.2.4. Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;
47.2.5. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;
47.2.6. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;
47.2.7. bu Qanundan irəli gələn digər hüquqları həyata keçirmək.

**Maddə 48. Şuranın fəaliyyətinin idarə olunması**

48.1. Şura sədr də daxil olmaqla 7 (yeddi) üzvdən ibarət tərkibdə fəaliyyət göstərir.
48.2. Şuranın üzvləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.
48.3. Üzvlərin səlahiyyət müddəti 5 (beş) ildir. Eyni şəxs ardıcıl olaraq iki dəfədən artıq Şuranın üzvü ola bilməz.
48.4. Aşağıdakı şəxslər Şuranın üzvü ola bilməzlər:
48.4.1. ali təhsili olmayanlar;
48.4.2. ikili vətəndaşlığı və ya başqa dövlətlər qarşısında öhdəliyi olanlar;
48.4.3. dövlət orqanlarında (qurumlarında) ödənişli, seçkili və ya təyinatlı vəzifə tutanlar, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olanlar;
48.4.5. din xadimləri;
48.4.6. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edilmiş şəxslər;
48.4.7. ağır və xüsusilə ağır cinayətlərə görə məhkumluğu üzərindən götürülməmiş, yaxud məhkumluğu ödənilməmiş şəxslər;
48.4.8. media subyektləri və onların təsisçisi (iştirakçısı) olan şəxslər.
48.5. Şuranın üzvləri səlahiyyət müddəti qurtaranadək yalnız aşağıdakı hallarda öz vəzifələrindən azad edilirlər:
48.5.1. öz arzusu ilə müvafiq ərizə təqdim etdikdə;
48.5.2. Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;
48.5.3. dövlət orqanlarında (qurumlarında) ödənişli, seçkili və ya təyinatlı vəzifə tutduqda, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olduqda;
48.5.4. din xadimi olduqda;
48.5.5. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edildikdə;
48.5.6. ağır və xüsusilə ağır cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;
48.5.7. media subyekti və onun təsisçisi (iştirakçısı) olduqda.
48.6. Şuranın üzvləri öz aralarından sadə səs çoxluğu ilə Şuranın sədrini seçirlər.
48.7. Şura xərclər smetası daxilində Şura aparatının strukturunu təsdiq edir.
48.8. Şuranın sədri:
48.8.1. Şuranın işini təşkil edir və ona rəhbərlik edir;
48.8.2. Şura aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir;
48.8.3. Şura aparatının işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir;
48.8.4. öz səlahiyyəti çərçivəsində icrası məcburi olan daxili əmrlər, sərəncamlar və göstərişlər verir;
48.8.5. bu Qanundan irəli gələn digər səlahiyyətləri həyata keçirir.

**Maddə 49. Şura üzvlərinin təminatı**

49.1. Şura sədrinin aylıq vəzifə maaşı mərkəzi icra hakimiyyəti orqanının rəhbərinin aylıq vəzifə maaşına, Şuranın digər üzvlərinin aylıq vəzifə maaşı isə mərkəzi icra hakimiyyəti orqanının rəhbərinin müavininin aylıq vəzifə maaşına bərabər tutulur.
49.2. Şuranın üzvlərinə səlahiyyətlərinin icrası ilə bağlı təmsilçilik xərclərinin ödənilməsi üçün vəzifə maaşlarının 25 faizi məbləğində aylıq əlavə pul təminatı verilir.

**5-ci fəsil**
**Audiovizual media sahəsində lisenziyalaşdırma**

**Maddə 50. Audiovizual media subyektləri üçün verilən lisenziyalar**

50.1. Yerüstü yayımçılara aşağıdakı lisenziyalar verilir:
50.1.1. ümumölkə yerüstü televiziya yayımçısı lisenziyası;
50.1.2. regional yerüstü televiziya yayımçısı lisenziyası;
50.1.3. ümumölkə yerüstü radio yayımçısı lisenziyası;
50.1.4. regional yerüstü radio yayımçısı lisenziyası.
50.2. Platforma yayımçılarına aşağıdakı lisenziyalar verilir:
50.2.1. peyk yayımı həyata keçirən platforma yayımçısı lisenziyası;
50.2.2. peyk yayımı həyata keçirməyən platforma yayımçısı lisenziyası.
50.3. Sifarişli yayım xidməti provayderinə sifarişli yayım xidməti provayderi lisenziyası verilir.
50.4. Platforma operatorlarına aşağıdakı lisenziyalar verilir:
50.4.1. sadə platforma operatoru lisenziyası;
50.4.2. universal platforma operatoru lisenziyası.
50.5. Multipleks operatoruna multipleks operatoru lisenziyası verilir.

**Maddə 51. Müsabiqə əsasında lisenziyaların verilməsi**

51.1. Bu Qanunun 50.1.1-50.1.4-cü, 50.2.1-ci və 50.5-ci maddələrində göstərilən lisenziyaların verilməsi üçün bu Qanunun 35.1-ci və ya 35.2-ci maddələrində nəzərdə tutulmuş məlumatlar əsasında Şuranın qərarı ilə müsabiqə elan edilir və bu elan onun veb-saytında və azı 2 (iki) rəsmi qəzetdə yayımlanır.
51.2. Elanda aşağıdakı məlumatlar olmalıdır:
51.2.1. bu Qanunun 50.1.1-50.1.4-cü və 50.2.1-ci maddələrində nəzərdə tutulmuş lisenziyalar üçün yayımın növü (televiziya və (və ya) radio);
51.2.2. bu Qanunun 50.1.1-50.1.4-cü maddələrində nəzərdə tutulmuş lisenziyalar üçün yayımın ərazi kateqoriyası və yayımın janrı;
51.2.3. bu Qanunun 50.2.1-ci maddəsində nəzərdə tutulmuş lisenziya üçün yayımın janrı;
51.2.4. bu Qanunun 50.5-ci maddəsində nəzərdə tutulmuş lisenziya üçün yayımın ərazi kateqoriyası;
51.2.5. müsabiqədə iştirak haqqının məbləği, onun ödənilməsi müddəti və qaydası;
51.2.6. bu Qanunun 52.2-ci maddəsində nəzərdə tutulan sənədlərin siyahısı və həmin sənədlərin təqdim edilmə ünvanı və qaydası.
51.3. İştirak haqqı müvafiq lisenziya üçün nəzərdə tutulmuş dövlət rüsumunun 2 (iki) faizi məbləğində müəyyən olunur. Müsabiqədə qalib olmayan şəxslərin iştirak haqqı geri ödənilmir.

**Maddə 52. Müsabiqə üzrə sənəd qəbulu**

52.1. Sənəd qəbulu müsabiqənin keçirilməsi üçün elanın dərc edildiyi gündən 30 (otuz) iş günü müddətində həyata keçirilir.
52.2. Müsabiqədə iştirak etmək üçün aşağıdakı sənədlər kağız və ya elektron formada təqdim edilməlidir:
52.2.1. müsabiqədə iştirak barədə forması və məzmunu Şura tərəfindən müəyyən olunmuş və fiziki şəxs və ya hüquqi şəxsin səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış ərizə;
52.2.2. fiziki şəxsin şəxsiyyət vəsiqəsinin və səlahiyyətli nümayəndənin səlahiyyətini təsdiq edən sənədin surəti;
52.2.3. hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın və nizamnamənin notarial qaydada təsdiq olunmuş surəti;
52.2.4. vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

*Ardı 6-cı səh.*

# Media haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 5-ci səh.*

52.2.5. təsisçi (iştirakçı) fiziki şəxs olduqda - onun (onların), habelə direktorun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi; təsisçi (iştirakçı) hüquqi şəxs olduqda - onun (onların) adı, hüquqi ünvanı;

52.2.6. təsisçi (iştirakçı) fiziki şəxs olduqda - onun məhkumluğunun olub-olmaması barədə arayış;

52.2.7. yayımı həyata keçirmək üçün texniki imkanları haqqında Şura tərəfindən müəyyən edilmiş formada məlumat;

52.2.8. yayımçının və ya operatorun adı ilə bağlı məlumat;

52.2.9. media subyektinin redaksiyasının loqotipi (emblemi) ilə bağlı məlumat;

52.2.10. iqtisadi əsaslandırma.

52.3. Şura bu Qanunun 52.2-ci maddəsində nəzərdə tutulmuş sənədləri, o cümlədən elektron sənədləri əldə etmək üçün dövlət orqanlarının (qurumlarının) elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müəyyən olunmuş hədlərdə istifadə edir. Bunun mümkün olmadığı hallarda həmin sənədlərin təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında aidiyyəti orqandan (qurumdan) tələb olunur və ya ərizəçi tərəfindən təmin olunur.

52.4. Təqdim olunmuş sənədlərə sənədlərin qəbulunun başa çatdığı vaxtdan 10 (on) iş günü müddətində baxılır.

52.5. Təqdim edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və lisenziyanın verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar barədə məsələlərə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-19.4-cü maddələrinə uyğun olaraq baxılır.

**Maddə 53. Müsabiqənin keçirilməsi**

53.1. Aşağıdakı hallarda Şura tərəfindən ərizəçinin müsabiqəyə buraxılmasından imtina barədə əsaslandırılmış qərar qəbul edilir və bu qərar 3 (üç) iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir:

53.1.1. ərizə buna hüququ olmayan şəxs tərəfindən verilmişdirsə;

53.1.2. eyni ad altında başqa media subyekti fəaliyyət göstərirsə;

53.1.3. təqdim olunmuş sənədlərdə düzgün olmayan və ya təhrif olunmuş məlumatlar aşkar olunarsa (bu Qanunun 52.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla);

53.1.4. ərizəçinin əvvəllər aldığı lisenziyanın bu Qanunun 58.1.2-ci, 58.1.4-cü, 58.1.6-cı, 58.1.9-58.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla ləğv edilməsindən 3 (üç) ildən az müddət keçibsə;

53.1.5. təsisçisi və ya təsisçilərindən biri əvvəllər lisenziyası bu Qanunun 58.1.2-ci, 58.1.4-cü, 58.1.6-cı, 58.1.9-58.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla ləğv edilən fiziki və ya hüquqi şəxs olduqda, lisenziyanın ləğv edilməsindən 3 (üç) ildən az müddət keçibsə;

53.1.6. ərizəçi bu Qanunun 26.1-26.5-ci, 26.8-ci maddələrində nəzərdə tutulmuş tələblərə cavab vermirsə.

53.2. Təqdim olunmuş sənədlərdə imtina üçün əsaslar olmadıqda, bu Qanunun 52.4-cü maddəsində nəzərdə tutulmuş müddətdə Şura tərəfindən ərizəçilərin müsabiqəyə buraxılması barədə qərar qəbul edilir və bu qərar ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

53.3. Müsabiqə bu Qanunun 53.2-ci maddəsində nəzərdə tutulmuş müddətin bitdiyi tarixdən 30 (otuz) iş günü müddətində keçirilməli və müsabiqənin nəticəsi bu müddət ərzində açıqlanmalıdır.

53.4. Aşağıdakı hallarda müsabiqə baş tutmamış hesab edilir:

53.4.1. müsabiqəyə ikidən az ərizəçi müraciət etdikdə;

53.4.2. müsabiqənin iştirakçısı olmadıqda;

53.4.3. müsabiqənin qalibi müsabiqənin nəticəsində lisenziya almaqdan imtina etdikdə.

53.5. Müsabiqə baş tutmamış hesab edildikdə, Şura tərəfindən bu barədə qərar qəbul edilir və bu qərar onun veb-saytında və azı 2 (iki) rəsmi qəzetdə yayımlanır. Təkrar müsabiqə bu Qanunun 51-53-cü maddələrinə uyğun olaraq həyata keçirilir.

53.6. Bu Qanunun 53.4.1-ci maddəsində nəzərdə tutulmuş hala görə müsabiqə baş tutmadıqda baş tutmamış müsabiqəyə müraciət etmiş ərizəçi elan olunmuş təkrar müsabiqədə yeganə ərizəçi olduqda həmin müsabiqənin qalibi hesab edilir.

53.7. Baş tutmamış müsabiqəyə müraciət etmiş ərizəçi təkrar müsabiqədə iştirak üçün müraciət etdikdə yenidən iştirak haqqını ödəməkdən azaddır.

**Maddə 54. Müsabiqə üzrə müraciətlərin qiymətləndirilməsi və müsabiqənin nəticələri**

54.1. Müsabiqə üzrə müraciətlər qiymətləndirilərkən aşağıdakılar nəzərə alınır:

54.1.1. ərizəçinin texniki imkanları və iqtisadi əsaslandırması;

54.1.2. mövcud media subyektlərinə lisenziya verilərkən ərizəçinin müsabiqə nəticəsində əldə edəcəyi lisenziya üzrə fəaliyyətinin "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələblərə uyğunluğu.

54.2. Şura tərəfindən müsabiqənin qalibinə lisenziyanın verilməsi barədə qərar qəbul edilir və bu qərar ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Müsabiqənin qalibinə Şura tərəfindən lisenziyanın verilməsi üçün dövlət rüsumu ödəmək vəzifəsi barədə şifahi və ya məktub vasitəsilə məlumat verilir. Ərizəçi bu məlumatı aldığı tarixdən 5 (beş) iş günü müddətində dövlət rüsumunu ödəməlidir.

54.3. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd Şuraya ərizəçi tərəfindən təqdim edildikdən sonra lisenziya 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd Şuraya təqdim edilmədikdə, lisenziyanın verilməsi haqqında qərar Şura tərəfindən ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

54.4. Müsabiqənin nəticələrinə görə qalib elan edilən yerüstü yayımçı infrastruktur operatoru ilə müqavilə bağlayır. İnfrastruktur operatoru bu müqaviləni bağlamaqdan imtina edə bilməz.

54.5. Müsabiqənin nəticələrinə görə qalib elan edilən peyk yayımı həyata keçirən platforma yayımçısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə müqavilə bağlayır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu müqaviləni bağlamaqdan imtina edə bilməz.

54.6. Müsabiqənin nəticələrinə görə qalib elan edilən multipleks operatoru müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə müqavilə bağlayır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu müqaviləni bağlamaqdan imtina edə bilməz.

54.7. Şura lisenziyanın verildiyi tarixdən 3 (üç) iş günü müddətində həmin audiovizual media subyekti barədə məlumatları Media Reyestrinə daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

**Maddə 55. Peyk yayımı həyata keçirməyən platforma yayımçısı, platforma operatoru və sifarişli yayım xidməti provayderi üçün lisenziyanın verilməsi qaydaları**

55.1. Bu Qanunun 50.2.2-ci, 50.3-cü və 50.4-cü maddələrində göstərilən lisenziyaların alınması üçün bu Qanunun 52.2-ci maddəsində nəzərdə tutulmuş sənədlər kağız və ya elektron formada Şuraya təqdim edilir.

55.2. Təqdim edilmiş sənədlərə qeydiyyata alındığı gündən 10 (on) iş günü müddətində Şura tərəfindən baxılır və lisenziyanın verilməsi və ya verilməsindən imtina edilməsi haqqında qərar qəbul olunur və bu qərar ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

55.3. Təqdim edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və lisenziyanın verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar barədə məsələlərə bu Qanunun 52.5-ci maddəsinə uyğun olaraq baxılır.

55.4. Bu Qanunun 53.1-ci və 54.1-ci maddələrində nəzərdə tutulmuş əsaslar olduqda, Şura tərəfindən lisenziyanın verilməsindən imtina barədə əsaslandırılmış qərar qəbul edilir və bu qərar 3 (üç) iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

55.5. Lisenziyanın verilməsindən imtina üçün əsaslar olmadıqda Şura tərəfindən lisenziyanın verilməsi barədə qərar qəbul edilir və bu qərar 3 (üç) iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

55.6. Ərizəçiyə lisenziyanın verilməsi üçün dövlət rüsumu ödəmək vəzifəsi barədə şifahi və ya məktub vasitəsilə məlumat verilir. Ərizəçi bu məlumatı aldığı tarixdən 5 (beş) iş günü müddətində dövlət rüsumunu ödəməlidir.

55.7. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd Şuraya ərizəçi tərəfindən təqdim edildikdən sonra lisenziya 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd Şuraya təqdim edilmədikdə, lisenziyanın verilməsi haqqında qərar Şura tərəfindən ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

55.8. Şura lisenziyanın verildiyi tarixdən 3 (üç) iş günü müddətində həmin audiovizual media subyekti barədə məlumatları Media Reyestrinə daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

**Maddə 56. Lisenziyanın məzmunu**

56.1. Lisenziyada aşağıdakılar göstərilir:

56.1.1. lisenziyanın verilmə tarixi və qeydiyyat nömrəsi;

56.1.2. lisenziya verən orqanın adı və ünvanı;

56.1.3. lisenziyanın sahibi barədə məlumatlar (hüquqi şəxsin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, VÖEN-i);

56.1.4. lisenziya verilən fəaliyyət növü (yayım üsulu, ərazi kateqoriyası);

56.1.5. redaksiyanın adı (olduğu halda);

56.1.6. janrı (olduğu halda).

**Maddə 57. Lisenziyanın dayandırılması**

57.1. Lisenziya aşağıdakı hallarda dayandırılır:

57.1.1. lisenziya sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

57.1.2. lisenziya sahibi bu Qanunun və Şuranın qərarlarının pozulması hallarının aradan qaldırılmasına dair Şuranın göstərişlərini yerinə yetirmədikdə;

57.1.3. bu Qanunun 29.4-cü maddəsində göstərilən xidmət haqqının 6 (altı) ay ərzində ödənilməməsi barədə infrastruktur operatorunun Şuraya müraciəti olduqda.

57.2. Lisenziya Şuranın qərarı ilə dayandırılır. Həmin qərarda lisenziyanın dayandırılmasına əsas verən hallar və lisenziyanın dayandırıldığı müddət göstərilməlidir. Bu Qanunun 57.1.2-ci maddəsində göstərilən əsas üzrə lisenziyanın dayandırılması haqqında qərarda, həmçinin dayandırılmaya əsas verən halların aradan qaldırılması üçün görülməli olan tədbirlər və lisenziyanın dayandırıldığı müddətdə həmin halların aradan qaldırılmamasının nəticəsi göstərilməlidir.

57.3. Lisenziya sahibi lisenziyanın dayandırıldığı müddət bitənədək bu Qanunun 57.1.2-ci və 57.1.3-cü maddələrində göstərilən halı aradan qaldırmalı və nəticəsi barədə 3 (üç) iş günü müddətində Şuraya yazılı məlumat verməlidir.

57.4. Bu Qanunun 57.1.1-ci maddəsində göstərilən əsas üzrə dayandırılmış lisenziya lisenziya sahibinin müvafiq ərizəsinə, bu Qanunun 57.1.2-ci və 57.1.3-cü maddələrində göstərilən hallarda dayandırılmış lisenziya isə həmin halın aradan qaldırılması barədə lisenziya sahibinin təqdim etdiyi yazılı məlumata əsasən Şuranın qərarı ilə bərpa olunur.

57.5. Lisenziyanın dayandırılması və bərpa olunması haqqında qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində lisenziya sahibinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

57.6. Şura lisenziyanın dayandırılması və bərpa olunması barədə qərar qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində həmin qərar barədə məlumatı Media Reyestrinə daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

57.7. Radiotezlik istifadəçisi olan audiovizual media subyektinin lisenziyasının dayandırılması və bərpa olunması barədə qərarın surəti qərarın qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində Şura tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanına (qurumuna) və infrastruktur operatoruna göndərilir.

**Maddə 58. Lisenziyanın ləğvi, yenidən rəsmiləşdirilməsi və dublikatının verilməsi**

58.1. Lisenziya aşağıdakı hallarda ləğv edilir:

58.1.1. lisenziya sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

58.1.2. bu Qanunun 26-cı maddəsinin tələbləri pozulduqda;

58.1.3. lisenziyanın sahibi olan fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə, hüquqi şəxs ləğv edildikdə;

58.1.4. məhkəmənin müvafiq qərarı olduqda;

58.1.5. lisenziya sahibi olan şəxsin müflisləşməsinin məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunduğu halda;

58.1.6. lisenziyanın alınması üçün təqdim edilmiş sənədlərdə sonradan düzgün olmayan məlumatlar aşkar edildikdə;

58.1.7. bu Qanunun 57.1.2-ci və 57.1.3-cü maddələrində nəzərdə tutulmuş hallar bu Qanunun 57.3-cü maddəsinə uyğun olaraq aradan qaldırılmadıqda;

58.1.8. lisenziyada göstərilmiş fəaliyyət növü lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısından çıxarıldıqda;

58.1.9. yayım lisenziya alındıqdan sonra altı ay müddətində həyata keçirilmədikdə;

58.1.10. lisenziya verilmiş fəaliyyət növü üzrə ərazi kateqoriyasına riayət edilmədikdə;

58.1.11. bu Qanunun 41.2-ci maddəsində nəzərdə tutulmuş hallarda yayımın Şuranın qərarı ilə dayandırıldığı hallar istisna olmaqla, yayım ardıcıl olaraq 30 (otuz) gün və ya bir il ərzində 60 (altmış) gün həyata keçirilmədikdə;

58.1.12. lisenziya sahibi bir il müddətində azı beş dəfə audiovizual yayım sahəsində inzibati məsuliyyətə cəlb edildikdə.

58.2. Lisenziya bu Qanunun 58.1-ci maddəsində göstərilən hallara (bu Qanunun 58.1.4-cü maddəsi istisna olmaqla) istinad edilməklə, Şuranın qərarı ilə ləğv edilir. Həmin qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində lisenziya sahibinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

58.3. Şura lisenziyanın ləğvi barədə qərar qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində həmin qərar barədə məlumatı Media Reyestrinə daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

58.4. Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşlara, etnik, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına, terrorçuluğa açıq çağırışlar, habelə terrorçuluğun maliyyələşdirilməsinə, terrorçuluq məqsədilə təlimlərin təşkil edilməsinə və ya keçirilməsinə yönələn məlumatların yayılması lisenziya sahibi olan yayımçı tərəfindən müdafiə olunduqda və ya bu çağırışları səsləndirməyə bilərəkdən şərait yaradıldıqda, lisenziya Şuranın iddia ərizəsi əsasında məhkəmənin qərarı ilə ləğv edilir.

58.5. Lisenziyanın yenidən rəsmiləşdirilməsi və dublikatının verilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü və 24-cü maddələrinə uyğun olaraq həyata keçirilir.

58.6. Radiotezlik istifadəçisi olan audiovizual media subyektinə lisenziya verildikdə, yenidən rəsmiləşdirildikdə, ləğv edildikdə və lisenziyanın dublikatının verilməsi halında Şura bu barədə qərarın qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) və infrastruktur operatorunu məlumatlandırır.

### 6-cı fəsil
### Çap mediası, onlayn media və informasiya agentlikləri

**Maddə 59. Çap mediası subyekti**

59.1. Çap mediası subyektləri fiziki və ya hüquqi şəxslər ola bilər.

59.2. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən orqanlar (qurumlar), Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikasının Ali Məhkəməsi istisna olmaqla, digər dövlət orqanları (qurumları) çap mediası subyektinin təsisçisi ola bilməzlər.

59.3. Ayda azı 1 (bir) dəfə davamlı olaraq yayımlanan, birdəfəlik tirajı 100 (yüz) nüsxədən çox olan, ildə azı 12 (on iki) dəfə çap olunan qəzetlər və ildə azı 2 (iki) dəfə çap olunan jurnal, toplu, bülleten və başqa nəşrlər dövri nəşrdir.

59.4. Qəzetlər aşağıdakı dövriliklə çap olunur:

59.4.1. həftəlik qəzet - həftədə azı 1 (bir) dəfə;

59.4.2. günaşırı qəzet - həftədə azı 3 (üç) dəfə;

59.4.3. gündəlik qəzet - həftədə azı 5 (beş) dəfə.

59.5. Məzmununa görə qəzetlər aşağıdakı kimi qruplaşdırılır:

59.5.1. ictimai-siyasi qəzet - məzmununun azı 75 (yetmiş beş) faizi ümumilikdə xəbərlərdən, ictimai, siyasi, sosial və iqtisadi mövzuların işıqlandırılmasından, şərh və təhlilindən ibarət olan qəzet;

59.5.2. tematik qəzet - məzmununun azı 75 (yetmiş beş) faizi yalnız bir sahənin işıqlandırılmasından, şərh və təhlilindən ibarət olan qəzet.

59.6. Ərazi kateqoriyasına görə qəzetlər aşağıdakı kimi qruplaşdırılır:

59.6.1. ümumölkə - bir media subyekti tərəfindən eyni adla çap edilən və Azərbaycan Respublikası ərazisinin azı 70 faizinə yayımlanan qəzet;

59.6.2. regional - 1 (bir) media subyekti tərəfindən eyni adla çap edilən və azı 1 (bir) inzibati ərazi vahidinin ərazisinin azı 70 (yetmiş) faizində yayımlanan qəzet.

59.7. Aşağıdakı qəzetlər davamlı yayımlanan nəşr hesab olunur:

59.7.1. 1 (bir) il ərzində 12 (on iki) nömrəyə qədər fasilə vermək hüququ ilə nəşr olunan gündəlik qəzetlər;

59.7.2. 1 (bir) il ərzində 9 (doqquz) nömrəyə qədər fasilə vermək hüququ ilə nəşr olunan günaşırı qəzetlər;

59.7.3. 1 (bir) il ərzində 6 (altı) nömrəyə qədər fasilə vermək hüququ ilə nəşr olunan həftəlik qəzetlər;

59.8. İldə azı 2 (iki) dəfə çap olunan jurnal, toplu, bülleten və başqa nəşrlər davamlı yayımlanan dövri nəşr hesab olunur.

**Maddə 60. Onlayn media subyekti**

60.1. Onlayn medianın subyektləri fiziki və ya hüquqi şəxslər ola bilər.

60.2. Onlayn media subyekti özünün veb-saytında aşağıdakı məlumatları göstərməlidir:

60.2.1. adı;

60.2.2. VÖEN-i;

60.2.3. domen adının sahibi;

60.2.4. məsul redaktorun soyadı, adı və atasının adı;

60.2.5. onlayn media subyektinin fəaliyyət göstərdiyi ünvan və əlaqə vasitələri.

60.3. Bu Qanunun 60.2-ci maddəsində nəzərdə tutulmuş məlumatlar onlayn mediada "əlaqə" başlığı altında və istifadəçilərin ana səhifədən birbaşa daxil ola biləcəkləri şəkildə göstərilməlidir.

60.4. Onlayn mediada materialın ilk dəfə yayımlandığı tarix qeyd olunmalı və həmin tarixə dəyişiklik edilməməlidir.

60.5. Onlayn media subyekti (redaksiyaları) hər ay 20 (iyirmi) gün ərzində bu Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə əməl etməklə və bu Qanunun 13.3-cü maddəsində göstərilən informasiya istisna olmaqla, gündəlik azı 20 (iyirmi) kütləvi informasiya dərc etdikdə onun fəaliyyəti davamlı hesab olunur.

**Maddə 61. İnformasiya agentliyi**

Bu Qanunun digər media subyektlərinin fəaliyyətinə dair müddəaları informasiya agentliklərinə onlar tərəfindən kütləvi informasiyanın dərc olunma və (və ya) yayımlanma üsuluna uyğun olaraq şamil edilir.

**Maddə 62. Çap mediası və onlayn media subyektinin təsis edilməsi**

62.1. Çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından (qurumlarından) icazə tələb olunmur.

62.2. Çap mediası və onlayn media subyekti kimi fəaliyyət göstərmək üçün hüquqi və ya fiziki şəxs müvafiq olaraq çap mediası məhsulunun istehsalından və materialın yayımlanmasından 7 (yeddi) gün əvvəl müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) rəsmi müraciət etməlidir.

62.3. Bu Qanunun 62.2-ci maddəsində nəzərdə tutulmuş müraciət bu Qanunun 73.5-ci maddəsində nəzərdə tutulmuş qaydaya uyğun edilir.

62.4. Dini məzmunlu çap mediası və onlayn media subyektinin təsis edilməsi ilə bağlı müraciətə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi əlavə olunur.

62.5. Çap mediası və onlayn media subyektlərinin adında Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının), beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının, yerli özünüidarəetmə orqanlarının adlarından (özlərinin təsis etdikləri media subyektləri istisna olmaqla), habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadəyə yol verilmir.

**Maddə 63. Çap mediası məhsulunda göstərilməli olan məlumatlar**

63.1. Çap mediası məhsulunun hər buraxılışında aşağıdakı məlumatlar göstərilməlidir:

63.1.1. adı;

63.1.2. VÖEN-i;

63.1.3. məsul redaktorun soyadı, adı və atasının adı;

63.1.4. sıra sayı və çapdan çıxdığı tarix, çapa imzalanma vaxtı (qrafiklə təyin olunmuş və faktiki vaxt);

63.1.5. poçt indeksi;

63.1.6. tirajı;

63.1.7. qiyməti, "Sərbəst qiymət" və ya "Pulsuz" qeydləri;

63.1.8. çap mediası subyektinin və çap mediası məhsulunun istehsal edildiyi mətbəənin adı, ünvanı və əlaqə vasitələri.

63.2. Bu Qanunun 63.1-ci maddəsində qeyd olunan məlumatların göstərilmədiyi çap mediası məhsullarının istehsalı və yayımı, habelə həmin məlumatların qəsdən yanlış göstərilməsi qadağandır.

**Maddə 64. Çap mediası məhsulu və onun yayımı**

64.1. Çap mediası məhsulunun yayımı bilavasitə redaksiya, müqavilə əsasında naşir və rabitə müəssisələri, habelə digər hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilə bilər.

64.2. Çap mediası məhsulunun istehsalı və onun yayımı kommersiya və qeyri-kommersiya məqsədilə həyata keçirilə bilər. Qeyri-kommersiya məqsədilə həyata keçirilən yayım üçün nəzərdə tutulmuş məhsulun üzərində "Pulsuz" qeydi olur.

64.3. Çap mediası məhsulunun yayımının dayandırılmasına, onun tirajının, yaxud tirajının bir hissəsinin müsadirə edilməsinə yalnız məhkəmə qərarı ilə yol verilir.

**Maddə 65. Çap mediası və onlayn media subyektlərinin fəaliyyətinin və media məhsullarının yayımlanmasının dayandırılması, habelə həmin subyektlərin fəaliyyətinə xitam verilməsi**

65.1. Çap mediası və onlayn media subyektinin fəaliyyəti və media məhsullarının yayımlanması məhkəmənin qərarı ilə bu Qanunun 65.2-ci maddəsində nəzərdə tutulmuş hallarda müvəqqəti dayandırılır, bu Qanunun 65.4-cü maddəsində nəzərdə tutulmuş hallarda isə onların fəaliyyətinə xitam verilir.

65.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı hallarda çap mediası və onlayn media subyektlərinin fəaliyyətinin 2 (iki) ay müddətinədək dayandırılması barədə məhkəmə qarşısında iddia qaldırır:

65.2.1. əcnəbi və ya vətəndaşlığı olmayan şəxs, habelə ali təhsili olmayan şəxs idarəetmə orqanının rəhbəri vəzifəsinə təyin edildikdə;

65.2.2. media sahəsində fəaliyyət azadlığından və jurnalist hüququndan sui-istifadə etməyə görə inzibati tənbeh almış şəxs eyni xətanı inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törətdikdə;

65.2.3. çap mediası və onlayn media subyektləri bu Qanunun 13.1-ci, 13.2-ci, çap mediası subyektləri isə həmçinin bu Qanunun 14.1-ci maddəsinin tələblərinin pozulmasına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən il ərzində 3 (üç) dəfə xəbərdarlıq edildikdən sonra həmin pozuntuları təkrar törətdikdə;

65.2.4. çap mediası və onlayn media subyektinin fəaliyyətinin onun təsisçisi (iştirakçısı) olmayan xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, onların filial və nümayəndəlikləri, həmin şəxslərin Azərbaycan Respublikasında təsis etdikləri hüquqi şəxslər, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsi (bu Qanunun 69.2-ci maddəsi nəzərə alınmaqla) aşkar edildikdə;

65.2.5. bu Qanunun 63.2-ci maddəsində nəzərdə tutulan pozuntular aşkar edildikdə.

65.3. Bu Qanunun 65.2-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə onlayn media subyektinin fəaliyyəti və media məhsullarının yayımlanması dayandırıldıqda, bu barədə həmin media subyektinin veb-saytında məlumat yerləşdirilməlidir.

65.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı hallarda çap mediası və onlayn media subyektlərinin fəaliyyətinə xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırır:

65.4.1. bu Qanunun 65.2.1-ci maddəsində nəzərdə tutulmuş pozuntunu aradan qaldırmadıqda;

65.4.2. bu Qanunun 65.2-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə fəaliyyəti dayandırılmış media subyektləri bu Qanunun 65.2.2-65.2.5-ci maddələrinin tələblərini 2 (iki) il ərzində yenidən pozduqda;

65.4.3. bu Qanunun 26.1-26.4-cü maddələrinin tələblərini pozduqda;

65.4.4. bu Qanunun 62.2-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) rəsmi müraciət edilmədikdə və ya həmin müraciətdə göstərilən məlumatların doğru olmadığı aşkarlandıqda;

65.4.5. media subyektləri Media Reyestrindən bu Qanunun 75.1.7-ci maddəsinin tələblərinin pozulmasına görə çıxarıldığı tarixdən 1 (bir) ay ərzində, bu Qanunun 75.1.6-cı maddəsinin tələblərinin pozulmasına görə çıxarıldığı tarixdən isə 2 (iki) ay ərzində qeyd olunan pozuntuları aradan qaldırmadıqda.

65.5. Onlayn media subyekti tərəfindən bu Qanunun 14.1-ci maddəsinin tələbləri pozulduqda "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görülür.

**Maddə 66. Xarici çap mediası məhsullarının gətirilməsinə və yayımına qadağa qoyulması**

66.1. Bu Qanunun 14.1.1-ci, 14.1.2-ci, 14.1.4-cü, 14.1.5-ci, 14.1.7-ci, 14.1.9-cu, 14.1.10-cu, 14.1.13-cü və 14.1.14-cü maddələrinin tələblərinə cavab verməyən informasiyalar dərc edilən xarici çap mediası məhsullarının Azərbaycan Respublikasının ərazisinə gətirilməsinə və yayımına məhkəmənin qərarı ilə qadağa qoyula bilər.

66.2. Məhkəmə bu Qanunun 66.1-ci maddəsinin tələblərinə zidd olaraq xarici çap mediasının artıq paylanmış məhsulunu satışdan yığışdırmaq barədə qərar qəbul edə bilər.

**Maddə 67. Redaksiya materiallarının saxlanması**

67.1. Çap mediası və onlayn media subyekti tərəfindən redaksiya materialları (əlyazmaları, məktublar, lent yazıları və s.) 1 (bir) il müddətində saxlanılır.

67.2. Materialların saxlanma qaydası çap mediası və onlayn media subyekti tərəfindən müəyyənləşdirilir.

**Maddə 68. Məcburi nüsxələr**

Çap mediası məhsullarının pulsuz məcburi nüsxələri tirajın ilk buraxılışı hazırlanan kimi nəşriyyat tərəfindən təsisçiyə, dövlət arxivinə, həmçinin "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində müəyyən edilmiş qaydada müvafiq kitabxanalara göndərilir.

**Maddə 69. Çap mediası və onlayn mediada sponsorluq**

69.1. Çap mediası və onlayn media subyektlərinin fəaliyyəti və media məhsullarının yayımlanması Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasının hüquqi şəxslərinin sponsorluğu ilə maliyyələşdirilə bilər. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə reklamı qadağan edilmiş malların istehsalı və (və ya) satışı ilə məşğul olan şəxslər sponsor ola bilməzlər.

69.2. Xarici ölkələrin hüquqi və fiziki şəxsləri çap mediası və onlayn media subyektlərinin hər bir məhsulunun yalnız 25 (iyirmi beş) faizədək olan hissəsinə sponsorluq edə bilərlər.

69.3. Çap mediası və onlayn media subyektlərinə sponsorluq jurnalistin müstəqilliyinə təsir edə bilməz.

69.4. Sponsorun maliyyə yardımı ilə hazırlanmış dövri mətbu nəşrlərdə bu barədə məlumat çap olunmalıdır.

69.5. Sponsor reklamı "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yayımlanır.

### 7-ci fəsil
### Jurnalistlərin fəaliyyəti

**Maddə 70. Jurnalist vəsiqəsi**

70.1. Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən jurnalist vəsiqəsi verilir. Jurnalist vəsiqəsinin forması, onun verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

70.2. Bu Qanunun 70.1-ci maddəsi Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən xarici jurnalistlərə şamil edilmir. Xarici jurnalistlər Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərmək üçün əvvəlcədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət etməlidirlər. Onlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən razılıq verildikdən sonra fəaliyyət göstərə bilərlər.

70.3. Jurnalist vəsiqəsinin etibarlılıq müddəti 3 (üç) ildir. Jurnalist vəsiqənin etibarlılıq müddəti bitdiyi gündən ən geci 3 (üç) iş günü müddətində həmin vəsiqəni müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təhvil verməklə yenidən jurnalist vəsiqəsinin alınması üçün müraciət etmək hüququna malikdir.

70.4. Jurnalist vəsiqəsindəki məlumatlar dəyişdikdə və ya jurnalist vəsiqəsi yararsız vəziyyətə düşdükdə, yaxud vəsiqədəki məlumatların səhv olduğu aşkar edildikdə jurnalist vəsiqəsinin dəyişdirilməsi üçün müraciət etməlidir.

70.5. Əmək müqaviləsinə xitam verilmiş jurnalist sonuncu iş günündə öz vəsiqəsini işəgötürənə (media subyektinə) təhvil verməli, media subyekti isə həmin vəsiqəni təhvil aldığı gündən ən geci 3 (üç) iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məhv edilməsi üçün təqdim etməlidir.

70.6. Fərdi olaraq müəllif hüquqları əsasında fəaliyyət göstərən jurnalistlər Media Reyestrindən çıxarıldığı gündən ən geci 3 (üç) iş günü müddətində jurnalist vəsiqəsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məhv edilməsi üçün təqdim etməlidir.

**Maddə 71. Jurnalist vəsiqəsi verilmiş şəxslərin imtiyazları**

71.1. Jurnalist vəsiqəsi verilmiş şəxslərin aşağıdakı imtiyazları vardır:

71.1.1. jurnalist fəaliyyətinin həyata keçirilməsi ilə bağlı dövlət və bələdiyyə mülkiyyətində olan muzeylərə, qalereyalara, habelə mədəni-ictimai tədbirlərin həyata keçirildiyi obyektlərə ödənişsiz daxil olmaq;

71.1.2. dövlət orqanları (qurumları), müəssisə və təşkilatlar, qeyri-hökumət təşkilatları tərəfindən akkreditasiya olunmaq;

71.1.3. əhəmiyyətli tədbirlərə dair kütləvi informasiyanın axtarılması, əldə olunması, ötürülməsi, istehsalı və yayımı məqsədilə həmin tədbirlərin keçirildiyi məkanlara bu Qanunun 72-ci maddəsinə uyğun olaraq akkreditasiya olunduğu halda daxil olmaq;

71.1.4. bu Qanunun 76.1.2-76.1.5-ci maddələrində nəzərdə tutulmuş güzəşt və imtiyazlardan yararlanmaq.

**Maddə 72. Jurnalistlərin akkreditasiyası**

72.1. Media subyektləri Media Reyestrinə daxil edilmiş jurnalistlərini dövlət orqanlarının (qurumlarının), müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının razılığı ilə və onların müəyyən etdiyi akkreditasiya qaydalarına əməl etməklə həmin qurumlarda akkreditasiyadan keçirə bilərlər.

72.2. Fərdi olaraq müəllif hüquqları əsasında fəaliyyət göstərən və Media Reyestrinə daxil edilmiş jurnalistlər dövlət orqanlarının (qurumlarının), müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının razılığı ilə və onların müəyyən etdiyi akkreditasiya qaydalarına əməl etməklə həmin qurumlarda akkreditasiyadan keçə bilərlər.

72.3. Dövlət orqanlarının (qurumlarının), müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının razılığı ilə və onların müəyyən etdiyi akkreditasiya qaydalarına əməl etməklə həmin qurumlarda akkreditasiya olunmuş jurnalistə, qapalı tədbirlər istisna olmaqla, iclas, müşavirə və başqa tədbirlər barədə qabaqcadan məlumat verilir, onun stenoqramlarla, protokollarla və başqa sənədlərlə tanış olması üçün şərait yaradılır.

*Ardı 7-ci səh.*

# Media haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 6-cı səh.*

72.4. Media subyekti və jurnalist tərəfindən akkreditasiyadan keçdiyi qurumun işgüzar nüfuzunu ləkələyən, yaxud təhrif olunmuş və ya həqiqətə uyğun olmayan məlumatlar yayılmışdırsa və bu məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq olunmuşdursa, yaxud onlar tərəfindən akkreditasiya qaydaları pozulmuşdursa, həmin qurum jurnalisti akkreditasiyadan məhrum edə bilər.

72.5. Media subyektinin jurnalist olmayan işçilərinin akkreditasiyası dövlət orqanlarının (qurumlarının), müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının müəyyən etdiyi akkreditasiya qaydalarına uyğun olaraq həmin qurumlar tərəfindən həyata keçirilir.

72.6. Hərbi və fövqəladə vəziyyət tətbiq edildiyi ərazidə (ərazilərdə), dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması zonasında və terror əleyhinə aparılan əməliyyat zonasında kütləvi informasiyanın axtarılması, əldə olunması, ötürülməsi, istehsalı və yayımı yalnız Media Reyestrinə daxil edilmiş media subyektləri və jurnalistlər, habelə fəaliyyətinə bu Qanunun 70.2-ci maddəsində nəzərdə tutulmuş qaydada razılıq verilmiş xarici jurnalistlər tərəfindən həyata keçirilə bilər.

### 8-ci fəsil
### Media Reyestri

**Maddə 73. Media Reyestri**

73.1. Azərbaycan Respublikasında media subyektlərinə, o cümlədən onların redaksiyalarına, habelə jurnalistlərə dair məlumatların sistemləşdirilməsi məqsədilə Media Reyestri yaradılır.

73.2. Media Reyestri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarə olunan elektron informasiya ehtiyatıdır və saxlanması Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

73.3. Media Reyestri aşağıdakı bölmələrdən ibarətdir:

73.3.1. audiovizual media subyektləri;

73.3.2. çap mediası subyektləri;

73.3.3. onlayn media subyektləri;

73.3.4. informasiya agentlikləri;

73.3.5. jurnalistlər.

73.4. Şura bu Qanunun 54.7-ci, 55.8-ci, 57.6-cı və 58.3-cü maddələrində nəzərdə tutulmuş hallarda audiovizual media subyekti barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

73.5. Çap mediası və ya onlayn media subyektləri, informasiya agentlikləri, həmçinin jurnalistlər Media Reyestrinə daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edirlər.

73.6. Media Reyestrinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

73.7. Media Reyestrinə aşağıdakı məlumatlar daxil edilir:

73.7.1. media subyektinin və (və ya) onun redaksiyasının (redaksiyalarının) adı, loqotipi (emblemi), hüquqi və faktiki ünvanı;

73.7.2. fiziki şəxs olan media subyekti, hüquqi şəxs olan media subyektinin təsisçisi (iştirakçısı), habelə media subyektinin təsisçisi olan hüquqi şəxsin birbaşa və dolayısı ilə iştirakçısı olan şəxslər haqqında bu Qanunla nəzərdə tutulmuş məlumatlar;

73.7.3. media subyektinin VÖEN-i;

73.7.4. media subyektinin idarəetmə orqanının rəhbərinin adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, əlaqə məlumatları;

73.7.5. məsul redaktorun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, əlaqə məlumatları;

73.7.6. media subyektində işləyən jurnalistlərin siyahısı (adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, əlaqə məlumatları);

73.7.7. çap mediası subyektinin dövriliyi və birdəfəlik tirajı, məzmunu haqqında məlumat;

73.7.8. onlayn media subyektinin domen adının sahibi haqqında məlumat;

73.7.9. media subyektinin və (və ya) onun redaksiyasının (redaksiyalarının) ərazi kateqoriyası;

73.7.10. audiovizual media subyektlərinin və (və ya) onların redaksiyasının (redaksiyalarının) janrı, yayım üsulu və növü;

73.7.11. audiovizual media subyektlərinin lisenziyası haqqında məlumatlar;

73.7.12. informasiya agentliklərinin digər media subyektləri ilə informasiya verilməsi (əldə edilməsi) haqqında bağladığı müqavilələr barədə məlumatlar;

73.7.13. jurnalistin adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi, əlaqə məlumatları;

73.7.14. verilmiş (o cümlədən olduğu halda əvvəllər verilmiş) jurnalist vəsiqəsi haqqında məlumat;

73.7.15. jurnalistin əmək və ya mülki hüquq müqaviləsi, əmək fəaliyyəti haqqında ümumi məlumat;

73.7.16. fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə işləyən jurnalistin VÖEN-i;

73.7.17. media subyektinin idarəetmə orqanının rəhbərinin, jurnalistin ali təhsili haqqında məlumat;

73.7.18. təsisçi (iştirakçı) fiziki şəxs olduqda, onun (onların), media subyektinin idarəetmə orqanının rəhbərinin və jurnalistin məhkumluğunun olub-olmaması haqqında məlumat.

73.8. Media Reyestrinə daxil edilmiş media subyektinə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiqlənmiş Media Reyestri şəhadətnaməsi verilir.

73.9. Media subyektlərinin və jurnalistlərin siyahısı istisna olmaqla, Media Reyestrinə daxil edilmiş digər məlumatlar ictimaiyyət üçün açıq deyildir.

**Maddə 74. Media Reyestrinə daxil edilmək üçün tələblər**

74.1. Media Reyestrinə media subyekti kimi daxil edilmək üçün müraciət edən şəxslər aşağıdakı tələblərə cavab verməlidir:

74.1.1. bu Qanunun 26.1-26.5-ci, 26.8-ci maddələrində nəzərdə tutulmuş tələblərə (bu Qanunun 69.2-ci maddəsi nəzərə alınmaqla) uyğun olmalıdır;

74.1.2. fəaliyyəti davamlı olmalıdır (müraciət tarixinə qədər media sahəsində fəaliyyət göstərməmiş media subyektləri istisna olmaqla);

74.1.3. fəaliyyəti bu Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə uyğun olmalıdır;

74.1.4. hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrində qeydiyyata alınmış olmalıdır;

74.1.5. fiziki şəxs olduqda, fərdi sahibkar kimi vergi uçotuna alınmış olmalıdır;

74.1.6. Media Reyestrində olan digər media subyektlərinin redaksiyalarının loqotipləri (emblemləri) ilə eyni və ya oxşar olmamalıdır.

74.2. Media Reyestrinə daxil edilmək üçün müraciət etmiş jurnalistlər aşağıdakı tələblərə cavab verməlidir:

74.2.1. ali təhsili olmalıdır;

74.2.2. fəaliyyət qabiliyyətli olmalıdır;

74.2.3. ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilməmiş olmalıdır;

74.2.4. məhkumluğu ödənilmiş və ya götürülmüş olmalıdır;

74.2.5. media subyekti ilə əmək müqaviləsi olmalıdır (fərdi olaraq müəllif hüquqları əsasında işləyən jurnalistlərin azı bir media subyekti ilə mülki hüquqi müqaviləsi olmalıdır);

74.2.6. işlədiyi media subyekti Media Reyestrinə daxil edilmiş olmalıdır;

74.2.7. işlədiyi media subyekti davamlı fəaliyyət göstərməlidir (müraciət tarixinə qədər fəaliyyət göstərməmiş media subyektləri istisna olmaqla);

74.2.8. jurnalistlərin fəaliyyəti bu Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə uyğun olmalıdır;

74.2.9. işlədiyi çap mediası subyektinin fəaliyyətində yaranmış fasilə bu Qanunun 59.7-ci maddəsində nəzərdə tutulmuş müddətdən artıq olmamalıdır;

74.2.10. jurnalistika sahəsi üzrə 3 (üç) ildən az olmayaraq iş stajı olmalı və ya elmi və pedaqoji təhsil müəssisələrində jurnalistika sahəsində 3 (üç) ildən az olmayan müddətdə fəaliyyət göstərməlidir;

74.2.11. jurnalist kimi fəaliyyət göstərdiyi müddət ərzində peşə etikası (etik davranış) qaydalarına riayət etməlidir;

74.2.12. fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə işləyən jurnalist fərdi sahibkar kimi vergi uçotuna alınmış olmalıdır.

74.3. Media Reyestrinə daxil edilmək üçün müraciət etmiş şəxslər bu Qanunun 74.1-ci maddəsinin, jurnalistlər isə bu Qanunun 74.2-ci maddəsinin tələblərinə cavab vermədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən onların Media Reyestrinə daxil edilməsindən imtina edilir.

74.4. Bu Qanunun 54.7-ci və 55.8-ci maddələrinə uyğun olaraq təqdim olunmuş məlumatlar əsasında audiovizual media subyektləri birbaşa Media Reyestrinə daxil edilirlər.

**Maddə 75. Media Reyestrindən çıxarılma**

75.1. Media Reyestrinə daxil edilmiş media subyektləri aşağıdakı hallarda Media Reyestrindən çıxarılır:

75.1.1. media subyektinin ərizəsi olduqda;

75.1.2. hüquqi şəxs olan media subyekti ləğv edildikdə;

75.1.3. məhkəmənin qərarı ilə media subyektinin fəaliyyətinə xitam verildikdə;

75.1.4. fiziki şəxs olan media subyekti öldükdə və ya qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə ölmüş və ya itkin düşmüş elan edildikdə;

75.1.5. bu Qanunun 26.1-26.5-ci (bu Qanunun 69.2-ci maddəsi nəzərə alınmaqla) və 74.1.5-ci maddələrinin tələblərinə cavab vermədiyi aşkar edildikdə;

75.1.6. çap mediası subyekti tərəfindən bu Qanunun 59.7-ci maddəsinin, onlayn media subyekti (redaksiyaları) tərəfindən isə bu Qanunun 60.5-ci maddəsinin tələbləri pozulduqda;

75.1.7. Media Reyestrinə daxil edilmiş çap mediası və ya onlayn media subyektinin reyestr məlumatlarında dəyişiklik edildikdə, dəyişiklik baş verdiyi tarixdən 14 (on dörd) iş günü ərzində bu məlumatlar müvafiq təsdiqedici sənədlərlə birlikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilmədikdə;

75.1.8. audiovizual media subyektinin lisenziyası ləğv edildikdə.

75.2. Media subyekti Media Reyestrindən çıxarıldıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) veb-saytında bu barədə məlumat yerləşdirilir.

75.3. Media Reyestrinə daxil edilmiş jurnalistlər aşağıdakı hallarda Media Reyestrindən çıxarılır:

75.3.1. jurnalistin ərizəsi olduqda;

75.3.2. bu Qanunun 74.2-ci maddəsinin tələblərinə cavab vermədiyi aşkar edildikdə;

75.3.3. ağır və xüsusilə ağır cinayətlərə görə məsuliyyətə cəlb edildikdə;

75.3.4. öldükdə və ya qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə ölmüş və ya itkin düşmüş elan edildikdə;

75.3.5. yayımladığı informasiyanın bu Qanunun 14-cü maddəsinin tələblərinə cavab verməməsi halları il ərzində 3 (üç) dəfə aşkar edildikdə;

75.3.6. işlədiyi media subyekti, yaxud fərdi olaraq müəllif hüquqları əsasında işlədiyi yeganə media subyekti Media Reyestrindən çıxarıldıqda;

75.3.7. fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə işləyən jurnalist vergi uçotundan çıxarıldıqda və ya sahibkarlıq fəaliyyəti dayandırıldıqda.

75.4. Jurnalist Media Reyestrindən çıxarıldıqda onun jurnalist vəsiqəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ləğv edilir və bu barədə onun veb-saytında məlumat yerləşdirilir.

75.5. Bu Qanunun 58.3-cü maddəsinə uyğun olaraq təqdim olunmuş məlumatlar əsasında audiovizual media subyektləri birbaşa Media Reyestrindən çıxarılır.

**Maddə 76. Media sahəsində fəaliyyət göstərən şəxslər üçün güzəştlər və imtiyazlar**

76.1. Media Reyestrinə daxil edilmiş şəxslər üçün aşağıdakı güzəşt və imtiyazlar müəyyənləşdirilə bilər:

76.1.1. media subyektlərinə dövlət orqanları (qurumları) tərəfindən rəsmi elan və sosial reklamların sifarişi;

76.1.2. media subyektlərinin işçilərinin və jurnalistlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirakı;

76.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlər üzrə layihələrdə iştirakı;

76.1.4. maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə;

76.1.5. sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanma.

### 9-cu fəsil
### Yekun müddəalar

**Maddə 77. Bu Qanunun pozulmasına görə məsuliyyət**

77.1. Bu Qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

77.2. Mediada yayılmış həqiqətə uyğun olmayan məlumata görə redaksiya, eləcə də jurnalist aşağıdakı hallarda məsuliyyət daşımır:

77.2.1. həmin məlumat dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxsləri və ya onların mətbuat xidmətləri tərəfindən rəsmi yayılmışdırsa;

77.2.2. həmin məlumat informasiya agentliklərindən və ya idarə, müəssisə, təşkilat, siyasi partiya və qeyri-hökumət təşkilatlarının mətbuat xidmətləri tərəfindən yayılmışdırsa;

77.2.3. həmin məlumat Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının, dövlət orqanlarının (qurumlarının), bələdiyyələrin, idarə, müəssisə, təşkilat və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, habelə vəzifəli şəxslərin rəsmi çıxışlarında olduğu kimi təkrar edilmişdirsə;

77.2.4. həmin məlumat canlı yayımla efirə gedən çıxışlarda səsləndirilmişdirsə.

**Maddə 78. Keçid müddəalar**

78.1. Bu Qanun qüvvəyə mindiyi tarixdən 6 (altı) ay ərzində bu Qanunun 52.2-ci maddəsində nəzərdə tutulmuş sənədlər kağız və ya elektron formada təqdim edildikdən sonra Şura tərəfindən bu Qanun qüvvəyə minənədək fəaliyyət göstərən teleradio yayımı sahəsində lisenziya sahiblərinə aşağıdakı lisenziyalar ödənişsiz əsaslarla verilir:

78.1.1. ümumölkə televiziya və radio yayımçılarına - ümumölkə yerüstü televiziya yayımçısı və ümumölkə yerüstü radio yayımçısı lisenziyası;

78.1.2. regional televiziya və radio yayımçılarına - regional yerüstü televiziya yayımçısı və regional yerüstü radio yayımçısı lisenziyası;

78.1.3. kabel yayımçılarına istifadə etdikləri yayım üsullarından (kabel, İPTV, OTT, mobil TV və peyklə kodlanmış yayım siqnalları) asılı olaraq - sadə platforma operatoru lisenziyası və universal platforma operatoru lisenziyası;

78.1.4. radiotezliklərdən istifadə etməklə fəaliyyət göstərən kabel yayımçılarına - multipleks operatoru lisenziyası;

78.1.5. peyk yayımçılarına - peyk yayımı həyata keçirən platforma yayımçısı lisenziyası.

78.2. Azərbaycan Respublikasında rəqəmsal radio yayımına tam keçid təmin olunanadək fəaliyyət göstərən ümumölkə və regional radio yayımçıları infrastruktur və ya multipleks operatorunun retranslyasiya funksiyasını həyata keçirə bilərlər.

78.3. Bu Qanun qüvvəyə minənədək fəaliyyət göstərən çap mediası və onlayn media subyektləri bu Qanunda nəzərdə tutulmuş Media Reyestri formalaşdığı tarixdən 6 (altı) ay müddətində bu Qanunun 73.6-cı maddəsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət etməlidir.

78.4. Bu Qanunun 48.3-cü maddəsi Şuranın bu Qanun qüvvəyə mindikdən sonra təyin edilmiş üzvlərinə şamil olunur.

78.5. Bu Qanunun 26.3.1-ci və 74.2.3-cü maddələri bu Qanun qüvvəyə mindikdən sonra yaranan hallara şamil olunur.

78.6. Bu Qanun qüvvəyə mindiyi gündən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 82; 2001, № 12, maddə 736; 2002, № 3, maddə 116, № 5, maddə 245; 2004, № 2, maddələr 57, 58; 2005, № 4, maddə 278; 2007, № 8, maddə 752, № 11, maddə 1079; 2009, № 4, maddə 212, № 8, maddə 611; 2010, № 3, maddə 172; 2015, № 2, maddə 82, № 11, maddələr 1258, 1292; 2016, № 1, maddə 40, № 5, maddə 837, № 12, maddə 1986; 2017, № 12 (I kitab), maddə 2254; 2018, № 1, maddə 16, № 5, maddə 891, № 6, maddə 1166; 2019, № 3, maddə 376, № 12, maddə 1882; 2020, № 6, maddə 671) və "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 583; 2004, № 1, maddə 10; 2005, № 4, maddə 278, № 6, maddə 469; 2006, № 11, maddə 932, № 12, maddə 1005; 2007, № 6, maddə 560, № 8, maddə 749, № 11, maddə 1053; 2009, № 6, maddə 394; 2010, № 7, maddə 600; 2011, № 2, maddə 70; 2015, № 4, maddə 354; 2016, № 12, maddə 1987; 2018, № 2, maddə 153, № 6, maddə 1167, № 12 (I kitab), maddə 2477; 2019, № 12, maddə 1882; 2020, № 6, maddələr 671, 673) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. iki ay müddətində:

1.1.1. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin və Azərbaycan Respublikası Audiovizual Şurasının (bundan sonra - Şura) yaradılması ilə əlaqədar normativ hüquqi aktların uyğunlaşdırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. "Media haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə inzibati məsuliyyəti müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində:

1.2.1. həmin Qanunun 30.1-ci və 59.2-ci maddələrində nəzərdə tutulmuş siyahıya dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2.2. həmin Qanunun 73.6-cı maddəsinə uyğun olaraq, Media Reyestrinin aparılması qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2.3. həmin Qanunun 29.4-cü və 33.5-ci maddələrində nəzərdə tutulmuş xidmət haqlarının məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2.4. həmin Qanunun 70.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, jurnalist vəsiqəsinin formasını, onun verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləğini və həmin vəsaitdən istifadə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2.5. həmin Qanunun 73.8-ci maddəsinə uyğun olaraq, Media Reyestri şəhadətnaməsinin formasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Şuranın inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı məsələlərini bir ay müddətində həll etsin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.18-ci, 1.1.19-cu, 5.6-cı, 10.1-ci, 10.2-ci, 11.3-cü, 12.2-ci maddələrində, 12.5-ci maddəsinin ikinci cümləsində, 12.6-cı maddəsində, 16.3-cü maddəsinin ikinci cümləsində, 17.5-ci, 26.7-ci, 29.4-cü, 30.1-ci, 33.5-ci maddələrində, 35.1-ci və 35.2-ci maddələrinin birinci cümlələrində, 38.4-cü, 41.4-cü maddələrində, 42.1-ci maddəsinin ikinci cümləsində, 45.2-ci, 47.1.8-ci, 47.1.9-cu, 48.2-ci maddələrində, 54.5-ci və 54.6-cı maddələrinin birinci və ikinci cümlələrində, 54.7-ci, 55.8-ci, 57.6-cı, 57.7-ci, 58.3-cü, 58.6-cı, 59.2-ci, 62.2-ci, 62.4-cü, 65.2-ci, 65.2.3-cü, 65.4-cü, 65.4.4-cü maddələrində, 70.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 70.2-ci maddəsinin ikinci və üçüncü cümlələrində, 70.3-cü maddəsinin ikinci cümləsində, 70.5-ci, 70.6-cı, 73.2-ci, 73.4-cü, 73.5-ci, 73.6-cı, 73.8-ci, 74.3-cü, 75.1.7-ci, 75.2-ci, 75.4-cü, 76.1.2-ci, 76.1.3-cü və 78.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 30.1-ci maddəsində, 42.1-ci maddəsinin ikinci cümləsində, 45.2-ci, 48.2-ci, 59.2-ci və 73.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 29.4-cü, 33.5-ci maddələrində, 70.1-ci maddəsinin ikinci cümləsində və 73.8-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 11.3-cü maddəsində və 70.2-ci maddəsinin ikinci və üçüncü cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 5.6-cı, 10.1-ci, 10.2-ci, 12.2-ci maddələrində, 12.5-ci maddəsinin ikinci cümləsində, 12.6-cı maddəsində, 16.3-cü maddəsinin ikinci cümləsində, 17.5-ci, 26.7-ci, 54.7-ci, 55.8-ci, 57.6-cı, 58.3-cü, 62.2-ci, 65.2-ci, 65.2.3-cü, 65.4-cü, 65.4.4-cü maddələrində, 70.1-ci maddəsinin birinci cümləsində, 70.3-cü maddəsinin ikinci cümləsində, 70.5-ci, 70.6-cı, 73.2-ci, 73.4-cü, 73.5-ci, 74.3-cü, 75.1.7-ci, 75.2-ci, 75.4-cü, 76.1.2-ci, 76.1.3-cü və 78.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 41.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.7. həmin Qanunun 1.1.18-ci, 38.4-cü, 47.1.9-cu maddələrində, 54.5-ci maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Qanunun 1.1.19-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Radio Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.9. həmin Qanunun 35.1-ci və 35.2-ci maddələrinin birinci cümlələrində, 47.1.8-ci maddəsində, 54.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 57.7-ci və 58.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Qanunun 62.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi:

3.1. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci maddəsinə uyğun olaraq, Media Reyestrinin yaradılmasını Azərbaycan Respublikasının 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" nəzərə alınmaqla altı ay müddətində təmin etsin və həmin bazanın Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə zəruri tədbirlər görsün;

3.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

4. Müəyyən edilsin ki:

4.1. Şura Milli Televiziya və Radio Şurasının hüquqi varisidir, onun öhdəlikləri və əmlakı Şuraya keçir;

4.2. Milli Televiziya və Radio Şurasının səlahiyyət müddəti bitməmiş üzvləri həmin müddət bitənədək fəaliyyətlərini davam etdirirlər;

4.3. Şuranın strukturu və işçilərinin say həddi təsdiq edilənədək Milli Televiziya və Radio Şurasının Aparatı fəaliyyətini davam etdirir.

5. Şura:

5.1. Şuranın strukturunun layihəsini və işçilərinin say həddinə (Milli Televiziya və Radio Şurası Aparatının işçilərinin say həddindən az olmayaraq) dair təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. bu Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 19, № 3, maddə 231, № 10, maddə 1112) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.18-1-ci, 3.1.19-1-ci, 3.1.19-2-ci, 3.1.22-1-3.1.22-3-cü, 3.1.25-1-3.1.25-3-cü və 3.2.5-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.18-1. Azərbaycan Respublikasından kənarda yerləşən media subyektlərinin fəaliyyətində "Media haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları aşkar edildikdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və "Media haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tədbirləri həyata keçirmək;";

"3.1.19-1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmadıqda, redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici çap mediası məhsulunun Azərbaycan Respublikasının ərazisində yayılması ilə bağlı məsələləri həll etmək;

3.1.19-2. "Media haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda çap mediası və onlayn media subyektlərinə xəbərdarlıq etmək, habelə onların fəaliyyətinin və media məhsullarının yayımlanmasının dayandırılması, eləcə də həmin subyektlərin fəaliyyətinə xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırmaq;";

"3.1.22-1. Media Reyestrini formalaşdırmaq, aparmaq, idarə etmək, ondan istifadə edilməsinə və məlumatların mühafizəsinə nəzarət etmək;

3.1.22-2. Media Reyestrinə daxil edilmiş çap mediasının və onlayn medianın redaksiyasının loqotipinin (embleminin) dəyişdirilməsinə razılıq vermək;

3.1.22-3. Media Reyestrinə daxil edilmiş media subyektlərinə Media Reyestri şəhadətnaməsi, jurnalistlərə isə jurnalist vəsiqəsi vermək;";

"3.1.25-1. əhəmiyyətli tədbirlərlə bağlı siyahını hər il növbəti il üçün elan etmək, bu siyahını özünün rəsmi internet saytında yerləşdirmək və onun müntəzəm olaraq yenilənməsini təmin etmək;

3.1.25-2. media subyekti Media Reyestrindən çıxarıldıqda özünün rəsmi internet saytında bu barədə məlumat yerləşdirmək;

3.1.25-3. jurnalist Media Reyestrindən çıxarıldıqda onun jurnalist vəsiqəsini ləğv etmək və bu barədə özünün rəsmi internet saytında məlumat yerləşdirmək;";

"3.2.5-1. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 70.3-cü, 70.5-ci və 70.6-cı maddələrində nəzərdə tutulmuş hallarda jurnalist vəsiqəsinin təhvil verilməsini tələb etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2022-ci il*

# Möhtəşəm minilliklərin şanlı 98 ili



**Muxtar respublikanın yüksəlişi Heydər Əliyev ideyalarının təntənəsi, İlham Əliyevin inkişaf kursunun təcəssümüdür**

*Əvvəli 1-ci səh.*

Bu qədim Azərbaycan diyarı ölkəmizin sosial-iqtisadi, siyasi və mədəni həyatında hər zaman əhəmiyyətli rol oynayıb. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına da dəyərli töhfələr vermişdir. Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş Naxçıvan şəhəri əsası Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbi ilə bütün Şərqdə məşhurlaşmışdır.

Ulu Öndər Heydər Əliyev Naxçıvan MR-in təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında bu barədə deyib: "Naxçıvan qədim zamanlardan Azərbaycanın ən mötəbər bölgələrindən biri olubdur. Azərbaycana, o cümlədən Naxçıvana əsrlər boyu dəfələrlə yadellilərin basqını olmuşdur, müharibələr, döyüşlər zamanı insanlar qırılmışdır. Naxçıvan dəfələrlə tamamilə məhv olub külə dönmüş, amma insanlar yenə də bu külün içindən qalxıb Naxçıvanı yaşatmışlar.

Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir. XII əsrdə Naxçıvan Azərbaycanın Atabəylər, Eldəgizlər dövlətinin, o əsrdə Azərbaycanın ən böyük, ən qüdrətli dövlətinin paytaxtı olubdur. Atabəylər dövləti 100 ildən artıq hökm sürmüş və onun paytaxtı azərbaycançılığı qoruyub saxlamışdır.

Azərbaycanın zəngin tarixinin bu günə qədər gəlib çatmış çox parlaq nümunələri vardır. Azərbaycanda aparılan arxeoloji tədqiqatlar bir neçə əsr bundan öncə Azərbaycanın nə qədər zəngin mədəniyyətə malik olduğunu və nə qədər dolğun həyat yaşadığını əyani surətdə göstərir".

Naxçıvanda bu günədək qorunub saxlanılan arxeoloji abidələr, qədim karvansaralar, məscid və məbədlər, həmçinin mədəni irsimizin inciləri sırasına daxil olan Möminəxatun, Nuh Peyğəmbər, Qarabağlar türbələri, "Əshabi-Kəhf" ziyarətgahı, Əlincəçay Xanəgahı öz möhtəşəmliyi ilə seçilir. Zəngin ədəbi ənənələrə malik olan Naxçıvan Azərbaycana dünya ədəbiyyatının görkəmli nümayəndələri olan Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə kimi şəxsiyyətləri bəxş edib.

Tarix boyu siyasi və hərbi mübarizələr meydanına çevrilsə də, məkrli planlara təslim olmayan, Azərbaycanın ayrılmaz ərazisi kimi qorunan Naxçıvanın muxtariyyəti asan yolla qazanılmayıb. "Böyük Ermənistan" xülyasında olan erməni şovinistlərinin hədəflərindən biri daim Naxçıvan olub. XIX əsrdən başlayaraq İrəvan və Qarabağla yanaşı, erməni silahlı quldur dəstələri Naxçıvanda da azərbaycanlı əhaliyə qarşı soyqırımı cinayətləri törədib, azərbaycanlı əhalinin sayını süni surətdə azaltmaq üçün hər cür vasitəyə əl atıblar.

1918-ci il mayın 26-28-də Gürcüstan, Azərbaycan və Ermənistan öz müstəqilliklərini elan etdikdən sonra Ermənistanın daşnak hökuməti Naxçıvanı özünə ilhaq etmək siyasəti yeritməyə, dinc azərbaycanlı əhaliyə divan tutmağa başladı. Ermənilər Naxçıvanı Azərbaycandan qoparmaq cəhdlərini davam etdirsələr də, yerli əhalinin inadlı müqaviməti və türk əsgərlərinin bölgəyə daxil olması ermənilərin bu məkrli niyyətlərinin həyata keçirilməsinə imkan vermədi.

1920-ci il aprelin 28-də Bakıda, iyulun 28-də isə Naxçıvanda sovet hakimiyyətinin elan edilməsi və Azərbaycan SSR-in yaradılması, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın Azərbaycandan ayrı düşməsi bu qədim diyarımızın muxtariyyəti məsələsini gündəliyə gətirdi. Çünki Ermənistandakı sovet hakimiyyəti də Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərirdi.

Lakin Ermənistan niyyətinə çatmadı. Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu almasında Türkiyənin də böyük rolu oldu. 1921-ci il 16 martda Moskva, 1921-ci il 13 oktyabrda isə imzalanmış Qars müqavilələri Naxçıvanın taleyinin həll edilməsində böyük əhəmiyyətə malik oldu. Naxçıvanın statusunun ilk beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir.

Qars müqaviləsində Naxçıvan Muxtar Respublikasına hər hansı bir başqa dövlət tərəfindən müdaxilə edilərsə, Türkiyə Cümhuriyyətinin onu himayə etməsinə dair xüsusi bir müddəanın daxil edilməsi bu anlaşmanın tarixi-siyasi əhəmiyyətini daha da qüvvətləndirmişdir. Bütün bunlara görə 1921-ci ilin Qars müqaviləsi Azərbaycanın cənub-qərb sərhədlərində ərazi bütövlüyünün qorunub saxlanması və Naxçıvana muxtariyyət verilməsi baxımından böyük tarixi əhəmiyyətə malik olan siyasi hadisədir. Qars müqaviləsi ilə Ermənistanın Şərqi Anadoluda və Naxçıvanda ərazi iddialarına son qoyulmuş, Zaqafqaziya respublikaları arasında Ermənistanın yaratdığı gərginlik, separatçılıq fəaliyyəti dayandırılmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Qars şəhərində imzalanmış beynəlxalq statusa malik müqaviləyə yüksək qiymət vermiş, Qars müqaviləsinin müddəalarına əsasən, Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsini tarixi nailiyyət adlandırmışdır. Hətta XX əsrin sonlarına yaxın Ermənistan tərəfi yenidən Naxçıvan Muxtar Respublikasına hərbi təcavüz edərkən və ərazi iddiaları irəli sürərkən görkəmli dövlət xadimi Heydər Əliyev 24 mart 1992-ci il tarixdə Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə Ankaradakı tarixi görüşü zamanı Qars müqaviləsinin müddəalarını yada salmaqla beynəlxalq ictimaiyyəti mövcud reallıq haqqında məlumatlandırmış, Ermənistan tərəfini bir daha susmağa məcbur etmişdir.

1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Diyarı Naxçıvan Muxtar Respublikasına çevrildi. Azərbaycanın üzvi bir parçası kimi Naxçıvan Muxtar Respublikasının yaranması ilə Ermənistanın bu qədim Azərbaycan torpağı haqqındakı iddialarının qarşısına dəmir sədd çəkilmişdi. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi.







## Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan inkişaf

Sovet hakimiyyəti illərində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində şərəfli və məsuliyyətli bir yol keçmişdir. Bütün təqiblərə və ideoloji təzyiqlərə baxmayaraq, Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da savadsızlığın ləğv edilərək məcburi orta təhsilin həyata keçirilməsi, aqrar sahə ilə yanaşı, sənaye sektorunun formalaşdırılması, maarif və mədəniyyət sahələrində müəyyən dirçəlişə nail olunması sovet dövrünün mühüm nailiyyətlərindən hesab oluna bilər.

Bununla belə sovet hakimiyyəti illərində Naxçıvana qarşı əsassız ərazi iddiaları davam etdirilib. Belə ki, Moskva və Qars müqavilələri imzalanarkən təxminən 6 min kvadratkilometr ərazisi olan Naxçıvan Muxtar Respublikasının torpaqları əsassız ərazi iddiası irəli sürən Ermənistan tərəfindən Moskvadakı güclü erməni lobbisinin himayəsi ilə, qanunsuz şəkildə hissə-hissə ilhaq olunaraq 5,3 min kvadratkilometrə qədər azaldılıb.

Yalnız görkəmli dövlət xadimi Heydər Əliyev 14 iyul 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik etdikdən sonra ölkəmizin regionlarından torpaqların itirilməsi prosesi tam dayandırılmış, Naxçıvan Muxtar Respublikasının da başının üstündən duman çəkilmişdir.

Azərbaycanın ən yeni tarixinə Ulu Öndər Heydər Əliyev kimi müdrik və əvəzolunmaz dahi bəxş edən Naxçıvanın sovet hakimiyyəti dövründə inkişafı da Ulu Öndərin adı ilə bağlıdır. Təsadüfi deyil ki, sovet dövründə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər respublikanın, o cümlədən Naxçıvanın da həyatında yüksəliş dövrü kimi xatırlanır. 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə, xüsusən Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən xeyli geridə idi və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərarlaşırdı. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında Ümummilli Liderin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli birgə qərarının mühüm rolu oldu. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdi. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilmişdi.

1970-1980-ci illərin əvvəllərində Naxçıvanın sosial-iqtisadi, siyasi və mədəni həyatında olduqca böyük dirçəliş baş vermişdi. Eyni zamanda o dövrdə SSRİ və Azərbaycan SSR konstitusiyalarına uyğun olaraq, Naxçıvan MSSR-in də yeni Konstitusiyası (1978-ci il) qəbul edilmişdi.

"1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görülmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı", - deyə İlham Əliyev 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə bildirmişdi.





## Ulu Öndər Naxçıvanı qorudu, yüksəliş yoluna çıxardı

Muxtar respublikanın ən yeni tariximizin keşməkeşli dövrlərində də yüksəlişi və düşmən qarşısında qəhrəmancasına dayanması məhz Ulu Öndərin adı ilə bağlıdır.

XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistanın hakimiyyət dairələri yenidən Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını artıq müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəldilər. Naxçıvan çətin sınaqlar qarşısında qalmışdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan bir neçə saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasında qan tökdülər. Daha sonra erməni quldur dəstələri Naxçıvanın Kərki kəndini işğal etdilər. Muxtar respublikanın nəqliyyat-kommunikasiya xətləri ermənilər tərəfindən kəsiləndən, tam iqtisadi blokadaya alınandan sonra burada iqtisadi böhran daha da dərinləşmişdi.

Yalnız xalqımızın böyük oğlu Heydər Əliyevin 1990-cı ilin yayında Moskvadan Bakıya, oradan da Naxçıvana qayıdışı bu qədim Azərbaycan torpağının xilasının başlanğıcı oldu. Ulu Öndərin qətiyyəti və zəngin dövlətçilik təcrübəsi sayəsində erməni qəsbkarlarının Naxçıvanı işğal etmək planları puç oldu, muxtar respublika tarixin ən sərt sınaqlarından üzüağ, alnıaçıq çıxdı. Məhz Ulu Öndərin böyük səyləri nəticəsində muxtar respublikanın tarixində yeni dövrün əsası qoyuldu.

Heydər Əliyevin Naxçıvana gəlişi həm də Azərbaycanın müstəqil dövlətçiliyinin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. İlk dəfə olaraq məhz Ulu Öndərin qətiyyəti və prinsipiallığı sayəsində müstəqil respublikamızın üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi, eyni zamanda 31 Dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmiləşdirilməsi bu qədim diyarın dövlət müstəqilliyimizə ən layiqli töhfələridir. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Həmçinin muxtar respublikanın adından "Sovet", "Sosialist" sözləri çıxarıldı ki, bu da o dövrdə böyük cəsarət tələb edirdi. Bütün bunlar yalnız və yalnız Naxçıvan MR Ali Məclisinin sessiyasına sədrlik edən Heydər Əliyevin böyük siyasi iradəsinin, dönməz azərbaycançılıq idealının, qeyri-adi cəsarətinin və uzaqgörənliyinin sayəsində həyata keçirilmişdi. SSRİ adlanan dövlətin bütün müttəfiq qurumlarında demokratik islahatlar adı altında dağılma prosesi getsə də, o dövrə qədər sovetlər ittifaqının heç bir respublikasında Naxçıvanda atılan addımlara bənzər və ya yaxın bir hadisə baş verməmişdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1991-ci ilin sentyabr ayından etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləməsi sayəsində muxtar respublika erməni işğalından xilas edildi, burada müstəqil dövlətçilik üçün zəruri olan mühüm islahatlar qətiyyətlə həyata keçirildi. Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə təsərrüfat idarəetmə strukturları olan kolxoz və sovxozların ləğv edilməsi, torpaq islahatlarının həyata keçirilməsi, Türkiyə ilə sərhəddə Araz çayı üzərində "Ümid körpüsü"nün salınması, Yeni Azərbaycan Partiyasının yaradılması gənclərin Türkiyə Cümhuriyyətinin universitetlərində təhsil almaq üçün göndərilməsi və sair mühüm tədbirlər nəinki muxtar respublikada, ümumən Azərbaycan miqyasında yeni siyasi-iqtisadi və mədəni mühitin formalaşdırılması və inkişaf etdirilməsi baxımından əhəmiyyətli hadisələrə çevrildi.

Naxçıvanda Azərbaycan Ordusunun hərbi hissələrinin yaradılmasına ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə başlanıldı. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Müdafiə Komitəsi yaradıldı. Həmin dövr Heydər Əliyevin muxtar respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlərlə, blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla yanaşı, həm də müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin başlanğıcı oldu.

1992-ci ilin iyul-avqust aylarında Naxçıvan ərazisində yerləşən Rusiya silahlı qüvvələrinin 75-ci motoatıcı diviziyasının silah və texnikası, yaşayış binaları Müdafiə Komitəsinə təhvil verildi. Həmin ilin 15 sentyabrında isə Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradıldı. 1992-ci il oktyabrın 9-da Naxçıvanda ilk dəfə hərbi parad keçirildi.

Taleyin hökmü ilə ağır blokada şəraitində olan Naxçıvana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının İran və Türkiyə dövlətləri ilə əlaqələri yaradıldı, Naxçıvanın həyati tələbatlarını ödəmək, kommunikasiya əlaqələrini bərpa etmək üçün protokollar imzalandı. Muxtar respublikaya rəhbərlik etdiyi 1 il 9 ay ərzində Heydər Əliyevin əsasını qoyduğu xarici əlaqələr bölgəni labüd fəlakətdən xilas etdi.

1992-ci ildə çətin şəraitdə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması da Azərbaycanın gələcək taleyində xüsusi yeri olan ümumrespublika səviyyəli siyasi hadisə idi. Ozamankı hakimiyyət dairələrinin, AXC-Müsavat cütlüyünün manеçiliyini mətinliklə dəf edən Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyası qısa müddətdən sonra Azərbaycanda demokratik seçkilərlə hakimiyyətə gələrək xalqımızın və dövlətimizin gələcək inkişafına böyük töhfələr verdi. 1993-cü ildə xalqımızın təkidli istəyi ilə siyasi hakimiyyətə gələn Ulu Öndərin Naxçıvandan başlatdığı xilaskarlıq missiyası Azərbaycanın dövlət müstəqilliyini əbədi etdi.

## İqtisadi artım templərinə görə rekordsmen bölgə

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində Naxçıvan Muxtar Respublikası davamlı inkişaf və əmin-amanlıq yolu ilə inamla addımladı. Muxtar respublikanın inkişafının 2003-cü ildən sonrakı dövrü isə Ulu Öndər Heydər Əliyevin quruculuq xəttinin yaradıcı gücünün əyani ifadəsidir. Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da dinamik inkişaf yoluna qədəm qoyub. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası hətta ucqar dağ kəndlərinin də inkişafına səbəb olub.

Ümumiyyətlə, müstəqillik illərində muxtar respublikada bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunub, daxili imkanlardan səmərəli istifadə edilib, müdafiə, ərzaq və enerji təhlükəsizliyi təmin edilib, sosial layihələrin əhatə dairəsi genişləndirilib. Bu dövrdə muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 69 dəfə artıb. Ötən ilin may ayında Naxçıvana səfər edən Prezident İlham Əliyev muxtar respublikanı iqtisadi artımın templərinə görə rekordsmen bölgə adlandırıb: "Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb".

Bu illərdə sənaye məhsulunun həcmi 117 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 15 dəfə artıb. Muxtar respublikada 232 elm və təhsil ocağı, 362 mədəniyyət müəssisəsi, 251 səhiyyə, 29 idman obyekti, 352 inzibati bina, 61 nasos stansiyası, 328 subartezian quyusu, 109 körpü, 1346 istehsal və xidmət sahəsi tikilib, 3918,3 kilometr uzunluğunda avtomobil yolu yenidən qurulub.

Əvvəllər enerji qıtlığından əziyyət çəkən, ciddi problemlər məngənəsində sıxılıb qalan muxtar respublikanın ötən dövrdə əldə etdiyi ən böyük uğurlardan biri də enerji təhlükəsizliyinin təmin edilməsidir. Bir zamanlar enerjini idxal hesabına əldə edən Naxçıvan indi enerji ixracatçısına çevrilib. Enerji təchizatı üzrə 60 meqavat gücündə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su-elektrik stansiyası, 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 22 meqavat gücündə Biləv Su-Elektrik Stansiyası, 20,5 meqavat gücündə "Arpaçay-1" Su-Elektrik Stansiyası və 1,4 meqavat gücündə "Arpaçay-2" Su-Elektrik Stansiyası, 32 meqavatlıq günəş-elektrik stansiyaları, Culfa rayonunda 1,1 meqavat gücündə külək-günəş hibrid elektrik stansiyası istifadəyə verilmişdir. Əgər 2003-cü ilin sonuna muxtar respublikada 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, 2021-ci ildə bu göstərici 11-ə çatıbdır. Naxçıvanda elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir ki, bu da inkişaf etmiş ölkələr üçün çox nadir göstərici hesab edilir.

Enerji təhlükəsizliyinin təmin olunması muxtar respublikada sənayenin inkişafına zəmin yaradıb, müstəqillik illərində sənaye məhsulunun həcmi 117 dəfə artıb, yüzlərlə sənaye müəssisəsi istifadəyə verilib. Vaxtilə ümumi daxili məhsul istehsalında aqrar sahənin ağırlıq təşkil etdiyi muxtar respublika bu gün sənaye-aqrar regionuna çevrilib. Sənaye sahəsinin aparıcı mövqedə olduğu müasir iqtisadiyyatın qurulması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son illər ciddi uğurlar qazanılıb. Fəaliyyəti dayandırılmış sənaye müəssisələrinin fəaliyyətinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması nəticə etibarilə əvvəllər istehsal olunmayan yeni sənaye məhsullarının istehsalına və ümumilikdə, sənaye məhsulu istehsalının dinamik artımına səbəb olub. Bu sahənin inkişafının nəticəsidir ki, indi Naxçıvanda avtomobildən hər cür tikinti materialına, ərzaqdan geyimə qədər hər cür məhsul istehsal olunur.

Sənaye ilə yanaşı, aqrar sahənin inkişafı da diqqət mərkəzindədir. Suvarma suyuna olan tələbatın ödənilməsi, aqrolizinq xidmətinin yaradılması nəticəsində kənd təsərrüfatı texnikaları ilə təminatın yaxşılaşdırılması əkinçini torpaqdan ikiəlli yapışmağa sövq edib. Bunun nəticəsidir ki, əkin sahələri və məhsul istehsalı ilbəil artırılır. Ötən dövrdə kənd təsərrüfatı məhsullarının həcminin 15 dəfə artması ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verib. Aqrar sahəyə diqqət və qayğı sayəsində yüzlərlə ailə təsərrüfatları formalaşdırılmışdır ki, bu da özünüməşğulluğa mühüm töhfə verir.

Blokada vəziyyətində yaşayan Naxçıvanda əsas məsələlərdən biri də ərzaq təhlükəsizliyinin yerli imkanlar hesabına təmin olunmasıdır. Müxtəlif sahələr üzrə qəbul edilmiş dövlət proqramlarının icrası muxtar respublikada yerli istehsalın həcminin artmasına, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına geniş imkanlar yaradıb. Əvvəllər zəruri ərzaq və sənaye məhsullarına olan tələbatını tamamilə idxal hesabına ödəyən muxtar respublikada bu gün 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir və ixrac potensialı getdikcə artır.

Muxtar respublikada xüsusi mülkiyyətin, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həcminin ildən-ilə artırılması, bu sahədə fəaliyyətə süni müdaxilələrin aradan qaldırılması, bir sıra vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına öz təsirini göstərmişdir. Sahibkarlığın inkişafı sahəsində yaradılan şəraitin nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artmış, 1346 istehsal və xidmət sahəsi yaradılmışdır.

Naxçıvanda həyata keçirilən kompleks tədbirlər, sənaye və aqrar sahənin inkişafında müsbət nəticələrin əldə olunması, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, investisiya imkanlarının artması sürətli inkişaf tempinin qorunub-saxlanmasına, əhalinin rifahının yaxşılaşmasına və sosial problemlərin həllinə səbəb olub. Bütün sahələrdə əldə olunan nailiyyətlər əhalinin məşğulluğunu təmin edib, 98 min 775 iş yeri açılıb, əhalinin gəlirləri isə 61 dəfə artıb.

Dövlət başçısı kimi bölgəyə 15 dəfə səfər edən Prezident İlham Əliyev Naxçıvanda 100-dən artıq təhsil, səhiyyə, idman və mədəniyyət müəssisəsinin, istehsal sahəsi və hərbi təyinatlı obyektlərin açılışını edib. Ölkə rəhbərinin himayəsi, tapşırığı, tövsiyəsi ilə ərsəyə gələn obyektlərin sayı isə minlərlədir.

## Muxtar respublikanın inkişafında uğurlu il

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf göstəriciləri 2021-ci ildə də qazanılmış mühüm nailiyyətləri əks etdirir. Bu göstəricilər sadəcə rəqəmlər toplusu deyil, böyük zəhmətin, fədakarlığın, düzgün yolun ürəkaçan nəticələridir.

Ötən il ümumi daxili məhsul istehsalı 3 milyard 16 milyon 315 min manat, bir il öncəki göstəricidən 2,4 faiz çox olub. Hər bir nəfərə düşən ümumi daxili məhsul əvvəlki ilə nisbətən 3,4 faiz artaraq 6525 manat, orta aylıq əməkhaqqının məbləği isə 548,8 manat təşkil edib. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27 faizlə sənaye sahəsi tutur və maddi istehsalın payı 59 faizdir. Ötən il muxtar respublikada bir il öncəki göstəricini 1,7 faiz üstələyən həcmdə - 1 milyard 69 milyon 655 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunub. Bunda özəl bölmənin payı 92,3 faizdir. Sənayenin inkişafı məqsədilə təsərrüfat subyektlərinə 2021-ci ildə 11 milyon 276 min manat kredit verilib. 194 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, yaxud yaradılması davam etdirilib. İndi Naxçıvanda 384 növdə məhsul istehsal olunur.

2021-ci ildə muxtar respublikada sahibkarlara verilən 38 milyon manatdan artıq kreditin 13 milyon 875 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 24 milyon 161 min 100 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunub. 52 hüquqi və 2389 fiziki şəxs qeydiyyata alınıb. 2021-ci ildə bir il öncəyə nisbətən 5,3 faiz çox, yəni 573 milyon 380 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində 5 meqavat gücündə "Şərur" Günəş-Elektrik Stansiyasının və Culfa rayonunda 1,1 meqavat gücündə külək-günəş hibrid elektrik stansiyasının tikintisi başa çatdırılıb, Şərur rayonunda günəş-elektrik stansiyasının tikintisi davam etdirilir.

Təkcə 2021-ci ildə muxtar respublikada 355 sosial və inzibati obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, 149 obyektdə tikinti və yenidənqurma işləri davam etdirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib və ötən il əhalinin şəxsi vəsaiti hesabına 376 min 661 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

## Yüzillik daha böyük yüksəliş nümunələri ilə zəngin olacaq

İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda yeni siyasi və iqtisadi reallıqlar yaradıb. Müharibəyə qədər bölgənin aparıcı dövləti olan Azərbaycan ərazi bütövlüyünü təmin etdikdən sonra regiondakı lider statusunu daha da möhkəmləndirib. Eyni zamanda Ermənistanın hərbi-siyasi məğlubiyyətə düçar edilməsi ilə Prezident İlham Əliyev xalqımızın tarixi-milli maraqlarının reallaşmasına da zəmin formalaşdırıb.

Bunlardan biri də vaxtilə Azərbaycan torpaqları olmuş Zəngəzur bölgəsinin bütün türk dünyasını birləşdirən körpüyə çevrilməsi üçün yetişmiş tarixi şəraitin reallaşdırılmasıdır. 44 günlük İkinci Qarabağ müharibəsində Ermənistanın məğlubiyyətinin siyasi-hüquqi təsdiqi olan 10 noyabr bəyanatının bəndlərindən biri də bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin yaradılmasıdır.

Prezident İlham Əliyevin siyasi-diplomatik müdrikliyi nəticəsində Zəngəzur dəhlizi adını alan nəqliyyat körpüsünün yaradılmasına az qalıb. Ötən il may ayının 10-da Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına etdiyi sayca 15-ci səfərin əsas məqamlarından biri də Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində verilən mesaj olmuşdu. Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının yaradılması, Culfa-Ordubad magistral avtomobil yolu kimi nəqliyyat layihələri, Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri Naxçıvanın sosial-iqtisadi inkişafına xidmət etməklə yanaşı, muxtar respublikanın blokadadan çıxarılması və Zəngəzur dəhlizinin yaradılması istiqamətində atılan addımların bir hissəsidir.

*Bu gün blokada şəraitində yaşayan muxtar respublikada əldə olunmuş inkişaf Prezident İlham Əliyevin siyasi kursunun təcəssümü, Heydər Əliyev ideyalarının təntənəsidir. Əminik ki, Naxçıvan uğurlarının miqyasını daha da artıracaq və muxtariyyətin 100 illiyini daha böyük yüksəliş nümunələri ilə qeyd edəcəyik.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Ermənistan ərazisində Azərbaycan mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi ilə bağlı tədbir keçirilib

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə Ermənistan ərazisində Azərbaycan irsinin vəziyyətinin qiymətləndirilməsi ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü İlqar Orucov tədbiri açaraq 33 ildir tarixi yaşayış yerlərini tərk etmək məcburiyyətində qalan azərbaycanlıların Ermənistanda yaratdıqları mədəni irsinin məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını bildirib. Deyib ki, bu müddətdə min illər ərzində formalaşmış mədəni irsin vəziyyətinin qiymətləndirilməsi aparılmayıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun misilsiz Zəfərindən sonra işğaldan azad edilən ərazilərimizdə rast gəlinən vəziyyət onu göstərir ki, bu gün Ermənistanda yer üzündən silinmək təhlükəsi ilə qarşı-qarşıya qalan maddi-mənəvi abidələrimizin taleyi ilə ciddi məşğul olmalıyıq.

Milli Məclisin deputatı, Toponimiya komissiyasının üzvü, "Azərbaycan Qaçqınlar Cəmiyyəti və Qərbi Azərbaycan" İcmasının sədri Əziz Ələkbərov vurğulayıb ki, Ermənistanda qalan mədəni irsimizin erməniləşdirilməsinə, bu mümkün olmadıqda isə onların məhv edilməsinə çalışılıb. Bildirilib ki, beynəlxalq təşkilatların yardımı ilə izi itirilməyə cəhd edilən tarixi abidələrimiz üçün SOS siqnalının ardıcıl verilməsi üçün qeyri-hökumət təşkilatları daha məhsuldar işləməlidirlər. "Bugünkü Ermənistanda azərbaycanlılarla bağlı bütün mədəniyyət abidələrinin demək olar tam məhv edilməsinin nəticəsidir ki, Ermənistanda yerləşən Göy məscid özününküləşdirilmiş, Qala məscidi, Şah Abbas, Təpəbaşı, Zal Xan, Dəmirbulaq və yüzlərlə oxşar mədəni abidəmiz dağıdılıb", - deyən icma sədri fikrini bu cür davam etdirib: "Oxşar taleni Ermənistandakı Azərbaycan toponimləri də yaşayıb. Bunun nəticəsidir ki, bu ölkədəki oykonimlər barbarcasına məhv edilib. Təkcə Azərbaycanda deyil, Cənubi Qafqazda və qonşu regionlarda, aşıq sənətinin klassiklərindən biri olan Aşıq Ələsgərin doğulduğu Göyçə mahalındakı Ağbulaq kəndində vaxtilə onun xatirəsinə ucaldılan abidə yer üzündən silinib.

"Qarabağa dönüş" İctimai Birliyinin sədri, Milli Məclisin deputatı Tural Gəncəliyev erməni millətçiliyinin bu sahədə kifayət qədər "təcrübəsi"nin olduğunu, bunun bariz nümunəsi kimi işğaldan azad olunan ərazilərimizdə divan tutulmuş maddi-mədəni abidələrimizin taleyini nümunə kimi göstərib. İctimai birliyin sədri özünün doğulduğu, erməni separatizminin başladığı müharibə nəticəsində 28 ildən çox işğal altında qalmış Şuşa şəhərində Üzeyir Hacıbəyli, Xan qızı Natəvan, Bülbül və digər ədəbiyyat və mədəniyyət nümayəndələri ilə bağlı abidə və muzeylərin darmadağın edildiyini xatırladaraq, beynəlxalq ictimaiyyəti Ermənistandakı mədəniyyət abidələrinin taleyinə biganə qalmamaq üçün görülən tədbirləri intensivləşdirməyə çağırıb.

Tarix elmləri üzrə fəlsəfə doktoru, "Tarix və mətbuat araşdırmalarına dəstək" İctimai Birliyinin sədri Nəsiman Yaqublu beynəlxalq təşkilatların diqqətini Ermənistan dövlətində vandalizm subyektinə çevrilən mədəniyyət abidələrimizə yönəltməklə bərabər, həmin abidələrin pasportlaşdırılması işinin aparılmasını vacib hesab edib.

Sonra çıxış edən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni Ermənistanda milli mədəniyyət abidələrimizə qarşı dövlət siyasətini 1949-cu il Cenevrə Konvensiyasının, UNESCO-nun 1954-cü və 1970-ci illər konvensiyalarının kobud şəkildə pozulması adlandıraraq aidiyyəti beynəlxalq qurumları bu pozuntuların dayandırılmasına, oradakı mədəniyyət nümunələrinin vəziyyətinin qiymətləndirilməsi işinə cəlb olunması istiqamətində ardıcıl fəaliyyətə çağırıb.

"Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Faiq İsmayılov BMT Təhlükəsizlik Şurasının 2017-ci ildə qəbul etdiyi 2347 saylı tarixi qətnaməsini xatırladaraq, sivil dünyada mədəni irsin qəsdən dağıdılmasının sülh və təhlükəsizlik məsələsi olduğunu xatırladaraq heç bir nüfuzlu beynəlxalq təşkilatın bu işə seyrçi qalmağa haqqının olmadığını bəyan edib.

Tədbirin sonunda iştirakçılar adından UNESCO-nun baş katibi Odri Azuleyə müraciət ünvanlanıb.

# Azərbaycan ilə Pakistan arasında tarixin sınaqlarından keçmiş siyasi, mənəvi bağlılıq mövcuddur

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə fevralın 8-də Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə görüşüb.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla Pakistan arasında tarixi dostluq, qardaşlıq münasibətləri zəminində inkişaf edən və dərinləşən dini-mənəvi əlaqələrdən söhbət açılıb. Bildirilib ki, qardaş ölkələrimiz arasında tarixin sınaqlarından keçmiş siyasi, mənəvi bağlılıq hər zaman bir-birimizin yanında olmağımıza dəlalət edib. Xüsusilə Vətən müharibəsi dövründə Pakistanın mənəvi dəstək və yardımı Azərbaycan xalqının ədalətli mübarizəsinin qələbəsinə öz töhfəsini verdi. İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq müstəvilərdə hər zaman eyni mövqelərdən çıxış edən Azərbaycan-Pakistan dostluğu və qardaşlığı əsl İslam həmrəyliyi nümunəsi olaraq dünya üçün örnəkdir.

Şeyxülislam Allahşükür Paşazadə 40 ildən artıq dini liderliyi dövründə dəfələrlə Pakistanı ziyarət etdiyini, orada çox sayda din, ictimai, siyasi xadimlərlə yaxından tanış olduğunu, beynəlxalq müstəvilərdə birgə tədbirlərdə iştirak etdiyini, Pakistan xalqına və dövlətinə böyük ehtiramı olduğunu ifadə edib. Bu baxımdan bir sıra önəmli məqamları xatırladan QMİ sədri istər sovetlər dönəmində, istər 20 Yanvar hadisələri zamanı, istərsə də Azərbaycanın İslam Konfransı Təşkilatına (İƏT) üzv qəbul olunması zamanı Pakistan dövlətinin qardaş dəstəyinin şəxsən şahidi olduğuna dair xatirələrini bölüşüb.

Pakistan səfiri şeyxülislamla görüşdən olduqca məmnun olduğunu, uzun müddət pandemiya səbəbindən görüşünün təxirə salındığını qeyd edib və nəhayət baş tutmasına görə şərəf duyduğunu bildirib. Səfir İslam dünyasının tərəqqisində Azərbaycanın özəl rolunun olduğunu, multikulturalizm modelinin dünya üçün nümunə səciyyəsi daşıdığını rəğbətlə vurğulayıb. Azərbaycanla Pakistan münasibətlərinin rəsmi xarakterdən daha çox millətlərimiz arasında qəlbən bağlılıq üzərində təşəkkül tapmış əlaqələr olduğunu qeyd edən səfir Azərbaycan xalqının Vətən müharibəsində qazandığı tarixi Zəfərin bütün İslam dünyası üçün qələbə, bütün işğal altında olan xalqlara müsbət nümunə olduğunu qürurla vurğulayıb.

Səfirə Qafqaz Müsəlmanları İdarəsi nəzdində fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Dialoq Mərkəzi barədə məlumat verən şeyxülislam Allahşükür Paşazadə bu mərkəz xətti ilə bu günədək Avstriya, İspaniya, Almaniya, Rusiya, Türkiyə, İran, Özbəkistan və digər ölkələrdə keçirilmiş beynəlxalq konfranslar, habelə bu yaxınlarda Vatikana səfəri barədə səfirə ətraflı məlumat verib. QMİ sədri bildirib ki, gələcəkdə bu müstəvidə beynəlxalq forumların Pakistanda keçirilməsi, bu ölkənin tanınmış din xadimlərinin birgə tədbirlərdə yaxından iştirakı olduqca arzuolunandır.

Görüşdə QMİ sədri Türk Dövlətləri Təşkilatı çərçivəsində dini-mənəvi əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açılması barədə, türk dövlətlərinin müsəlman dini liderlərinin mövcud əlaqələrinin daha da təkmilləşməsi naminə təşkilati müstəvidə yeni addımlar atılması haqda məlumat verib və türk dünyasına qardaş Pakistan xalqının da bu Birlik çərçivəsində dini-mənəvi əməkdaşlığa cəlb olunmasını məqsədəuyğun hesab etdiyini vurğulayıb.

Səfir Bilal Haye, öz növbəsində, Azərbaycan Dillər Universitetində Pakistan Mədəniyyət Mərkəzini təsis etmələrindən və bu mərkəzdə təşkil olunan, o cümlədən multikulturalizm mövzusunda tədbirlərdə QMİ-nin yaxından iştirakından məmnun olacaqlarını bildirib.

Diplomat Pakistanda hindu və sikx mədəniyyət nümunələrinə həsr olunmuş kitabları şeyxülislama təqdim edib və müsəlman ölkəsi olan Pakistanda digər dinlərin ardıcıllarına olan tolerant münasibətdən söhbət açıb.

Görüşün sonunda xatirə hədiyyələri təqdim olunub.

# Azərbaycandakı QHT-lərin rəhbərləri UNESCO-nun baş direktoruna müraciət ünvanlayıblar

Ermənistandakı Azərbaycan mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi məqsədilə keçirilən tədbirdə ölkəmizdə fəaliyyət göstərən QHT-lərin rəhbərləri UNESCO-nun baş direktoru Odri Azuleyə müraciət ünvanlayıblar.

AZƏRTAC müraciəti təqdim edir: "Biz, QHT nümayəndələri, UNESCO- ya bir neçə dəfə müraciət edərək Ermənistan ərazisindəki Azərbaycan xalqının irsinə qarşı bu ölkə tərəfindən həyata keçirilmiş mədəni soyqırımı haqqında sizə məlumat vermişik. Məhz Ermənistanın apardığı məqsədyönlü siyasət nəticəsində xalqımızın yüz illər tarixə malik Ermənistan ərazisindəki mədəni irsi tamamilə yox olma təhlükəsi ilə üzləşmişdir.

Ermənistan tərəfindən həyata keçirilmiş sözügedən mədəni soyqırımı azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti ilə müşayiət olunmuşdur. Belə ki, XX əsrin əvvəllərindən başlamış azərbaycanlıların əsrlər boyu öz doğma torpaqları olan bugünkü Ermənistan ərazisindən kütləvi deportasiyası nəticəsində Ermənistanda azərbaycanlı qalmamışdır. Təkcə 1988-ci ildə həyata keçirilmiş sonuncu deportasiya nəticəsində 250 mindən çox azərbaycanlı öz doğma yurdlarından qovularaq qaçqına çevrildi.

Beləliklə Ermənistan məqsədyönlü şəkildə həm etnik, həm də mədəni soyqırımı siyasəti aparmaqla bu ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izlərini hər yerdən silir, Azərbaycan xalqının mədəni irsini talayır, dağıdır, özününküləşdirir və mənşəyini dəyişdirir. Bununla bərabər sözügedən ərazilərdəki qədim toponimlərin erməni adları ilə əvəzlənməsi də həyata keçirilmişdir.

UNESCO-ya ünvanlanmış öncəki müraciətlərimizdə tərəfimizdən bir çox dəqiq faktlar da təqdim edilmişdir. Məsələn, digər faktlarla yanaşı vurğulanmışdır ki, Ermənistanda yerləşən Göy məscid, Qala Məscidi, Şah Abbas, Təpəbaşı, Zal Xan, Sərtib Xan, Hacı Novruzəli Bəy, Dəmirbulaq, Hacı Cəfər Bəy, Rəcəb Paşa, Məhəmməd Sərtib Xan, Hacı İnam Məscidi kimi 300-dən çox məscid XX əsrin əvvəllərində qəsdən dağıdılıb, özününküləşdirilib və ya digər məqsədlərlə istifadə edilib. Yalnız Dəmirbulaq Məscidi 1988-ci ilə kimi öz təyinatı üzrə fəaliyyət göstərib, indi isə o tamamilə dağıdılıb və yerində çoxmərtəbəli bina inşa edilib.

Ermənistanda azərbaycanlılara məxsus Ağadədə, Aşağı Şorca, Güllübulaq, Saral qəbiristanlıqları kimi 500-dən çox qəbiristanlıq məhv edilib. Qədim Göyçə mahalında, doğulduğu kənddə qəbirüstü abidəsi ucaldılmış Azərbaycan xalqının böyük şairi Aşıq Ələsgərin də qəbri dağıdılıb.

Ümumilikdə Ermənistan öz ərazisində Azərbaycan xalqına məxsus minlərlə mədəni irs abidəsini bilərəkdən dağıtmışdır. Bu, Ermənistanda Azərbaycan xalqına qarşı mövcud olan dözümsüzlüyün bariz nümunəsi olmaqla yanaşı, eyni zamanda, bütün insanlığa qarşı olan bir həqarətdir.

Bütün bunlar onu göstərir ki, Ermənistan heç bir ümumbəşəri dəyərləri tanımır. Bütün bu qanunsuz əməllərin, onillərlə davam edən vandallıq əməllərinin cəzasız qalması isə dünya ictimaiyyətinə yanlış mesaj vermiş olur. Dünya ictimaiyyəti bu kimi addımların Ermənistanda dövlət siyasəti olmasını anlamalı və buna qarşı addımlar atmalıdır.

Bu məqsədlə beynəlxalq hüquqda mövcud instrumentlər də istifadə edilməlidir. Belə ki, mədəni abidələrin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi və özününküləşdirilməsi beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il Cenevrə Konvensiyalarının, UNESCO-nun 1954 və 1970-ci il Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Bunlar müharibə cinayətləridir. BMT Təhlükəsizlik Şurasının 2017-ci ildə qəbul etdiyi 2347 saylı tarixi qətnaməsinin də müəyyən etdiyi kimi, mədəni irsin qəsdən dağıdılması, həmçinin sülh və təhlükəsizlik məsələsidir.

Hörmətli Baş direktor.

Məhz bütün bunları əsas gətirərək biz Azərbaycan xalqının çoxəsrlik tarixi olan mədəni və tarixi irsinin hazırkı vəziyyətinin qiymətləndirilməsi üçün Ermənistana ekspert qrupunun göndərilməsini Sizdən xahiş etmişdik. Təəssüf ki, öz məkrli və qanunazidd əməllərini gizli saxlamaq üçün Ermənistan belə bir missiyanın həyata keçirilməsinə qarşı olmuşdur.

Lakin 4 fevral 2022-ci il tarixində Azərbaycan, Fransa, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurasının rəhbərinin videoformatdakı görüşünün nəticəsi olaraq razılıq ifadə olunub ki, UNESCO-nun Ermənistana və Azərbaycana missiyası həyata keçiriləcəkdir. Bu xəbər bizi ruhlandırdı və sizə növbəti müraciəti ünvanlamağa təkan verdi.

Ümidvarıq ki, bu görüş zamanı öz üzərinə öhdəlik götürən Ermənistan UNESCO missiyasının reallaşmasına maneələr yaratmayacaq və bu missiyanın obyektiv hesabatı nəticəsində bütün dünya Azərbaycan xalqının çoxəsrlik irsinə qarşı törədilmiş əməllərdən xəbərdar olacaq. Ermənistan isə öz əməllərinə görə məsuliyyət daşıyacaq.

Müraciətə əlavə olaraq Sizin diqqətinizə Ermənistan tərəfindən mənimsənilmiş bir sıra maddi daşınmaz mədəni irsin siyahısını da təqdim edirik.

**Müraciəti imzalayan QHT rəhbərləri:**

1. Faiq İsmayılov - "Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyi
2. Fariz Xəlili - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi
3. Rauf Zeyni - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu
4. Azər Əliyev - Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası
5. Gəray Əlibəyov - "Mədəni İnkişaf Mərkəzi" İctimai Birliyi
6. Bəyimxanım Verdiyeva - "Xan Şuşinski" Fondu
7. Tural Gəncəliyev - "Qarabağa dönüş" İctimai Birliyi
8. Əziz Ələkbərli - Azərbaycan Qaçqınlar Cəmiyyəti
9. Tahir Əmiraslanov - "Azərbaycan Milli Kulinariya Assosiasiyası" İctimai Birliyi
10. Şəlalə Həsənova - "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyi
11. İlqar Orucov - "Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti" İctimai Birliyi
12. Şəhla Nağıyeva - "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyi
13. Şəmistan Əlizamanlı - "Vətənpərvərliyin Təbliğinə Dəstək" İctimai Birliyi
14. Nurəddin Mehdiyev - "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyi
15. Bahar Qasımova - "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyi
16. Davud Rəhimli - Əlil Təşkilatları İttifaqı
17. Fəxrəddin Həsənzadə - "Gənclər üçün Təhsil Mərkəzi" İctimai Birliyi
18. Fuad Məmmədov - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası İctimai Birliyi
19. Mehri Xanbabayeva - "Azərbaycan Tarixçiləri" İctimai Birliyi
20. Hacı Abdulla - "Zəngəzur" cəmiyyətləri İctimai Birliyi
21. Nəsiman Yaqublu - "Tarix və Mətbuat Araşdırmalarına Dəstək" İctimai Birliyi
22. Rəna Mirzəzadə - Gender və İnsan Hüququ Araşdırma Birliyi
23. Mehriban Zeynalova - "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi
24. Novella Cəfərova - "D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti" İctimai Birliyi
25. Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyi
26. Səltənət Qocamanlı - "İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyi
27. Yusif Ağayev - "Dostluq" Gənclərin Əlaqələndirmə Mərkəzi İctimai Birliyi
28. Xatirə Vəliyeva - "Xankəndi" Məcburi Köçkünlərə Dəstək İctimai Birliyi
29. Səbuhi Abdullayev - "ELM" Gənclərin Sosial-İntellektual İnkişafına Dəstək İctimai Birliyi
30. Səməd Hətəmov - "Doğma yurda qayıdış" İctimai Birliyi".

# "Yeni İctimai Nəzarət Şurası" adlı qanunsuz təşkilat adı altında vətəndaşları aldadıb rüşvət verməyə təhrik edən şəxslərin qanunsuz əməlləri ifşa olunub

Vətəndaşların hüquqlarını pozmaqla korrupsiya cinayətləri törədən şəxslərin ifşa edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində prokurorluq orqanları tərəfindən məqsədyönlü tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəllər törətdiyi dələduzluq və saxta sənədlər hazırlama kimi cinayət əməllərinə görə məhkum olunmuş Ramil Şükürovun müvafiq qaydada dövlət qeydiyyatından keçirilmədən qanunsuz yaratdığı "Yeni İctimai Nəzarət Şurası" adlı təşkilatın fəaliyyətinə cəlb etdiyi digər şəxslərlə mütəşəkkil dəstə şəklində törətdiyi qanunsuz əməllər barədə daxil olmuş müraciət əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində əməliyyat-axtarış tədbirləri keçirilib.

Aparılmış əməliyyat tədbirləri ilə qeyri-qanuni formada fəaliyyət göstərən qurumun ofisində axtarış aparılarkən Ramil Şükürov və yaratdığı şuranın digər üzvlərinin qanunsuz əməllərinə dair iş üzrə əhəmiyyət kəsb edən çoxsaylı sübut və məlumatlar aşkarlanıb. Həmçinin cinayətkar şəbəkə şəklində təşkilatlanmış qurumun respublikanın bir çox rayon və şəhər üzrə bölmələrinin mövcud olması, xidməti vəsiqələr verilməklə yüzlərlə üzvlərin cəlb edildiyi bu yerli strukturların hər biri üzrə sədr, müavin və digər vəzifələrə təyinatların aparıldığı, habelə şuranın rəhbər şəxslərinin guya aztəminatlı ailələrin yaşayış və maddi vəziyyəti ilə bağlı problemlərinin həlli, eləcə də şəhid və qazi ailələrinə yardım edilməsi adı ilə ayrı-ayrı vətəndaşlardan toplanılan ianə pullarını mənimsəmələrinə şübhələr müəyyən olunub.

Bundan başqa, keçirilmiş əməliyyat tədbirləri zamanı Ramil Şükürovun tanışı Aslanlı Elçin Heydər oğlu ilə qabaqcadan əlbir olaraq Bakı şəhəri ərazisində yerləşən ikimərtəbəli obyektin üçüncü mərtəbəsinin inşa edilməsinə rəsmi dövlət qurumlarından müvafiq icazələrin alınmasında kömək göstərilməsi ilə əlaqədar ona müraciət etmiş şəxsə özünün guya geniş əlaqələrinin olduğu aidiyyəti dövlət orqanlarının səlahiyyətli vəzifəli şəxsləri vasitəsilə həmin məsələni müsbət şəkildə həll edə biləcəyi barədə yalan vəd verərək, həmin məqsədlə vətəndaşdan tələb etdiyi 100 min manat məbləğində pulun müəyyən hissəsini ələ keçirməsinə əsaslı şübhələr yaranıb.

Habelə Ramil Şükürovun rəhbərlik etdiyi qurumun qazilər və veteranlarla iş üzrə sədr müavini vəzifəsində işləyən İbrahimov Koroğlu Yelmar oğlu ilə qabaqcadan əlbir olaraq Ağdam rayonu, Xındırıstan kənd musiqi məktəbinə direktor təyin edilməsində kömək göstərilməsi üçün ona müraciət etmiş şəxsə guya həmin sahə üzrə məsul qurumun səlahiyyətli vəzifəli şəxsləri ilə geniş əlaqələrinin olduğunu yalandan bildirib özü barədə formalaşdırdığı inam və etibardan sui-istifadə edərək vətəndaşdan 17 min manat məbləğində pul vəsaitini alaraq Koroğlu İbrahimovla aralarında bölüb şəxsi ehtiyaclarına sərf etməsinə əsaslı şübhələr yaranıb.

Bundan əlavə, Ramil Şükürovun ona müraciət etmiş Hacıqabul rayon sakinindən azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş övladının azad edilməsi üçün guya aidiyyəti vəzifəli şəxslərə rüşvət verəcəyi adı ilə aldığı 12 min manat pulu ələ keçirməsinə əsaslı şübhələr müəyyən olunub.

Eləcə də sonuncunun tanışı Elçin Aslanlının vətəndaşın faktiki istifadəsində olan Tovuz rayonu ərazisindəki torpaq sahəsinin onun adına rəsmiləşdirilməsi üçün müvafiq dövlət orqanlarının yaxın əlaqədə olduğu vəzifəli şəxslərinə rüşvət verəcəyi adı ilə ondan aldığı 22 min manat məbləğində pul vəsaitini ələ keçirməsinə, bununla da həmin şəxslərin hərəkətləri ilə vətəndaşları təkrarən vəzifəli şəxsə rüşvət verməyə təhrik etmələrinə əsaslı şübhələr yaranıb.

İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında Baş İdarədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmış, hər üç şəxs şübhəli şəxs qismində tutularaq onlara Cinayət Məcəlləsinin 178.2.1-ci (dələduzluq- qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 178.2.2-ci (dələduzluq - təkrar törədildikdə), 178.2.3 (dələduzluq- şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 178.2.4-cü (dələduzluq- xeyli miqdarda ziyan vurmaqla törədildikdə) və 32.4, 312.2-ci (vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər etməyə görə ona təkrarən rüşvət verməyə təhrik etmə) maddələri ilə ittiham elan edilmiş, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən bu və digər yeni halların, Ramil Şükürovun rəhbərlik etdiyi qurumun üzvləri tərəfindən törədilmiş digər çoxsaylı oxşar qanunsuz əməllərin, habelə cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu həmin şəxslərin qanunsuz əməllərindən zərər çəkmiş şəxslərdən bu barədə 961 - "Çağrı Mərkəzi" və 161 - "Qaynar xətt" əlaqə mərkəzinə müraciət etmələrini xahiş edir.

# Azərbaycan Alban-udi xristian dini icması azad olunmuş ərazilərdəki alban məbədləri ilə bağlı bəyanat yayıb

Azərbaycan Alban-udi xristian dini icması azad olunmuş ərazilərdəki alban məbədləri ilə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Biz - Alban Apostol Kilsəsinin varisi olan Azərbaycan Alban-udi dini icması işğaldan azad olunmuş ərazilərdə son bir ildə tarixi-dini abidələrin, o cümlədən xristian alban irsinə aid məbədlərin qorunması və bərpası istiqamətində həyata keçirilən ardıcıl tədbirləri yüksək qiymətləndirərək dəstəkləyir, Azərbaycan dövlətinin iradəsi və əzmi sayəsində bu prosesin mümkün qədər qısa vaxtda uğurla başa çatacağına inamımızı ifadə edirik.

Eyni zamanda, bəyan edirik ki, ciddi mina təhlükəsinin olmasına, çətin yolsuzluq şəraitinə baxmayaraq, Alban-udi dini icmasının üzvlərinin işğaldan azad olunmuş ərazilərdəki tarixi alban məbədlərini ziyarət etmələri üçün bütün zəruri tədbirlər həyata keçirilib. Nəticədə biz udilər son bir ildə Alban Apostol Kilsəsinin mənəvi varisləri kimi işğaldan azad olunmuş Laçındakı Ağoğlan, Kəlbəcərdəki Xudavəng monastırlarını, eləcə də Hadrut qəsəbəsi və Tuğ kəndindəki alban məbədlərini dəfələrlə ziyarət edə bilmişik.

Qeyd edək ki, Qafqazda xristianlığın rəsmi din kimi strukturlaşmasının tarixi Alban kilsəsindən başlayır. Qədim qaynaqlar sübut edir ki, tək Azərbaycanın deyil, bütün Qafqazın dini-mədəni həyatında silinməz izlər qoymuş Alban kilsəsi xristian dünyasında ən qədim kilsələrdən biridir və apostol mənşəlidir. Alban kilsəsinin qədimliyini təkcə tarixi faktlar yox, həm də mövcudluğunu dövrümüzə qədər qoruyub saxlamış qədim alban məbədləri təsdiqləyir.

Təəssüf ki, müxtəlif təzyiq və təsirlərdən sonra 1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edilib, onun maddi və mənəvi irsinin bir qisminə erməni Qriqoryan Kilsəsi sahib çıxmağa çalışıb. Nəticədə Azərbaycanda, xüsusilə Qarabağda tarixi alban məbədlərinin böyük bir qismi qriqoryanlaşdırılıb, tarixi abidələrimizlə yanaşı, arxiv materialları və sənədlər saxtalaşdırılıb. Alban irsinin, o cümlədən yaşı yüz illərlə, hətta min illərlə ölçülən Alban məbədlərinin qriqoryanlaşdırılması son yüz ildə Ermənistanın dövlət siyasətinə çevrilib. Bunun nəticəsidir ki, indiki Ermənistan ərazisində və Azərbaycanın işğal edilmiş torpaqlarında bir dənə də olsun alban məbədi saxlanılmayıb. Ermənistan ya Alban məbədlərinin arxitekturasını dəyişdirərək qriqoryanlaşdırıb, ya da arxitekturasını dəyişdirə bilmədiyi məbədləri dağıdıb.

Azərbaycan müstəqilliyini bərpa etdikdən və ölkəmizdə vicdan azadlığı tam təmin olunduqdan sonra Alban Apostol Kilsəsinin statusunun bərpası və üzləşdiyimiz ədalətsizliyin aradan qaldırılması üçün tarixi fürsət yaranıb. Udi ziyalılarının təşəbbüsü ilə 2003-cü ildə Alban-udi xristian icması yaradılıb və dövlət qeydiyyatından keçib. Dini icmanın qeydiyyatı Alban apostol avtokefal kilsəsinin dirçəldilməsi yolunda ilk addımdır. Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonu, Kiş kəndində yerləşən və Qafqazda "kilsələrin anası" hesab olunan apostol Yelisey məbədi bərpa edilib, 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonu, Nic qəsəbəsindəki "Çotari" Alban-udi kilsəsinin rəsmi açılışı olub.

Təbii ki, Alban-udi xristian icmasının dirçəldilməsi və alban abidələrinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması, ölkəmizdəki tolerantlıq mühitinin qorunub-saxlanılması baxımından təkcə Azərbaycan deyil, həm də bütün xristian dünyası üçün mühüm əhəmiyyət kəsb edir. Biz udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq Qəbələ və Oğuzdakı alban məbədləri kimi, işğaldan azad edilmiş ərazilərimizdəki digər alban məbədlərinin də yüksək səviyyədə bərpa olunacağına inanırıq.

Eyni zamanda, Azərbaycan xalqının tolerantlığı, Azərbaycan dövlətinin bütün dinlərin nümayəndələrinə olan qayğısı və dəstəyi onu deməyə əsas verir ki, erməni Qriqoryan Kilsəsinin mənsublarına da humanist münasibət göstəriləcəkdir. Bu hörmətin bariz nümunəsi Bakı şəhərinin mərkəzində yerləşən Azərbaycan hökuməti tərəfindən qorunub-saxlanılmış, bərpa olunmuş "Müqəddəs Qriqori" erməni kilsəsidir. Əsrlər boyu erməni Qriqoryan Kilsəsinin təsir və təzyiqlərinə, mənimsəmə və saxtalaşdırmaqla Alban irsinə böyük zərbə vurmasına baxmayaraq, sülh və insanlıq naminə biz də erməni Qriqoryan Kilsəsi ilə əməkdaşlığa, işğaldan azad edilmiş ərazilərdə birgə yaşamağa hazır olduğumuzu bildiririk".

# REGİONLAR



## Tovuzda şəhid Ceyhun İsmayılovun xatirəsi əbədiləşdirilib




2020-ci il 27 sentyabr tarixi Azərbaycan xalqının yaddaşında uzun illər Zəfərin başlanğıcı kimi xatırlanacaq. Çünki bu tarixdə başlanan Vətən müharibəsi bizi qürurlu Qələbəyə qovuşdurdu.

44 günlük Vətən müharibəsindəki qələbəmiz həm də bütün dünyaya səs saldı. Söz yox ki, bu Zəfərdə minlərlə Azərbaycan oğlu kimi, Tovuzda doğulub boya-başa çatmış və qəhrəmancasına vuruşaraq şəhid olmuş Ceyhun İsmayılovun da payı var.

Qədirbilən tovuzlular igid həmyerlilərinin adını daim əziz tutur, ona ehtiramlarını göstərirlər. Bu günlər şəhidə daha bir ehtiram olaraq adının əbədiləşdirilməsi üçün bulaq kompleksi inşa olunmuşdur. Şəhid ailələrinin, eləcə də rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən açılış mərasimində şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilmiş, Azərbaycanın Dövlət Himni səsləndirilmişdir.

Mərasimdə çıxış edənlər 2020-ci il sentyabr ayının 27-də başlanan və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin tarixi əhəmiyyətindən danışmışlar.

Sonra Ceyhun İsmayılovun həyat yoluna nəzər salınmışdır. Bildirilmişdir ki, Ceyhun İqbal oğlu İsmayılov 1996-cı il sentyabrın 25-də Tovuz şəhərində anadan olmuş, 2014-cü ildə orta məktəbi bitirdikdən sonra Kiyevdə ali təhsil almışdır. Ali təhsilini başa vurduqdan sonra Vətənə qayıdan Ceyhun Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Ceyhun İsmayılov 2020-ci il sentyabrın 27-də döyüşlərə atılmış və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə o, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Naxçıvan MR-də ilk dəfə reallaşdırılan "Bootcamp" layihəsi yekunlaşıb

Muxtar respublikada ilk dəfə reallaşdırılan informasiya-kommunikasiya texnologiyalarının "Bootcamp" layihəsi uğurla yekunlaşıb.




Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, üç gün davam edən layihənin ilk günü veb-developer Durna Zeynallı "React" proqramlaşdırma dili haqqında iştirakçıları məlumatlandırıb.

Estoniyadan təlimə onlayn qoşulan həmyerlimiz veb-developer Haşım Haşımov "Backend proqramlaşdırma" mövzusunda çıxış edərək "Python haqqında", "Pythonun kitabxanaları", "Köməkçi alətlər" kimi mövzulardan bəhs edib.

Təlimin ikinci günü "Bulud texnologiyaları" haqqında onlayn məlumat verən BestCompt MMC-nin əməkdaşı İlyas Novruzlu bildirib ki, bulud texnologiyaları konsepsiyası kompüter texnologiyalarının infrastrukturunun və proqram təminatının bilavasitə şəbəkə mühitində yaradılmasını və istifadə edilməsini təmin edir. Günün ikinci yarısı Naxçıvan Dövlət Universitetinin aparıcı mühasibi Təhmasib Quluzadə "Rəqəmsal iqtisadiyyat, digital marketinq" mövzusunda təlim keçib.

Təlimin sonuncu günü universitetin İKT və Elektron təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli "Əşyaların interneti: əldə edilən təcrübə və perspektivlər", "Startap və ekosistemlərin tətbiqində İKT" adlı təlimlərdə bu sahədə baş verən ən son texnoloji yenilikləri iştirakçıların diqqətinə çatdırıb. Tələbələrin hazırladığı startap layihələri dinlənilib, onlara mentor dəstəyi göstərilib.

Təlimlər zamanı tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün intellektual oyunlar təşkil edilib. Layihənin yekun günündə "SR Group CO" şirkətinin Senior Systems administratoru Rəşad Bayramovun "İT sahəsinə gedən yol" mövzusundakı təlimi dinlənilib.

Qeyd edək ki, təlimin sonunda təlimçilərə universitet adından təşəkkürnamə təqdim edilib.

◆ **Sosial oçerk**

*Əvvəli 1-ci səh.*



## Torpağa əyilmədən ucalmaq mümkün deyil

Sözünə ara verir. Gözləri yol çəkir. "Bilirsiz, müəllim, Kür çayında suyun bu qədər azalması məni çox narahat edir. Bu gün-sabah 60 yaşım olacaq, Kürü heç vaxt belə məzlum, miskin görməmişəm. Biz ona həmişə dəli Kür demişik. Yaz-yay aylarında coşub-daşaraq sahilləri basar, ən yaxşı halda evlərin, bağ-bağatların beş addımlığında dayanar, bəzən daha da irəli gedər, məcrasına sığmazdı. Hələ mən 90-cı illəri demirəm. Yəqin, o vaxtlar sizin də yadınızdadır. Kürün daşması nəticəsində nə qədər ev-eşik, bağ-bağat, əkin sahələri suyun altında qaldı. Hökumət məcbur olub sahil boyu bənd çəkdi. Yaxşı ki, ana dediyimiz Kürün o vaxtlarını görmüşük. Yeniyetməlik çağlarımızda yay aylarında boz-bulanıq sularına baş vurub çimər, yoldaşlarımızla üzə-üzə o biri sahilə keçib qənimət kimi bağlardakı alçalardan, göyəmdən, qaysıdan maykamıza yığar, heç kim görməsin deyə tələm-tələsik suya baş vurub geri qayıdardıq. Otaylı yeniyetmələr də əvəzini çıxar, bizim bağlardan meyvə "çırpışdırardılar". Uşaq ki, uşaq. Bu, ehtiyacdan deyil, dəcəllikdən irəli gəlirdi, ona görə də heç kəs bundan incimirdi. Hanı o vaxtlar, o günlər?! Axı su bol olanda balıqlar da çayyuxarı üzməyə can atır. Gah qarmaqla, gah səbətlə, gah tor süzərək o qədər xəşəm, kütüm, çəki, bobla, şahmayı, ilanbalığı tutmuşuq ki, gəl görəsən. Bəxtimiz gətirəndə bəzən ağbalıq, nərə də tutardıq. Amma inanıram ki, bu, müvəqqəti bir haldır. Allahın köməyi ilə Kür çayı yenə əvvəlki vəziyyətinə qayıdacaq".

Şum edilmiş sahədən çıxıb, söhbət edə-edə yaxınlıqdan keçən Salyan-Neftçala şose yolunun kənarındakı çayxanaya çatırıq. Söhbətimiz çay süfrəsi arxasında davam edir. Həmsöhbətim ömür kitabının səhifələrini bir-bir vərəqləyir. Məlum olur ki, kəndlərindəki məktəbin səkkizinci sinfini bitirdikdən sonra Bakıya getmiş, Neftmaşınqayırma Texnikumuna daxil olmuşdur. Təhsilini yarımçıq qoyub, əsgəri borcunu yerinə yetirmək üçün ordu sıralarına yollanmışdı. Hərbi xidmətini başa vurub yenidən Bakıya qayıtmış və təhsilini tamamlamışdı. Əmək fəaliyyətinə Bakıda başlamışdı. Elə bu vaxt - 1985-ci il yanvar ayının 9-da kənddən xəbər gəlir ki, atası vəfat edib. Dəfndən sonra anasının bərk narahat olduğu nəzərindən qaçmır. Ana cümə axşamlarının birində oğluna deyir: "İmaməddin, görürsən ki, heç gözləmədiyimiz halda atan 52 yaşında dünyadan köçüb getdi. Böyük qardaşın ailə qurub, bizdən ayrı yaşayır, özünün kifayət qədər qayğıları var. İndi iki bacın və mən bu yurdda başsız qaldıq. Xahişim odur ki, qayıt gəl kəndə, bizə sahib dur, qoy evimizdən kişi səsi, kişi nəfəsi əskik olmasın. Atanın vaxtsız sönmüş çırağını yandır. İki bacını nəzərə alıb sözümü yerə salma".

Anasının göz yaşları, nisgili İmaməddini bərk kövrəldir. Onun boynunu qucaqlayıb üzündən-gözündən öpüb deyir: "Darıxma, ürəyini sıxma, ana, dediyin kimi də edəcəyəm".

Deyirlər, dərd gələndə batmanla gəlir. İmaməddin atasının qırx mərasiminə hazırlıq görərkən anasını da itirir. Ana vəsiyyəti onu vaxtından qabaq müdrikləşdirmişdir. Bir ocağın çətinliklərini, məsuliyyətini çiyinlərinə götürməli olur. Bakıya - iş yerinə qayıdıb ailə vəziyyəti ilə əlaqədar rayona qayıtmaq istədiyi barədə müdiriyyətin adına ərizə yazır. Doğulub boya-başa çatdığı Neftçala rayonunun Kürqarabucaq kəndinə qayıdır. Torpağa bağlılığı da elə o vaxtdan başlanır. Bu o dövr idi ki, dünyaya hökmranlıq etmək iddiasında olan SSRİ artıq laxlamağa başlamışdı. Ermənilər M.Qorbaçovun maymaqlığından istifadə edərək Qarabağı ələ keçirmək və Ermənistana birləşdirmək üçün özlərinin hiyləgərlik maşınını hər yerdə işə salmışdılar. Bütövlükdə sovetlər məkanında münaqişələr, qarşıdurmalar, neqativ hallar durmadan artırdı. Böyük-kiçik, hörmət-izzət get-gedə ortadan götürülürdü. 1991-ci ildə SSRİ-nin süquta uğraması nəticəsində çox çəkmədi ki, kolxozlar dağıldı. İmaməddinin yaşadığı və bir neçə ətraf kəndi özündə birləşdirən kolxozun ləğvi və bu təsərrüfata uzun illər rəhbərlik edən Sosialist Əməyi Qəhrəmanı Nuruş Əliyev bəzi üzdəniraq gənclərin tənəsinə, təhqirinə, söyüşünə tuş gəlir. Bu, gənc İmaməddinə pis təsir edir: "Utanın, ayıbdır. Kaş sizin hər biriniz öz kəndinizə, el-obanıza onun kimi xidmət edə, xeyir verəydiniz", - deyir.

Kolxoz dağılandan, torpaqlar kənd əhalisinə pay kimi veriləndən sonra qolunu çırmayıb işə başlayır. Gecə-gündüz daha çox məhsul götürmək, yaxşı qazanc əldə etmək, kimlərisə dolandırmaq, başqalarına da dayaq olmaq, yeni iş yerləri yaratmaq barədə fikirləşir. Belə bir məsəl var: "Niyyətin hara, mənzilin də ora". Elə birinci il çəkdiyi zəhmət öz bəhrəsini verir. Bu da onu daha yüksək nəticələr əldə etməyə ruhlandırır. İl-ildən uğurlu gəlir. Qazancı yaxşılaşdıqca əkin sahələrini genişləndirir. Əlavə torpaqlar icarəyə götürür. Sadə və halal zəhməti ilə nəinki yaşadığı Kürqarabucaq, hətta ətraf kəndlərin də camaatının hörmətini qazanır. Bacılarını da gəlin köçürür, ev-eşik edir. Vaxtı çatanda özü də evlənir, ailə qurur.

Söhbətimizin bu yerində telefonu zəng çalır. "Yaxşıyam, yaxşıyam, anan da lap yaxşıdır. Narahat olmayın. Siz necəsiniz? Özünüzü xəstəlikdən-zaddan yaxşı-yaxşı qoruyun, deyilənlərə əməl edin. Yoluxma yenə çoxalıb. Bir şeydən ehtiyacınız varsa, de". Sonra bizə tərəf dönür: "Qızımdır, Sahil qəsəbəsində yaşayır. Ailəlidir, iki azyaşlı uşağı var". "Hə, yaxşı yadıma düşdü, neçə övladınız var?", - deyə soruşuram. "İki qızım, bir oğlum, dörd nəvəm var. İkinci qızım Gülnar ali təhsilini bir neçə ildir ki, başa vurub. Hazırda Yuxarı Qaramanlı kənd tam orta məktəbin direktorudur. Oğlum Fərid əvvəl-əvvəl mənim kimi Bakıda qalıb işləmək istəyirdi. Bir neçə yerdən də iş üçün gözləntisi vardı. Dedim ki, oğul, mən etdiyim səhvi sən təkrar etmə. Yığış gəl yanıma. Allaha şükür, dolanışığımız var. Zəhmətimlə hər bir şərait yaratmışam. Evimiz-eşiyimiz, təsərrüfatımız. Sağ olsun, o da sözümü yerə salmadı, dediklərimi eşitdi. İndi mənə kömək edir. Bir də axı hamı Bakıya yığışsa, kənddə kim qalar, əkin-biçinlə kim məşğul olar? Kəndlər də qabaqkı kənd deyil. Bizim Kürqarabucaq kəndinin yolu, işığı, qazı - hər şeyi var. Asfalt yolla Salyana 15 dəqiqəyə, Bakıya 1 saat 20 dəqiqəyə çatmaq olur. Bakıdan isə dünyanın hansı ölkəsinə gedirsənsə, get, təki pulun olsun. Pulu qazanmaq üçün isə gərək zəhmət çəkəsən. Zəhmətsiz heç bir şey ortaya gəlmir. Bayaq sizə demədim. Oturub çay içdiyimiz bu kafe də mənimdir. Pambıqdan qazandığım pulla tikdirmişəm. Hələ təsərrüfatım üçün traktor, özüm üçün "Nissan" markalı minik maşını, oğlum üçün "Mersedes" almışam. Sahəyə getməyə üstəlik bir babat "Jiquli"m var. Heç şübhəsiz ki, bunların hamısı dövlətimizin, Prezidentimiz İlham Əliyevin kənd təsərrüfatına, xüsusilə pambıqçılığa göstərdiyi diqqət və qayğı sayəsində mümkün olmuşdur".

Sonra müsahibim sözünə belə davam edir: "İndi ölkəmizdə, o cümlədən bizim Neftçalada pambıqçılıqla məşğul olan 3 şirkət var. Biri də bu il Xol adlanan zonada yaradılıb. Bunlar fermerin, torpaq mülkiyyətçisinin xeyrinədir. Rəqabət olan yerdə inkişaf, yaxşı xidmət var. Mən həmişə "MKT-İK" Neftçala filialı ilə müqavilə bağlamışam. Şumlamadan tutmuş məhsulun yığımına kimi həmişə yanımızdadır. Filialın direktoru Bahəddin Leysanov çox insan adamdır. Yanına nə üçün getsən, yox deməz. Çalışıb əlindən gələn köməyi göstərir. Fermerlər də öz əməkləri ilə buna cavab verməyə çalışırlar. Keçən il əkdiyim 40 hektarın hər hektarından 52 sentner pambıq götürdüm. Ümumi məhsulun 80 faizinə yaxınını maşınla yığdım. İstəsəydim, hamısını maşınla yığardım. Ancaq o pambığı becərən qızlar da pul qazanmalıdırlar. Dövlətin verdiyi subsidiya ilə birlikdə 1 kiloqram pambıq üçün 92 qəpik alırıq. Pis deyil. Amma becərmənin, habelə dərman preparatlarının, o cümlədən gübrələrin də qiyməti durmadan artır. Şirkətlərin rəhbərləri bunları nəzərə alsalar, yaxşı olar. Pambıq ağır zəhmətlə başa gələn məhsuldur. Elə olmalıdır ki, kəndli onu həmişə əksin. Pambıq həm də digər bitkilər üçün yaxşı sələfdir, çünki yeri saflaşdırır, onun yerinə əkilən bitkilər xəstəliklərə, demək olar ki, yoluxmur".

Məlum olur ki, İmaməddin Dadaşov keçən ayın əvvəlində 46 hektarda pambıq əkməyi planlaşdırıb. Bunun üçün həmişəki kimi, yenə "MKT-İK" Neftçala filialı ilə müqavilə bağlayıb. İndi torpağı əkinə hazırlayır. Kanalları keyfiyyətli şəkildə təmir edib, sahələrdə qış aratı aparır. Novruz bayramından sonra, torpaqda kifayət qədər temperatur yaranan kimi sahəyə çıxıb səpinə başlayacaq. Deyir ki, bunun üçün filialda qardaş Türkiyədən gətirilmiş kifayət qədər yüksək məhsuldarlıqlı və keyfiyyətli toxum, əkin zamanı toxumla birlikdə torpağa verilən ammofos və başqa gübrələr tədarük edilmişdir. Səpində istifadə olunacaq maşın və mexanizmlər, aqreqatlar təmir edilib start vəziyyətinə gətirilmişdir: "Nigarançılığımız suvarma suyu sarıdandır. Ümid edirik ki, o da yaxşı olacaq. Türkiyə ərazisinə düşən qar belə deməyə əsas verir. Sağlıq olsun, necə deyərlər, hər şeyin başı sağlığa bağlıdır. Allah ölkəmizi, ordumuzu, Ali Baş Komandanımızı, xalqımızı qorusun!"

İ.Dadaşov danışdıqca sanki haradansa, nədənsə güc-qüvvət alır. Belə bir inamın, gücün onda haradan, nədən yarandığını müəyyən etmək çətin deyil. Ona güc verən torpaqdır. O torpaq ki, bizi qoynunda bəsləməklə yaşadır, yedizdirir, geyindirib-keçindirir, zəhmət çəkəni ad-sana, şan-şöhrətə çatdırır, el içində başını uca edir. Torpağa baş əyib ucalanları isə oradan heç kim və heç nə endirə bilməz.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



## Arıçılığın inkişafı üçün geniş imkanlar yaradılır

*Foto İlham BABAYEVİNDİR*

Aqrar sahənin qədim və gəlirli təsərüfat növlərindən olan arıçılığın inkişafı mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, kənd təsərrüfatında aparılan islahatlar sırasında arıçılığa göstərilən diqqət də önəm daşıyır.

Son illər ölkəmizdə arıçılığı inkişaf etdirmək məqsədi ilə çoxsaylı tədbirlər həyata keçirilib. Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu nəzdində Arıçılıq Mərkəzi yaradılıb, Azərbaycan Arıçılar Assosiasiyası təsis edilib.

Prezident İlham Əliyevin 2018-ci il martın 5-də imzaladığı "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" sərəncamından sonra bu istiqamətdə işlər daha da canlanıb və geniş miqyas alıb. Bu sərəncam, adından da göründüyü kimi, ölkədə arıçılığın inkişafının stimullaşdırılması, kənd yerlərində kiçik sahibkarlığın dəstəklənməsi və məşğulluğun təmin edilməsi məqsədini daşıyır. Təsadüfi deyil ki, son illər damazlıq arıçılıq təcrübəsinin genişləndirilməsi, genofond arıxanaların yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, sərgi-yarmarkaların təşkili və digər istiqamətlərdə geniş tədbirlər həyata keçirilir. Nəticədə arı ailələrinin sayında, bal və digər arıçılıq məhsullarının istehsalında və bal ixracında əhəmiyyətli artım müşahidə olunur.

Məlumdur ki, Azərbaycanın ərazisi arıçılığın inkişafı baxımından əlverişli təbii-iqlim şəraitinə və bal verən bitki örtüyünə malikdir. Belə ki, ölkəmizdə bal verən 600-ə qədər bitki növü mövcuddur. Bunların təxminən 200-ü nektar və çiçək tozu mənbəyi kimi arıçılığın genişləndirilməsi üçün daha böyük təbii imkanlar yaradır. Bu imkanlar sayəsində arıçılığın inkişaf etdirilməsi kənd əhalisinin gəlirlərinin artmasına və məşğulluğunun təmin edilməsinə töhfə verir.

Hazırda arıçılıqda yerli genofondların qorunması istiqamətində təsərrüfatların damazlıq növünün müəyyən edilməsi üçün mütəmadi işlər həyata keçirilir. Bu məqsədlə yerli genofondda olan "Boz dağ Qafqaz" arı cinsi yetişdirilən 3 arıçılıq təsərrüfatında zootexniki qiymətləndirmə aparılıb. Onlar damazlıq təsərrüfat kimi qeydiyyata götürülərək dövlət reyestrinə daxil edilib. Damazlıq təsərrüfatlarının yaradılması, seleksiya-damazlıq işlərinin təşkil edilməsi üçün mütəmadi monitorinqlər keçirilir, qiymətləndirmə aparılır, cinslər üzrə göstəricilər təhlil edilir. Damazlıq arıçılığın inkişafı məqsədi ilə ilk dəfə Zaqatala rayonunda "təcrid" zonası yaradılıb.

Görülən ardıcıl tədbirlər nəticəsində 2017-ci illə müqayisədə 2021-ci ildə arı ailələrinin sayı 331 min vahid və ya 2,2 dəfə artaraq 602,8 min vahidə, bal istehsalının həcmi isə 3,6 min ton, yaxud 1,5 dəfə artaraq 6,6 min tona çatıb.

30 il işğal altında olan torpaqlarımızın azad edilməsi kənd təsərrüfatı sektorunda, o cümlədən arıçılıq sahəsində yeni perspektivlər açıb. Pilot layihələr çərçivəsində artıq Kəlbəcər və Laçın rayonlarının təhlükəsiz zonalarına arı ailələri, qoyunçuluq təsərrüfatlarının köçürülməsi həyata keçirilib. Layihə çərçivəsində Kəlbəcərdən 59, Laçından 15 arıçı fermer olmaqla ümumilikdə 74 arıçı fermer tərəfindən 4531 arı ailəsi, 8569 baş xırdabuynuzlu heyvanın dislokasiya üzrə köçürülməsi təşkil edilib. İşğaldan azad edilmiş ərazilərimiz üzrə 2022-ci ildə örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, arı ailələrinin köçürülməsi üçün elektron portalın hazırlanması işləri aparılır.

Elə bu yaxınlarda İsmayıllı rayonunun İvanovka kəndində keçirilən VII Azərbaycan Beynəlxalq Arıçılıq Konfransı da sahənin inkişafına yönəldilən tədbirlərdən biri idi. Tədbirdə arı xəstəliklərinin müalicəsi və profilaktikası, apiterapiya və onun əhəmiyyəti, dünya təcrübəsi və standartları, paket və pavilion arıçılığı, ana arının yetişdirilməsi, balın qablaşdırılmasında innovativ texnologiyaların tətbiqi və digər mövzularda təqdimatlar keçirilib. Konfransda Azərbaycanın aidiyyəti qurumlarının nümayəndələri və yerli arıçılarla yanaşı, onların Türkiyədən, Macarıstandan, Belarusdan, Litvadan gəlmiş peşəkar həmkarlarının iştirak etməsi bu sahənin daha da genişlənəcəyindən xəbər verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Salyanın taxıl sahələrində bu il bol məhsul olacaq

Strateji məhsul olan taxılçılığın inkişaf etdirilməsi Salyan rayonunda daim diqqət mərkəzindədir. Ötən təsərrüfat ili məhsuldar olduğundan bu il də fermerlər məhsulun daha bol olacağını qeyd edir.

AZƏRTAC xəbər verir ki, Salyanda fərdi fermer təsərrüfatlarında taxıl əkininə vaxtında başlanılıb, aqrotexniki qulluq göstərilib. Ötənilki məhsuldarlıq salyanlı fermerləri taxıl əkininə daha da maraqlı edib. Salyanın Şorsulu kənd sakini 64 yaşlı Balaş Əhmədov 42 ildir ki, taxıl əkini ilə məşğuldur. Ötən il sahədən bol məhsul götürən fermer bu il taxıl sahəsini daha da genişləndirib: "Ötən il 20 hektar taxıl əkmişdim. Çox yaxşı məhsulumuz oldu. Ümumi sahəmizdən 45 sentner taxıl götürdük. Bu il 30 hektar sahədə taxıl əkmişəm. 25 hektarını suvarmışam, 5 hektarında isə sulama gedir. Bu il üçün 50 sentnerə yaxın taxıl məhsulu gözləyirəm. Çünki lazımi tədbirləri görmüşük. Şum altına üzvi gübrələri vermişik. Qeyri-üzvi gübrələrlə gübrələmişik".

Bütün aqrotexniki tədbirləri həyata keçirən fermer bu il taxılın "Əzəmətli" sortuna müraciət edib. Fermer qeyd edir ki, bu sort yerli iqlimə uyğun olan məhsuldar sortlardan biridir. Salyanda son vaxtlar havaların kəskin dəyişməsi, qarın yağması taxıl əkən fermerlərin sevincinə də səbəb olub. Kənd təsərrüfatı mütəxəssisi Əli Novruzov deyir ki, Aran rayonlarına qarın yağması bu il taxılın daha da bol olacağına işarədir. Mütəxəssis taxılçı fermerlərə bir neçə tövsiyəsini də çatdırıb: "Nəmişlik, qarın yağması taxılçı fermerlərin xeyli köməyinə çatıb. Məhsuldarlığın artırılmasında, bilavasitə zərərvericilərin məhv olmasında qarın yağması, qışın sərt keçməsinin böyük əhəmiyyəti var. Bundan əlavə, taxıl mütəmadi olaraq nəzarətdə saxlanılmalı, onun becərilməsinə nəzarət artırılmalı və iki mərhələdə yemləmə gübrəsi verilməlidir ki, lazım olan məhsuldarlıq əldə olunsun. Qarın yağması torpaqda rütubəti artırsa da, fevral-mart aylarında mütəmadi olaraq taxıl əkilmiş sahələr torpağın rütubəti nəzərə alınaraq suvarılmalıdır".

Qeyd edək ki, 2021-ci ildə Salyan rayonunda 16 min 860 hektar ərazidə taxıl əkini aparılaraq 67 min 217 ton məhsul əldə olunub. Bu da orta hesabla 39,9 sentner məhsul deməkdir.

# Türk mifoloji təfəkküründə Xıdır Nəbi bayramı

Türksoylu xalqların mifik düşüncəsində təbiətin oyanışını müjdələyən, yazın, yaşıllığın səbirsizliklə gözlənilməsini tərənnüm edən, bolluq, bərəkət, firavanlıq inanclarının rəmzi kimi uzun əsrlər boyu yurdumuzda keçirilən bayramlardan biri "Yazağzı Xızır", "Xıdır Nəbi", "Xıdır İlyas", yaxud "Qışyarısı" bayramıdır. "Xıdır Nəbi" yazın, yaşıllığın müjdəsi anlamındadır. Bu bayram tarixən əsasən kiçik çillənin hökm sürdüyü ərəfədə, təqribən fevralın 9-11-ci günlərində keçirilmişdir.



Xıdır Nəbi bayramının başlıca iştirakçısı olan Xıdır və ya Xızır əski türk mifoloji təsəvvürlərində ölüb-dirilən, zülmət dünyasından əbədi həyat bəxş edən dirilik suyunu tapıb içən və ölməzlik qazanan bir obrazı simvolizə edir. Türk mifik qaynaqlarında Xızır Yer, Su, Umay kimi bir vəli (övliya), yaxud hami ruh statusuna malik varlıq kimi səciyyələndirilir. Xızır və onunla bağlı inanclar Orta əsrlərdən başlayaraq istər türk, istərsə də Avropa və digər xalqların elmi tədqiqatçılarının diqqət mərkəzində olmuşdur.

Xıdır Nəbi bayramının mifik rəmzi olan Xıdır, yaxud Xızır barədə islam qaynaqlarında müxtəlif mülahizələr söylənir. Bəzi mənbələrə görə, hətta Xızırın məzarının bir neçə yerdə olması, yaxud onun əbədiyaşar şəxsiyyəti haqqında fikirlərə də rast gəlmək mümkündür. Bu obraz xalq tərəfindən sevilmiş və onun haqqında müxtəlif əfsanələr, rəvayətlər dolaşmışdır.

Xıdır Nəbi mərasimi hər evdə, hər ailədə qeyd olunmalı, Xıdırın şərəfinə məclis qurulmalı, süfrələr açılmalıdır. İnama görə, "əgər hər hansı bir evdə həmin gün süfrə açılmazsa, Xıdır küsüb gedəcək, baharın gəlişini yubadacaqdır". Mərasimin əsas atributlarından biri qovutdur, buğda qovrulub qovut çəkilir və süfrəyə qoyulur. Erkən etiqadlara görə, Xıdır əlini qovuta çəkir, bununla da Yer üzünə özü ilə bolluq, bərəkət, xoşbəxtlik gətirir. Xıdır Nəbi mərasiminin əsas amalı insanların qışdan salamat çıxmasını, üzləşdikləri çətinliklərə sinə gərməsini, yazın gəlişini gözləməsini əks etdirməkdir.

Xıdır Nəbi mərasimləri ilə bağlı folklor mətnləri xalq arasında bugünümüzədək qorunub saxlanılıb. Onlardan birinə diqqət yetirək:

*Xıdır, Xıdır xıd gətir,*
*Dar-dərədən od gətir.*
*Mən Xıdırın nəyiyəm,*
*Bircə belə dayıyam,*
*Ayağının nalıyam,*
*Başının torbasıyam.*
*Xıdıra Xıdır deyəllər,*
*Xıdıra çıraq qoyallar,*
*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, oldu yaz.*
*Mən Xıdırın quluyam,*
*Boz atının çuluyam...*

Xızır, yaxud Xıdır sözlərinin etimologiyası ilə bağlı maraqlı fikirlər var. Mirəli Seyidova görə, "Xızır" türkdilli xalqların sözüdür və yazın istisini, hərarətini, odunu, qüvvəsini gətirən kişi, qəhrəman deməkdir. Bundan əlavə, mənbələrdə fəsil bölgüsü ilə bağlı "Xızr" sözünün işlənməsi barədə məlumatlara da rast gəlmək olur. Türklərdə ilin iki hissəyə bölünməsi, xüsusən də ilin birinci hissəsinin Xızr (altı aylıq yay mövsümü) və Qasım (altı aylıq qış mövsümü) adlanan digər hissəsini əhatə edən mərhələlərin hesab edilməsi bu qəbildən sayıla bilər.

Xıdır Nəbi bayramında əcdadlarımız havaların tədricən yumşalması, sərt, soyuq qışın getdikcə başa çatması ümidi ilə Xızırı layiqincə qarşılamaq, bir-birinə kömək etmək, paylaşmaq amalı ilə bayram tədbirləri keçirərdilər.

Erkən inanca görə, Xızırın gəldiyi "Xızır yolu"nu görənlərin bütün arzu-istəkləri həyata keçər. Qədim adətə görə, Xıdır Nəbi bayramı günü heç kim işləməməli, əziyyət çəkməməlidir. İnanca görə, hər evdə ailə başçısı sübh tezdən yüksək bir yerdə qoyulmuş un və ya qovut üzərində "iz" görərsə, deməli, gecə Xızır gəlib və mübarək izini həmin una, qovuta çəkmişdir. Beləliklə də, özü ilə xeyir, bərəkət, xoşbəxtlik gətirmişdir. Həmin undan, qovutdan bir qədər götürüb səpin vaxtı buğdaya qarışdırıb səpmək üçün saxlayardılar ki, Xızırın xeyirduası ilə torpaq bərəkətli olsun. Bu bayram gecəsində otların üzərinə düşmüş şehdən xəmir yoğrulardı ki, bu da bolluq-bərəkətə yozulardı.

Mənbələr göstərir ki, vaxtilə Azərbaycana gəlmiş əcnəbi səyyahlar, o cümlədən XIII əsrdə italiyalı Marko Polo, XVIII əsrdə alman Adam Oleari Xıdır Nəbi bayramının mərasimlərini seyr etmiş və öz yazılarında bəzi ayin və adətləri də təsvir etmişlər. Marko Poloya görə, bu bayram türklərin "Bəyaz" adı altında keçirdiyi bayramdır. Bayram adətlərindən danışarkən göstərmişdir ki, bayram axşamı bir sıra inanc və ayin icra olunurdu. Məsələn, yerə ağ süfrə sərilir, onun üzərinə un səpilir, səhərisi isə həmin süfrədəki unun üzərində Xızırın, yaxud Bozatın nalının izi axtarılır, izin olduğunu yəqinləşdirdikdən sonra isə həmin süfrənin üstündəki undan çörək, yaxud kömbə bişirib hamıya paylayardılar.

Bəzi araşdırmalara görə, Xıdır Nəbi həm də "taxıl və müqəddəs ağaclara pərəstiş" bayramı kimi qəbul edilir. Bu da təsadüfi deyildir, çünki erkən dövrlərdən Yaxın Şərqdə taxıla, buğda kultuna, dənli bitkilərə inanış mövcud olmuşdur.

Təsadüfi deyildir ki, islam qaynaqlarında Xızırın şəxsiyyəti ilə bağlı fikirlər arasında Xızırın ibtidai dinlərdə bitki Tanrısı kimi qəbul edilməsi də yer almaqdadır.

Araşdırmalar nəticəsində Xızır bir kult olaraq türk təfəkkürünün məhsulu kimi dəyərləndirilmişdir. Ölüb-dirilmə hadisəsilə bağlı olan Xızır tanrıçılıq görüşlərinin əsasında yaranan obrazdır.

Şərq - islam dini sistemində Xızır dirilik suyunu içdiyinə görə peyğəmbər statusu qazanmışdır. Hətta islamda onun Məhəmməd peyğəmbər (s.ə.s.) və Həzrət Əli ilə görüşməsi haqqında müxtəlif mülahizələr də vardır. 1647-ci ildə Azərbaycana gələn türk səyyahı Övliya Çələbi Xıdır-Zində pirini ziyarət etdikdən sonra "həmin türbədə yatan Xızırın bədəninin təzəliyinin hələ də qorunduğunu" qeyd etmişdir. 1858-1859-cu illərdə Qafqaza gəlmiş fransız Aleksandr Düma da həmin türbəni ziyarət etmiş və onun şirvanlıların müqəddəs hesab etdikləri bir ziyarətgah olduğunu yazmışdır.

Mənbələrə görə, hər 500 ildənbir Xızırın cismi yenilənir, təzələnir, o, yaşıl geyimdə, boz at belində səma məclislərinə qoşulan bir obraz kimi təsvir edilir.

Türk xalq inanclarında Xızırla bağlı çoxsaylı mətn vardır ki, onların əksəriyyətində Xızır çətinlikdə qalmış insanları dardan qurtaran mübarək üzlü xeyirxah bir varlıq kimi təqdim edilir. M.Təhmasibə görə, "hətta Xəqaniyə, Nizamiyə yol göstərən, Xətainin əlindən tutan, Füzuliyə ilham və təxəllüs verən də Xızır övliyadır".

Xızır Xıdır Nəbi bayramının əsas iştirakçısı olmaqla yanaşı, həm də xalq yaradıcılığında geniş yayılmış mifioloji obrazdır. Əski inanclara görə, Xızır şəfa verən, xeyirxah varlıqdır. Qırğızların "Manas" dastanında Manasın dünyaya gəldiyi gündən Xızırın ona dualar etməyinin şahidi oluruq. Xalq dastanlarında, o cümlədən "Şah İsmayıl və Gülzar", "Tahir və Zöhrə" dastanlarında Xızır qəhrəmanları müşküllükdən xilas edir.

Qışın oğlan çağı sayılan kiçik çillənin ortalarında keçirilən Xıdır Nəbi bayramında "Xızır süfrəsi" açılar, müxtəlif xəmir xörəkləri bişirilərdi. Əski inanclara görə, "Xızır gəlsin ocağına, şadlıq versin bucağına" deməklə bayrama hazırlıq görülər, xüsusən də Xıdır Nəbi günlərində səməni bişirilərdi. Bayramda adətə görə, oğlan evindən qız evinə "Xızır xonçası" gedərdi. Bu bayram qədim türk mifik düşüncəsində mövsüm mərasimləri arasında məhz kiçik çillə dövründə keçirilən, təbiətin oyanmasını, Günəş və istilik etiqadlarına bağlı olan böyük bir mərasim kompleksidir.

Təqdirəlayiqdir ki, qədim tarixi köklərə malik Xıdır Nəbi bayramı çağdaş dövrdə həm Azərbaycanın müxtəlif bölgələrində, Naxçıvanda, həm Cənubi Azərbaycanda yaşayan həmvətənlərimiz, həm də Anadolu türkləri tərəfindən qeyd olunur. Göründüyü kimi, Xıdır Nəbi bayramı yazın gəlişi ilə bağlı erkən əkinçilik inanc və etiqadları ilə zəngin olan, türk mifik təfəkkürünün ulu qaynaqlarından xəbər verən mövsüm mərasimlərinin toplusu kimi çağdaş dövrümüzdə də öz aktuallığını itirməmiş və əbədiyyət qazanmışdır.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru***

# Soros İrəvanda pul paylamağa davam edir

## Ermənistanda demokratiya adı altında avtoritar rejim yaradılır

Dövlətlərin işinə qarışması ilə tanınan və bu səbəbdən mənfi reputasiyası olan ABŞ-ın Soros Fondunun fəaliyyətini ərazisində qadağan edən ölkələrin sayı artır. Maliyyə möhtəkiri və ölkələrdə xaos yaratmaq müəllifi kimi ad çıxaran fondun rəhbəri Corc Soros bu qurumu təhdid mənbəyinə çevirib.

Fond fəaliyyət göstərdiyi ölkələrin daxili həyatına müdaxilə edərək, onları özündən asılı vəziyyətə salmağa çalışır. Onun maliyyələşdirdiyi rəngli inqilablar bu proseslərin iştirakçısı olan xalqlara yalnız bədbəxtlik gətirib. Bunu Ermənistanın timsalında açıq şəkildə görmək mümkündür.

Məğlub ölkədə bir sıra dairələrin hələ də Sorosun təsiri altında olduğunu növbəti faktlar da təsdiqləyir. Hazırda postmünaqişə dövrü olmasına baxmayaraq, Soros Fondu Ermənistandakı layihələrin həyata keçirilməsi üçün vəsait xərcləməkdə davam edir. Məsələn, 2021-ci il ərzində bu fondun ayırdığı 1,2 milyon dollar vəsait Ermənistanda müxtəlif şəxslərə qrant şəklində paylanıb.

"İravnuk" qəzetində dərc olunan məqalədə yazılır ki, fond bu dəfə fiziki şəxslərə qrant ayırmayıb. Aparılan araşdırmalardan aydın olur ki, qrant ayrılanlardan biri "İnkişaf və hüquq müdafiəsi" fondunun həmtəsisçilərindən biri, parlamentdəki "Mülki müqavilə" hakim fraksiyasına daxil olan Harusyak Culxakyandır. O da bəlli olur ki, sifətinə Mona Lizanın mübhəm təbəssümü hopmuş bu xanım deputat Soros Fondundan 24,5, ona yaxın olan Jenya Mailyanın "Real adamlar və real dünya"sı 24 min 668, ona heç də kənar adam sayılmayan Vayolet Çopunyanın "Hüquq İnkişafı Mərkəzi" 37 min 750, hüquq müdafiəçilərini koordinasiya edən Zarui Ovannesyan 28, Daniel İonasyanın "Məlumatlı Vətəndaşlar İttifaqı" 50, Lusine Vasilyanın "Mandat"ı 70, "Diskriminasiyaya qarşı və birlik naminə"si 43 min 100, Edik Baqdasaryanın "Araşdırmaçı jurnalistlər"i 90 min dollar və "Soros dəyərləri"nin digər keşikçiləri ümumilikdə 1,2 milyon dollar qrant alıblar.

Məqalədə diqqətçəkən məqam odur ki, qrant alanların arasında dövlət məmurları, iqtidar deputatları, hətta səfirlər də var. Bu şəxslərin hamısı 2021-ci ilin parlament seçkilərində bu və ya digər dərəcədə fəallıqları ilə seçiliblər. Məqalə bu sualla tamamlanır: "Bütün bunların demokratiya ilə nə əlaqəsi var və nəyə görə bu hallar öz adı ilə - korrupsiya adlandırılmır".

2018-ci ildə Ermənistanda baş vermiş "məxməri inqilab" nəticəsində Nikol Paşinyanın baş nazir postuna yiyələnməsi ilə Soros Fondunun mövqeləri sürətlə möhkəmlənməyə başladı. Hələ 1997-ci ildə Ermənistanda fəaliyyətə başlayan "Açıq Cəmiyyət Fondu - Ermənistan", demək olar ki, 2018-ci ildə qarşısına qoyduğu əsas məqsədə çataraq bu kasıb postsovet ölkəsində hakimiyyətə nəzarət imkanları qazanıb. Ermənistan hakimiyyətinin Soros Fondunun təsir dairəsində olduğu heç kimə sirr deyil. Paşinyanın verdiyi qərarlar və kadr təyinatları da bunun əyani sübutu kimi çıxış edir. Paşinyan hakimiyyəti hələ də bütün mənalarda Soros Fonduna bağlıdır.

Təsadüfi deyildir ki, onun hakimiyyətə gəlişindən sonra Soros bu ölkəyə daha çox vəsait ayırmağa başlayıb. Təhlillər göstərir ki, fond bir çox postsovet ölkəsində "məxməri inqilab" etmək üçün səy göstərib, amma onun ən uğurlu fəaliyyət göstərdiyi ölkə Ermənistan olub. Görünən həm də odur ki, Sorosun idarəetməsində olan Paşinyan və komandası artıq demokratiya adı altında ölkədə avtoritar rejim yaradır.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan rəhbərliyinin Soros Fondunun təsiri altında olması ilə bağlı tutarlı fikirləri növbəti dəfə öz təsdiqini tapdı. Dövlət başçısı dəfələrlə qeyd edib ki, Ermənistanda hökumətdə, parlamentdə, məhkəmə hakimiyyətində, digər önəmli vəzifələrdə çalışanların çoxu Soros Fondunun və ona yaxın təşkilatların əməkdaşları olub. Ermənistanda baş vermiş "inqilab" Sorosun və ona yaxın dairələrin növbəti təxribatı idi: *"...Düzdür, erməni xalqı əvvəlki hakimiyyətə nifrət edirdi, bunu gizlətmirdi. Ermənistanın əvvəlki hakimiyyəti nifrətə layiqdir. Ancaq onun yerinə gələn qruplaşma əvvəlki hakimiyyətdən o qədər də fərqlənmir. Təsadüfi deyil ki, Soros Fondu pandemiya ilə əlaqədar Ermənistana 600 min dollar maliyyə yardımı göstərib. Başqa hansı ölkəyə göstərib? Postsovet məkanında heç bir ölkəyə göstərməyib. Azərbaycana göstərib? Yox. Azərbaycanda Soros Fondunun izi-tozu da qalmayıb. Çünki onlar burada təxribatla məşğul idilər, gənclərin beyinlərini zəhərləyirdilər. Gəncləri öz dövlətinə qarşı qaldırmaq istəyirdilər. Ona görə onların ayağı kəsildi. Amma onlar Ermənistanda geniş qol-qanad açıblar və gizlətmirlər, bu, açıq bir iadədir. Biz bilirik ki, Ermənistanın indiki rəhbərliyi Soros Fondundan altdan-altdan pul alır, onların agentləridir, onların sifarişini icra edir".*

Ermənistanda baş nazir Nikol Paşinyanın parlamentdə təmsil olunan tərəfdarlarının arasında uzun illər boyu birbaşa Soros Fondunun maliyyəsi ilə yaşayan, fəaliyyət göstərən deputatlar var. Fondla dolayısı ilə əlaqəsi olan deputatların sayı isə 50-yə yaxındır. Soros Fondu tərəfindən Ermənistanda fəaliyyət göstərən 200-dən çox təşkilata 1997-ci ildən 2018-ci il inqilabına qədər 48 milyon dollardan artıq vəsait ayrılıb. Fondun maliyyələşdirdiyi bu təşkilatların çoxsaylı nümayəndəsi hazırda Ermənistanda yüksək dövlət vəzifələrində təmsil olunurlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




Bütün dünya 2 ildir həyatımıza daxil olan yeni növ koronavirus pandemiyasının sona çatacağı ilə bağlı ümidverici xəbər gözləyir. Koronavirusun sürətli yayılma xüsusiyyəti olan son ştamı isə bu istiqamətdəki ümidlərin daha da artmasına yol açıb.

Belə ki, artıq bir çox tibb alimi "Omikron"la bərabər, pandemiyanın da sonuna gəlindiyi barədə fikirlər səsləndirirlər. Bununla bağlı Liverpul Universiteti İnfeksiya və Qlobal Səhiyyə şurasının sədri professor Culian Hiscox bildirib ki, "haradasa pandemiyanın sonunun başlanğıcındayıq, ən azından İngiltərədə". Professor onu da əlavə edib ki, bu il həyatın pandemiya öncəsindəkinə dönəcəyini düşünür.

Bir başqa ümidverici açıqlama isə Danimarkadan gəlib. Adıçəkilən ölkədə yoluxucu xəstəliklər üzrə mütəxəssis Tira Grove Krause bildirib ki, "Omikron" variantı pandemiyanın sonunu gətirəcək. O, fikrini belə əsaslandırıb ki, qarşıdakı aylarda daha çox insana virus yoluxacaq və virus kütləvi olaraq yayılmağa davam edəcək. Və bu ştam bitdiyində vəziyyət əvvəlkindən daha yaxşı olacaq.

Fransa səhiyyə naziri Olivye Veran da pandemiya ilə bağlı təmkinli, amma ümidverici dəyərləndirmə edib: "Bəlkə də virusun son dalğası içindəyik. Ehtimal var ki, bu dalğa bizə bir növ immunitet qazandıracaq".

### Peyvəndlər yeni variantlara qarşı yenilənir

Pandemiyanın bitəcəyi ilə əlaqədar tibb alimlərinin hamısı eyni fikirdə deyil. Onlar sürətli yayılan "Omikron" səbəbindən daha təhlükəli yeni bir variantla qarşılaşma ehtimalımızın olduğunu söyləyir və virusun tamamilə yox olmayacağını bildirirlər. Məsələn, İstanbul Beyin Xəstəxanası yoluxucu xəstəliklər mütəxəssisi doktor Songül Özər "Omikron"un pandemiyanın son variantı olacağını düşünmür: "Çünki hələ də peyvənd olmağı rədd edən, ya da xatırlatma dozası vurdurmayan çox insan var. Həmçinin peyvənd olunduqları üçün ümumi virusdan qorunma tədbirlərinə əməl etməyən bir çox insanın olduğunu da bilirik". Mütəxəssis əlavə edib ki, hazırlanan peyvəndlər yeni variantlara qarşı da hazırlanır. Bu peyvəndlər bütün dünyada bərabər şəkildə paylanarsa, ancaq o zaman bu virus adi bir yuxarı tənəffüs yollarının infeksiyası virusuna çevrilə bilər".

Türkiyə Acıbadem Universiteti Xəstəxanası yoluxucu xəstəliklər və klinik mikrobiologiya mütəxəssisi professor İftixar Köksal isə bildirir ki, yeni mutasiyaların yaranması qaçılmazdır. Üstəlik də yeni variantlar peyvənddən və keçirilmiş infeksiyadan sonra yaranan anticisimlərdən yayına bilir. Buna görə də "Omikron"la bərabər, pandemiyanın bitib-bitməyəcəyini qarşıdakı aprel-may aylarında təxmin etmək mümkün olacaq.

### Təhlükəli simptomlar: davamlı öskürək, yüksək hərarət, qoxu və dad itkisi

Əvvəlki versiyalardan daha yoluxucu olduğu elmi şəkildə təsdiqlənən "Omikron"un yayılması ilə koronavirusda görülən simptomlarda da dəyişikliklər olduğu müşahidə edilir. ABŞ-ın Staten İsland Universiteti Xəstəxanasının Qlobal Sağlamlıq və Təcili Yardım Departamentinin direktoru doktor Cio Pena "Omikron"un ilk simptomlarının boğaz ağrısı kimi yuxarı tənəffüs yollarının infeksiyasının əlamətləri olduğu haqqında məlumat verib.

London Kral Kollecinin Epidemiologiya Departamentindən ZOE Covid Araşdırma İnstitutunun rəhbəri Tim Spektor isə xarici mediaya, "biz hesab edirik ki, "Omikron" yüngül simptomlarla "Delta" variantını keçirən peyvəndlənmiş insanlarda gördüyümüz kimi keçir" - deyə bildirib.

Minlərlə insanın virusla bağlı aidiyyəti proqrama daxil etdiyi simptomlar haqqında məlumatlarını toplayan tədqiqatçılar "Delta" və "Omikron" variantlarının simptomlarını təhlil ediblər və indiyə qədər qeydə alınan beş ümumi simptom belə olub: burun axması, başağrısı, yorğunluq (yüngül və ya ağır), asqırmaq, boğaz ağrısı.

Qeyd edək ki, yuxarıda qeyd olunan simptomlar əsasən peyvənd edilmiş və ya başqa şəkildə immunizasiya edilmiş insanların məlumatları ilə müəyyən edilib.

İngiltərədə Milli Səhiyyə Xidməti isə insanlara göstərilən bu simptomlara diqqət yetirməyi tövsiyə edir: ani davamlı öskürək, yüksək hərarət, qoxu və dad itkisi.

Koronavirus və onun yeni mutasiyaları ilə bağlı bütün elm aləminin ortaq qənaəti isə bu virusdan peyvənd sayəsində qurtulmağın mümkünlüyüdür. Hətta Fransada peyvəndlə bağlı aparılan bir araşdırma zamanı da ortaya çıxıb ki, peyvənd xəstəxanaya yatışları 3,5 - 7 dəfə azaldır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Son sutkada Azərbaycanda koronavirus infeksiyasına 7032 yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 7032 yoluxma faktı qeydə alınıb, 5285 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 22 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 710 min 366 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 653 min 797 nəfər müalicə olunaraq sağalıb, 8 min 920 nəfər vəfat edib. Aktiv xəstə sayı 47 min 649 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 17 min 889, bu günə qədər isə ümumilikdə 6 milyon 296 min 788 test icra olunub.




# Dünən Azərbaycanda 43 min dozadan çox peyvənd vurulub

Fevralın 8-də Azərbaycanda 43 min 126 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 3 min 652, ikinci mərhələ üzrə - 2 min 204, "buster" doza ilə peyvənd olunanların sayı isə 37 min 270 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 12 milyon 261 min 740, birinci mərhələ üzrə vurulan peyvəndlərin ümumi sayı 5 milyon 252 min 35, ikinci mərhələ üzrə 4 milyon 754 min 599, vurulan "buster" doza vaksinlərin ümumi sayı isə 2 milyon 255 min 106-dır.




# Goranboyda COVID-19 əleyhinə tədbirlər gücləndirilib

Goranboy rayonunda koronavirus (COVID-19) pandemiyasının qarşısının alınması, yerlərdə karantin rejimi qaydalarına ciddi əməl olunması və mövcud vəziyyətin nəzarətdə saxlanılması məqsədilə rayon icra hakimiyyəti yanında fəaliyyət göstərən operativ qərargahın üzvləri, rayon polis şöbəsinin əməkdaşları, yerli icra nümayəndələri, bələdiyyələrin və könüllülərin iştirakı ilə yaradılmış mobil qruplar son günlər fəallıqlarını daha da artırmışlar.





Pandemiya başlayandan indiyədək rayonda ümumilikdə 31189 nəfərdə tibbi test aparılmış və 7116 nəfərdə diaqnoz müsbət çıxmışdır. Xəstələrin 6795 nəfəri sağalmış, 128 nəfər vəfat etmişdir. Hazırda ev şəraitində 193 nəfər aktiv xəstə müalicəsini davam etdirir.

Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq, Goranboy rayonunda da əhali arasında vaksinasiya davam edir. Fevralın 7-dək rayon üzrə ümumilikdə 126884 doz vaksin vurulmuşdur ki, bunun da 54019-u 1-ci, 50238-i 2-ci, 22627-si isə 3-cü dozdur.

Əhali arasında təbliğat işləri də gücləndirilib. Tez-tez əhali arasında aparılan maarifləndirmə işində diqqətə çatdırılır ki, yeni növ "Omikron" virusunun yayılma təhlükəsinin artması hər kəsdən bu məsələyə ciddi yanaşmağı və virusa qarşı mübarizə tədbirlərinə əməl etməyi tələb edir. Virusdan qorunmaq üçün ən təsirli vasitə isə peyvənd olunmaqdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İmişlidə vəzifəli şəxslərin qanunsuz əməlləri ilə bağlı cinayət işi başlanıb

İmişli Rayon İcra Hakimiyyəti başçısının Hacırüstəmli kənd icra nümayəndəsinin digər vəzifəli şəxslərlə cinayət əlaqəsinə girərək bir neçə şəxsə COVID-19 əleyhinə vaksinasiya olunmaları ilə bağlı saxta sənədlər vermələri ilə əlaqədar rayon prokurorluğunda araşdırma aparılıb. Rayon prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, araşdırmalarla Hacırüstəmli kənd üzrə icra nümayəndəsi Yavər Şıxalıyevin kənd icra nümayəndəliyinin mühasibi İkram Şeyxalıyev və həmin kəndin tibb məntəqəsində qeyri-rəsmi diş texniki işləmiş Fərahim Yadigarov ilə cinayət əlaqəsinə girərək ayrı-ayrı şəxslərə COVID-19 əleyhinə peyvənd olunmamalarına baxmayaraq, onların "e-TƏBİB" sistemində peyvənd olunmuş kimi qeydiyyata alınmalarını təmin etməsinə əsaslı şübhələr müəyyən olunub. Faktla əlaqədar İmişli Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə istintaq davam edir.

◆ Dünya gündəmi

# Kanadada etiraz dalğası böyüyür

## İflic olunmuş paytaxtda fövqəladə vəziyyət elan edilib

*Əvvəli 1-ci səh.*



Nümayişçilər Ottava mərkəzində Parlament təpəsinin yaxınlığında toplaşıblar. Onların tələbləri artıq genişlənib və bütün ölkə üzrə məhdudiyyətlərin ləğvini nəzərdə tutur. "Konvoy"un üzvləri həm də Baş nazir Castin Trüdonun hökumətinə etiraz edirlər.

Kanadanın CFRA radiostansiyasına verdiyi müsahibədə Uotson, etirazçıların hərəkətlərinin başqalarına necə təsir etdiyinə daha az diqqət yetirdiyini bildirib. Onun dediyinə görə, daimi avtomobil siqnalları, sirenalar və atəşfəşanlıq etirazı çox səs-küylü bir tədbirə çevirir: "Aydındır ki, biz azlıqdayıq və bu döyüşdə məğlub oluruq. Biz şəhərimizi özümüzə qaytarmalıyıq".

Mer görüləcək tədbirlərin konkret təfərrüatlarını açıqlamasa da, Ottava polisi bildirib ki, etirazçılara kömək etməyə çalışanları, məsələn, yanacaq, tualet kağızı və qida məhsulları kimi ilk zəruri əşyaları çatdıranları həbs edə bilərlər.

Fövqəladə vəziyyət şəhər hakimiyyətinə əlavə səlahiyyətlər, o cümlədən təcili xidmətlər üçün zəruri olan avadanlıqlara çıxış verib.

Ottava şəhərinin bir çox sakinləri etirazçıların hərəkətlərini bəyənmirlər. Onlar yolları və keçidləri bağlayan yük maşınlarından, parklarda qurulmuş taxta tikililərdən şikayətlənirlər. Bir çoxları gəlir itkisindən və hətta zorakılıqdan ehtiyatlanırlar.

Polis "Azadlıq konvoyu"nun ifrat sağçı və ekstremist ünsürlərin diqqətini cəlb etməsindən narahat olduğunu bildirib və bazar günü xuliqanlıq, oğurluq, nifrət zəminində cinayətlər və maddi ziyan daxil olmaqla, 60-dan çox ehtimal olunan cinayətin araşdırıldığını təsdiqləyib.

Ottava sakini və Kanada hökumətinin milli təhlükəsizlik üzrə keçmiş analitiki Stefani Karvon BBC telekanalına müsahibəsində nümayişçilərin hərəkətlərində bəzən irqçi motivlərin müşahidə olunduğunu, onlar tez-tez tibbi maskalar geyinənləri təhqir etdiklərini bildirib. Onun dediyinə görə, bəzi etiraz təşkilatçıları ekstremist fikirlərə malikdirlər, lakin bunu COVID məhdudiyyətlərinə qarşı mübarizə ilə pərdələyirlər. Onların əsl motivlərini və fikirlərini anlamayan bir çox kanadalılar isə ekstremistlərə rəğbət bəsləyirlər.

Lakin, ümumilikdə, kanadalılar vaksinasiya tələblərini dəstəkləyirlər və ölkə əhalisinin təxminən 83 faizi tamamilə peyvənd olunub.

"Abacus Data" şirkəti tərəfindən aparılan son ictimai rəy sorğusu kanadalıların 68 faizinin etirazçılara "çox az" inandığını göstərib. 32 faiz isə bildirib ki, onların sürücülərlə "oxşarlığı çoxdur".

Kanada paytaxtını və parlamenti böyük etirazlarla təəccübləndirmək çətindir. Lakin Ottava şəhər polis idarəsinin rəisi dəfələrlə bəyan edib ki, bu, "Azadlıq konvoyu" iştirakçılarının təşkili, maliyyələşdirilməsi və fəallığı baxımından görünməmiş tədbirdir.

Onun sonu hələ görünmür və bir çox sakinlər hüquq-mühafizə orqanlarının hərəkətlərindən məyus olublar. Şəhər sakinləri polisin, onların gündəlik həyatlarının gedişini kobudcasına pozan etirazlara nə üçün son qoya bilməyəcəyini soruşurlar.

Fövqəladə vəziyyətin elan edilməsi etirazçılara təzyiqlərin artırılması məqsədilə son günlər şəhər hakimiyyətinin atdığı növbəti addımıdır. Ancaq vəziyyətin nə vaxt sabitləşəcəyi hələlik aydın deyil.

***Rizvan HİLALOĞLU, "Azərbaycan"***

# Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək




Azərbaycanda fevralın 9-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 4-7°, gündüz 12-16° isti, Bakıda gecə 4-6°, gündüz 14-16° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 756 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, fevralın 9-da Abşeron yarımadasında gilavar küləyinin arabir güclənəcəyi gözlənilir ki, bu da bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 13-18° isti, dağlarda 3-8° şaxta, gündüz 3-8° isti olacağı gözlənilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1-6° şaxta, gündüz 10-15° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, bəzi yerlərdə 8°-dək şaxta, gündüz 3-8° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 0-5° şaxta, dağlarda 12°-dək şaxta, gündüz 3-8° isti olacaq.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 12-17° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 11-16° isti, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 13-18° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-4°, gündüz 11-16° isti, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.


## BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən 18 noyabr 2021-ci il tarixdə elan edilmiş 330/110/10kV-luq "Gəncə" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması, 110/35/10 kV-luq "Laçın (Qorçu)" Yarımstansiyasının tikintisi və istismara verilməsi işlərinin satın alınması üzrə açıq tender üsulu ilə keçirilən tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Electro industries" QSC, "Azconstruction" QSC şirkətləri tenderin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatlarla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular! Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən daha müasir texnologiyaların tətbiqi və bununla da göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar ölkəmizin bəzi ərazilərində 10.03.2022-ci il tarixdə saat 23:59-dan etibarən "2G" texnologiyalarını dəstəkləyən köhnə modelli cihazlarda rabitə xidmətlərinin istifadəsi zamanı çətinliklərin yaranması mümkündür. Qeyd edək ki, daha yeni texnologiyaları dəstəkləyən cihazlardan istifadə edən abunəçilər hər hansı çətinlik ilə qarşılaşmayacaq. Bu səbəbdən abunəçilərimizdən yuxarıda sadalananları nəzərə almağı xahiş edirik.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### gəmilərə ümumi təyinatlı malların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Hüseynov küç, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### nasoslar və mexaniki ehtiyat hissələrinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Hüseynov küç, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

*Tender komissiyası*

## BİLDİRİŞ

"FATİMƏ-2008" MMC bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyəti olduğunu bildirir.

Bununla bağlı tələbi olan kreditorlar Bakı şəhəri, Nəsimi rayonu, Tbilisi prospekti, 3007-ci məhəllə, 44C ünvanına müraciət edə bilərlər.

Əlaqə nömrəsi: (+994)51-505-00-92

**"FATİMƏ-2008" MMC**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA-nın birinci vitse-prezidenti, akademik Arif Həşimova qardaşı, Azərbaycanın Əməkdar rəssamı, professor

**FİKRƏT HƏŞİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyətinin üzvləri və aparat işçiləri MİHİ RK-nın sədri Cəmilə Səttarovaya əzizi

**RAMİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi SOCAR-ın iqtisadi məsələlər üzrə vitse-prezidenti Süleyman Qasımova anası

**GÜLÜSTAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fazil Abdullayev, Eldar Əliyev, Rafiq Hüseynov, Muqdat İsmayılov, Vüqar Şəfiyev, Vüqar Şıxməmmədov, Məcid Miriyev və Azər Qasımov Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Maliyyə-iqtisadiyyat idarəsinin rəisi Sərxan Xəlilova atası

**FİRİDUN XƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5418
Sifariş 381
Qiyməti 40 qəpik